2023 – "Heydər Əliyev İli"

Təhsil millətin gələcəyidir!

Heydər Əliyev

AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının
Elm və Təhsil Nazirliyinin orqanı

6 yanvar 2023-cü il
№01 (9009)

www.muallim.edu.az
muallim@edu.gov.az

Heydər Əliyevin xatirəsinə ən böyük hörmətimiz onun yoluna sədaqətimizdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətindən

Mən bu ili "Şuşa İli" elan etmişdim. Şuşanın 270 illiyini biz çox geniş və böyük təntənə ilə qeyd etdik. Gələn il isə "Heydər Əliyev İli" elan edilib. Gələn il biz Ulu Öndərin 100 illik yubileyini qeyd edəcəyik. Heydər Əliyevin xatirəsinə ən böyük hörmətimiz onun yoluna sədaqətimizdir. Biz bu yolla gedirik və bu gün Azərbaycan reallıqları, uğurlar, qələbələr, bax, bu yolun təməlində dayanıb.

BU SAYIMIZDA

Müəllim olmaq kimi şərəfli bir iş yoxdur

Həyatının hər anı xalqının taleyinə bağlı olan, millətini uca tutmağı bacaran, Vətənini canından artıq sevən dahi insanlar haqqında heç vaxt keçmiş zamanda danışılmır. Adının çəkildiyi anda göz önündə ömür yolu, fəaliyyəti canlanır. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev də məhz xalqımızın böyük mənəvi dəyərinə, ümid və and yerinə çevrilən əbədiyaşarlıq qazanmış parlaq şəxsiyyətidir. Bu gün biz gündəlik həyat və fəaliyyətimizin hər addımında dahi insanı xatırlamaqla yanaşı, eyni zamanda onun nəcib və uzaqgörən əməllərinin uğurlu nəticələrinin şahidləriyik. Heydər Əliyev Azərbaycan təhsilinin, elminin inkişafına xüsusi önəm verir, bu sahədə atılan hər bir addıma xüsusi həssaslıqla yanaşırdı.

səh.3

Sərhəd tanımayan şöhrətin parlaq təcəssümü

"Həqiqi dahi o insandır ki, ürəyi hamı üçün döyünür". Dünyaşöhrətli fransız yazıçısı, Nobel mükafatı laureatı Romen Rollanın bu müdrik fikri müstəqil Azərbaycan dövlətinin qurucusu, dünya azərbaycanlılarının fəxri və Ümummilli Lideri, böyük siyasətçi və mütəfəkkir Heydər Əliyevin həyat idealını çox dəqiq ifadə edir. Anadan olmasının ildönümlərini hədsiz qürur hissi ilə qeyd etdiyimiz qüdrətli dövlət xadimi Heydər Əliyevin ömür yolu nəcib məqsədlərə, işıqlı ideallara, Vətənə və millətə təmənnasız olaraq sədaqətlə xidmətin parlaq nümunəsidir. Azərbaycanın xalqımıza şərəf və başucalığı gətirən müasir tarixinin zəfər salnaməsinin yaradılmasında böyük rəhbərimizin ölçüyəgəlməz xidmətləri danılmaz və unudulmaz həqiqətdir.

səh.6-7

Heydər Əliyev irsinin öyrənilməsi və təbliği

2023-cü il Ümummilli Lider, müstəqil və müasir Azərbaycan dövlətinin memarı Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Bununla əlaqədar olaraq, dövlət başçımızın müvafiq Sərəncamı ilə Azərbaycanda 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi mühüm tarixi əhəmiyyət kəsb edir.

Ulu Öndər Azərbaycanın müstəqil dövlət kimi mövcudluğunun qorunması və hərtərəfli inkişafı naminə göstərdiyi misilsiz xidmətləri ilə hələ sağlığında xalqımızın qəlbində öz əbədi heykəlini ucaltmışdır. Güclü siyasi iradəsi, qətiyyəti və uzaqgörənliyi, yüksək intellekti, əzmkarlığı və fədakarlığı, zəngin idarəçilik təcrübəsi ilə Vətən qarşısında xilaskarlıq missiyasını uğurla yerinə yetirən Heydər Əliyev adını Azərbaycan tarixinə qızıl hərflərlə yazmışdır.

səh.9

Azərbaycan Prezidenti və birinci xanım Bakıda Uşaq-Gənclər İnkişaf Mərkəzində əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olublar

Gənc nəslin müasir dövrün inkişaf trendlərinə uyğun formalaşmasına göstərilən diqqət və qayğının daha bir nümunəsi







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda Uşaq-Gənclər İnkişaf Mərkəzində əsaslı təmir və bərpadan sonra yaradılan şəraitlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev Mərkəzdə yaradılan şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, 1937-ci ildə Bakıda S.Vəlixanlı küçəsi 3 ünvanında yerləşən binada Mərkəzi Pionerlər Sarayı yaradılıb. Bundan məqsəd uşaqların asudə vaxtını səmərəli və məqsədəuyğun təşkil etmək, onların bilik, bacarıq və vərdişlərini inkişaf etdirmək, məktəbdənkənar tərbiyə işinin təşkilində uşaqlara praktiki və metodiki kömək göstərməkdən ibarət olub.

İlk vaxtlar sarayda texniki yaradıcılıq, bədii tərbiyə, təsviri sənət, fiziki tərbiyə üzrə dərnəklər fəaliyyət göstərib. 1946-cı ildə sarayda xoreoqrafiya, xalq çalğı alətləri, qarmon ifaçıları və xor kollektivlərindən ibarət mahnı və rəqs ansamblı yaradılıb. Bəstəkar Qəmbər Hüseynli ansambl üçün “Cücələrim” mahnısını yazıb. Məhz bu səbəbdən 1959-cu ildə kollektiv “Cücələrim” adlandırılıb.

Təqribən 15 il sonra - 1961-ci ilin aprelində dünyanın ilk kosmonavtının şərəfinə saraya Yuri Qaqarinin adı verilib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 dekabr 1991-ci il 427 saylı qərarına əsasən Y.Qaqarin adına pioner və məktəblilər sarayının adı dəyişdirilmiş, Tofiq İsmayılov adına Respublika Uşaq-Gənclər Yaradıcılıq Sarayı adlandırılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 1 noyabr tarixli qərarına uyğun olaraq Təhsil Nazirliyi Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzi, Respublika Gənc Turistlər və Diyarşünaslıq Mərkəzi və Tofiq İsmayılov adına Bakı Şəhəri Uşaq-Gənclər Yaradıcılıq Sarayı birləşdirilərək onların bazasında Uşaq-Gənclər İnkişaf Mərkəzi yaradılıb, ötən il isə ona publik hüquqi şəxs statusu verilib.

Fəaliyyəti dövründə minlərlə istedadlı gəncin müxtəlif ixtisaslar üzrə formalaşmasında mühüm xidmətləri olan Mərkəz 2022-ci ildə əsaslı təmir edilib. İstifadəyə verildikdən sonra Mərkəzdə rəqs, musiqi alətləri, vokal, sağlam həyat tərzi, teatr, rəssamlıq, xarici dillər, intellektual inkişaf, elm və texnologiya, ekoklub, psixologiya, kulinariya və turizm istiqamətləri üzrə 44 dərnək təşkil olunub. Həmin dərnəklərdə 1500 nəfərədək şagirdin məşğul olması nəzərdə tutulub. Həmçinin binada 20 inzibati, 20 texniki və 65 pedaqoji işçi çalışacaq.

Qeyd edək ki, bu Mərkəzin binasının əsaslı təmiri və bərpası Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın gənc nəslin müasir dövrün inkişaf trendlərinə uyğun formalaşmasına göstərdikləri diqqət və qayğının daha bir nümunəsidir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda “STEAM İnnovasiya Mərkəzi”nin açılışında iştirak ediblər

Elm və təhsil sahəsində yeniliklərin tətbiqinə, təhsilin müasir tələblər səviyyəsində inkişaf etdirilməsinə, gənc nəslin yeni ideyalarının reallaşdırılmasına göstərilən diqqətin əyani təzahürü

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda “STEAM İnnovasiya Mərkəzi”nin açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına və birinci xanıma Mərkəzdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, “STEAM İnnovasiya Mərkəzi”nin dördmərtəbəli yeni binasında aviasiya məkanı, klassik Nyuton, uşaqlar üçün Nyuton, konfrans, oyun, konstruksiya, “Heureka Classics” otaqları, robotların hazırlanması laboratoriyası, “3D hologram”, VR zonaları mövcuddur.

Qeyd edək ki, müasir dünya reallıqları gələcəkdə yüksəkixtisaslı mütəxəssislərin yetişməsi üçün təhsil qarşısında bir çox mühüm vəzifələr qoyur. Həyatın bütün sahələrində işlərin yeni dünya düzəninə uyğun qurulması üçün təhsil ocaqlarında öyrənmək maraqlı olmalı, bilik təcrübədə tətbiq edilməli, təlim maraqlı formada keçilməlidir. Yəni, bu günün məzunları müasir tələblərə cavab verən, əmək bazarında özünü doğruldan şəxslər olmalıdır. Elə bu məqsədlə də Elm və Təhsil Nazirliyi 2019-2020-ci tədris ilindən başlayaraq Heydər Əliyev Fondunun dəstəyi ilə “STEAM Azərbaycan” layihəsinə start verib. STEAM - elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın birləşməsi nəticəsində yeni ideyaların reallaşdırılması, cəmiyyətdə müxtəlif problemlərin həllinə kömək edə biləcək təhsil yanaşmasıdır. Hazırda ölkəmizin bir sıra məktəblərində STEAM otaqları və mərkəzləri fəaliyyət göstərir.

Diqqətə çatdırıldı ki, “STEAM Azərbaycan” layihəsinin davamı olan “STEAM İnnovasiya Mərkəzi”nin fəaliyyəti orta məktəblərdə eyniadlı mövcud mərkəzlərin tədris proqramına görə fərqlənir. Bu Mərkəzə müraciət edən müxtəlif yaş kateqoriyasından olan məktəblilər və tələbələr XXI əsr bacarıqlarını - kreativliyi, əməkdaşlığın inkişaf etdirilməsini, müxtəlif proqramlaşdırma dillərini tətbiq etməklə müasir İKT avadanlıqlarından istifadə qabiliyyətlərini yüksəldəcəklər. Uşaqlar real həyat problemləri ilə qarşılaşdıqda, STEAM metodu vasitəsilə onun rahatlıqla ən uyğun həlli yollarını tapmağa çalışacaq və yaradıcı yanaşmalarını nümayiş etdirəcəklər.

Məlumat verildi ki, bu Mərkəzin məqsədi şagirdlərin potensialını və maraqlarını cəmiyyətə xidmət işinə yönəltmək, onları öyrənməyə həvəsləndirməkdir. STEAM tədris üsulu müasir dövrdə ölkənin sosial-iqtisadi inkişafında çox böyük əhəmiyyətə malikdir. Belə ki, uşaqlar bu metod vasitəsilə elmin digər sahələri ilə yanaşı, beyinlərinin məhsulunu ortaya qoya biləcək, gələcəyin mütəxəssisləri kimi yetişəcək və ölkənin inkişafına töhfələrini verəcəklər.

Bu Mərkəzin yaradılması dövlətimiz tərəfindən ölkəmizdə elm və təhsil sahəsində yeniliklərin tətbiqinə, təhsilin müasir tələblər səviyyəsində inkişaf etdirilməsinə, gənc nəslin yeni ideyalarının reallaşdırılmasına göstərilən diqqətin və verilən əhəmiyyətin əyani təzahürüdür.

Müəllim olmaq kimi şərəfli bir iş yoxdur

Həyatının hər anı xalqının taleyinə bağlı olan, millətini uca tutmağı bacaran, Vətənini canından artıq sevən dahi insanlar haqqında heç vaxt keçmiş zamanda danışılmır. Adının çəkildiyi anda göz önündə ömür yolu, fəaliyyəti canlanır. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev də məhz xalqımızın böyük mənəvi dəyərinə, ümid və and yerinə çevrilən əbədiyaşarlıq qazanmış parlaq şəxsiyyətidir. Bu gün biz gündəlik həyat və fəaliyyətimizin hər addımında dahi insanı xatırlamaqla yanaşı, eyni zamanda onun nəcib və uzaqgörən əməllərinin uğurlu nəticələrinin şahidləriyik.

Heydər Əliyev Azərbaycan təhsilinin, elminin inkişafına xüsusi önəm verir, bu sahədə atılan hər bir addıma xüsusi həssaslıqla yanaşırdı. Məhz Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanın ümumi təhsil müəssisələrinin infrastrukturunun yenilənməsi, yeni məktəb binalarının tikilərək istifadəyə verilməsi ilə bağlı həyata keçirilən davamlı işlərin hazırda da bu istiqamətdə atılan addımların başlanğıcı, həmin illərdə qoyulan ənənənin davamıdır desək, bizcə yanılmarıq.

Heydər Əliyev Azərbaycan məktəbinə yüksək dəyər verirdi, Azərbaycan müəllimlərini çox sevirdi. Təhsili millətin gələcəyi kimi dəyərləndirən Ulu Öndər müəllimə olan hörmətini, etimadını “Mən dünyada müəllimdən yüksək ad tanımıram”- deməklə, göstərirdi.

Dahi şəxsiyyət yeni tədris ilinin başlanması və “Bilik günü” münasibətilə təhsilin bünövrəsi sayılan ümumi təhsil müəssisələrinə gedişi ilə orada müəllim və şagird kollektivinə unudulmaz anlar bəxş edirdi.

Ulu Öndəri elə müəllimlər, şagirdlər, tələbələr, bütövlükdə təhsil ictimaiyyəti də çox sevirdi. Getdiyi təhsil müəssisələrində ona olan sonsuz hörmət və ehtiramlarını nümayiş etdirməyə çalışırdılar.

Ümummilli Lider Heydər Əliyevin 1 sentyabr 2000-ci ildə yeni dərs ilinin başlanması və “Bilik günü” münasibətilə Bakının Nərimanov rayonundakı 82 nömrəli tam orta məktəbə gedişindən illər keçsə də adıçəkilən ümumi təhsil müəssisəsinin müəllim kollektivi üçün bu gün də xoş hisslərlə yada salınan ən əlamətdar hadisədir.

Həmsöhbətimiz olan elə Bakıdakı 82 nömrəli tam orta məktəbin direktoru və vaxtilə Ulu Öndərlə ünsiyyətdə olmuş bir qrup müəllim məhz “Heydər Əliyev İli”ndə dahi şəxsiyyətlə bağlı fikirlərini, xatirələrini bölüşüblər.

> “Müəllimlik sənəti, peşəsi cəmiyyətdə ən yüksək qiymətə layiq olan bir peşədir. Müəllim olmaq kimi şərəfli bir iş yoxdur. Çünki müəllimlər xalqın biliklənməsinin, təhsilin inkişaf etməsinin və nəhayət, xalqın elminin inkişaf etməsinin əsasını qoyanlardır. Ona görə də bu bayram günü mən, ilk növbədə müstəqil Azərbaycanın bütün müəllimlərini ürəkdən təbrik edirəm, müəllimə, bu müqəddəs ada öz dərin hörmət və ehtiramımı, sevgi, məhəbbətimi bildirirəm. Bəyan edirəm ki, müəllim bundan sonra da müstəqil Azərbaycanın həyatında görkəmli yer tutacaq, müəllimə qayğı gündən-günə artacaq və müəllimin şanı-şöhrəti daha da yüksələcəkdir”.
>
> **Ümummilli Lider Heydər Əliyevin yeni dərs ilinin başlanması və “Bilik günü” münasibətilə Bakının Nərimanov rayonundakı 82 nömrəli məktəbdə keçirilən təntənəli toplantıdakı nitqindən, 1 sentyabr 2000-ci il**

Ulu Öndər paytaxt məktəbində

Uşaqlara çox çalışmağı, öyrənməyi tövsiyə etdi

Kəmalə ABDIYEVA,
ibtidai sinif müəllimi

- 1994-cü ildən Bakıdakı 82 nömrəli tam orta məktəbdə ibtidai sinif müəllimi işləyirəm. Fəaliyyət göstərdiyim bu 28 ildə ən unudulmaz gün dahi şəxsiyyət Heydər Əliyevin məktəbimizə gəlişi və mənim də sinfimdə olmasıdır.

Yaxşı xatırlayıram. 2000-ci il sentyabrın 1-i idi. Məktəbimizin həyəti adamla dolu idi. Hamı Ulu Öndərin gəlişini gözləyirdi. Budur, gözlənilən an gəldi. Ümummilli Lider Heydər Əliyev gəldi, hamı ilə görüşüb tribunaya qalxdı. Həmişəki kimi aydın, səlis nitqi ilə müəllim və şagirdləri, valideynləri “Bilik günü” münasibəti ilə təbrik etdi, tövsiyələrini verdi. Sonra məktəbimizlə, buradakı təlim-tədris mühiti, yeniliklərlə tanış olmaq üçün sinif otaqlarını, fənn kabinetlərini gəzdi. Birinci sinif şagirdlərini isə məktəbə ilk qədəm qoyduqları üçün xüsusi təbrik etdi. İçi ləvazimatlarla dolu məktəbli çantaları birincilərə hədiyyə olundu. Təbii ki, o zaman birinci sinifdə oxuyan balacalar da həmin günü ömürləri boyu unutmayacaqlar. Ona görə ki, belə xoşbəxtlik hər şagirdə nəsib olmur. Onlar təhsil ocağına qədəm qoyduqları ilk gününü respublikamızın rəhbəri, hamımızın sevimlisi olan Prezident Heydər Əliyevin xeyirduası ilə başladılar.

Budur, dahi şəxsiyyət mənim sinfimə daxil oldu. Mən və şagirdlərim çox həyəcanlı idik. Bizi elə səmimi, mehriban salamladı ki, həyəcan bir anda yox oldu. Uşaqlar onun suallarına sərbəst cavab verirdilər. Yadımdadır, necə oxuyacaqlarını soruşduqda uşaqlar “Yaxşı” cavabını vermişdilər. Mən düzəliş etdim ki, “Əla” oxuyacaqlar. Ulu Öndər mənə baxıb gülümsədi və dedi: “ Əlbəttə, “Əla” daha üstündür”. Heydər Əliyev uşaqlara çox çalışmağı, öyrənməyi tövsiyə etdi.

Həmin gün Heydər Əliyevin necə böyük şəxsiyyət olduğunun, onun təhsilə diqqət və qayğısının, uşaqlara olan sevgisinin bir daha canlı şahidi oldum. Bu dahi insanı görmək, onunla ünsiyyətdə olmaq mənim üçün böyük fəxrdir. Həmin anları əks etdirən şəkil hazırda da sinfimdə divardan asılıb. Hər zaman şagirdlərimə sevə-sevə bu görüşdən danışıram.

Bəli, mən fəxr edirəm ki, Ümummilli Liderimiz Heydər Əliyevi yaxından görmək şərəfinə nail olmuşam.

Dahi şəxsiyyətin olduğu məktəbə rəhbərlik etmək böyük bir məsuliyyətdir

Leyla FƏTİYEVA,
Bakıdakı 82 nömrəli tam orta məktəbin direktoru

- Dünya yarandı... Onun tarixi yarandı... Bu tarixi yazan və yaradan insanlardır... Bu insanların taleyi, həyatı, fəaliyyəti, məramları çox qeyri-adiliklərlə dolu olduğu üçün onlar haqqında daha çox öyrənmək, daha çox düşünmək istəyirsən. Tarix yaratmaq tarix yazmaqdan çətindir. Ulu Öndərimiz Heydər Əliyev tarix YARADAN dahi insandır. Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi yaddaşlarda yaşayır...

2000-ci ildə Ümummilli Lider Heydər Əliyev məhz bizim 82 nömrəli tam orta məktəbin qonağı olmuşdur. Məktəbin sinif otaqlarını gəzmiş, dərs prosesi ilə maraqlanmış, dərsliklərin vəziyyətini nəzərdən keçirmiş, müəllimlərin, şagirdlərin ürək sözlərini dinləmişdir. Prezidentin məktəbə gəlişi televiziyada canlı yayımlanmışdı. O zaman ictimaiyyət tərəfindən bu hadisə çox yüksək qiymətləndirilmişdi. Mən də dahi şəxsiyyətin məktəbə gəlişini televiziyadan maraqla izləmişdim.

Həmin vaxtdan illər keçib. Təsadüf elə gətirdi ki, məhz bu məktəbdə direktor kimi fəaliyyətə başladım. Mənim üçün dahi şəxsiyyət Heydər Əliyevin olduğu məktəbə rəhbərlik etmək böyük bir məsuliyyət, həm də qürurvericidir. Çox böyük fəxr və şərəf duyuram ki, məktəbimizin Ulu Öndərlə bağlı xoş xatirələri var...

Məktəbə daxil olduğum andan foyedə dahi şəxsiyyətin təhsil müəssisəsinin kollektivi, şagirdləri ilə çəkdirdiyi şəkillərlə üzləşirəm və hər gün elə bil əbədiyaşar liderin sözlərini eşidirəm “...Uşaqlarımızı vətənpərvər ruhda tərbiyə etməliyik ki, onlar Vətənə bağlı olsunlar, milli ruhda böyüsünlər, milli dəyərlərimizi hər şeydən uca tutsunlar. Biz balalarımızı qorumalıyıq...”

Ömrümü təhsilə həsr etmiş bir məktəb direktoru olaraq əvəzolunmaz şəxsiyyətin təhsil ocağımıza göstərdiyi hörmətə və qayğıya həyatım boyu ehtiramla yanaşacağam. Dahi şəxsiyyətin , Azərbaycan təhsilinin qayğıkeş hamisinin “İnsan üçün hər şeydən əvvəl onun Vətənidir, torpağıdır. Biz çox əsrlər bu vətənin azadlığının, müstəqilliyinin arzusunda olmuşuq, indi buna nail olmuşuq və bunu əziz tutmalıyıq...” sözləri mənim və məktəbimizdə dərs deyən müəllimlərin həyat kredosuna çevrilmişdir. Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan dövləti və milləti qarşısında misilsiz xidmətləri mənim üçün də, məktəmizdə dərs deyən hər bir müəllim üçün də unudulmazdır. Xüsusilə Ulu Öndərlə yaxından ünsiyyətdə olmuş müəllimlərimiz onunla bağlı xatirələrini hər zaman böyük sevgi ilə bölüşürlər.

Ümummilli Lider müstəqil Azərbaycanın milli təhsil quruculuğu sahəsində aparılan islahatların memarı və yaradıcısı idi. Məhz onun hakimiyyətə xilaskar missiyalı qayıdışı Azərbaycanın təhsili sahəsində tənəzzülünün qarşısını almağa imkan verdi, təlim-tərbiyə müəssisələrinin ahəngdar işi bərpa olundu, təhsil sisteminin müstəqil dövlətçilik prinsipləri əsasında qurulmasına tarixi şərait yarandı...

İllər ötəcək, nəsillər bir-birini əvəz edəcək. Və Azərbaycan xalqının iftixarı olan HEYDƏR ƏLİYEVİN uzaqgörən strategiyası uğurlu gələcəyə gedən yollarımızı əbədi məşəl kimi daim işıqlandıracaq...

Samirə KƏRİMOVA

Dahi insanla söhbət etmək çox qürurvericidir

Zairə RAMAZANOVA,
ibtidai sinif müəllimi

- 1996-cı ildən bu məktəbdə rus bölməsində dərs deyirəm. 2000-ci ildə Ulu Öndər Heydər Əliyev “Bilik günü”ndə bizim məktəbə şagirdləri və müəllimləri təbrik etmək üçün gəlmişdi. O, zaman 30 yaşım var idi. Müəllim kimi 5 il idi ki, fəaliyyət göstərirdim. Həm sevinirdim, həm də dahi şəxsiyyətlə görüşün mənim üçün böyük anlam kəsb etdiyindən məsuliyyətim birə-beş artmışdı. Ümummilli Lideri yaxından görəcəyim anı səbirsizliklə gözləyirdim.

Heydər Əliyevin təhsil işçilərinə, şagirdlərə, eləcə də valideynlərə verdiyi tövsiyələr, səsləndirdiyi müəyyən iradların hər biri bizlər üçün çox əhəmiyyətli və dəyərli idi.

Ümummilli Lider birinci mərtəbədəki sinif otaqlarından birinə daxil oldu. Burada gördüyü şərait, xüsusilə siniflərdə kompüterlərin olması çox xoşuna gəldi. Sonra bizim sinif otağının qapısı açıldı və dahi şəxsiyyət mənim dərs dediyim birincilərlə görüşdü. Ulu Öndər balacalarla söhbətləşdi, mənə siniflə bağlı suallar verdi və bütün şagirdlərə hədiyyə olaraq çanta və məktəb ləvazimatları təqdim edildi. Ümummilli Liderimiz həm şagirdlərlə, həm də mənimlə çox səmimi söhbət etdi, hətta zarafatlaşdı. Dahi insanın səmimiliyi həyəcanımı bir anda yox etdi. Onun müəllimlik peşəsinə, müəllim əməyinə necə hörmətlə yanaşmasının bir daha canlı şahidi oldum.

Əlbəttə ki, bir müəllim olaraq dahi şəxsiyyətin yanında durmaq, onunla söhbət etmək böyük fəxr və qürurverici bir hissdir. Heydər Əliyevi yaxından gördüyüm, onunla ünsiyyətdə olduğum üçün özümü xoşbəxt müəllimlərdən sayıram.

Müəllimlərlə, şagirdlərlə görüşü tamam başqa bir aləm idi

Gülşən CƏLİLOVA,
ibtidai sinif müəllimi

- Ulu Öndərlə bağlı xatirələr məni 23 il əvvələ aparır. 2000-ci ilin ilk dərs günü idi... Məktəbimiz hələ belə bir ehtişam görməmişdi, çünki varlığı ilə hər bir azərbaycanlının qürur duyduğu şəxs - Ümummilli Lider Heydər Əliyev bizimlə görüşə gəlmişdi... Həmin an yaşadığım hissləri sözlə ifadə etməkdə çətinlik çəkirəm. O qürurlu yeriş, bütün qəlblərə sirayət edən nüfuzedici, ümidverici baxışlar, səmimiyyət, sadəlik biz müəllimləri çox məmnun etmişdi. Onun məktəblə tanışlığı , müəllimlərlə, şagirdlərlə görüşü isə tamam başqa bir aləm idi. Bir Lider bu qədərmi sadə, sevgi dolu olarmış? Şagirdlərimiz onun qarşısında şeir söyləyəndə gözlərindəki sevinc və sevgi çox açıq sezilirdi. Ulu Öndər məktəbimizin kitabxanası ilə tanış olduqda tarix dərsliklərilə bağlı müəyyən iradlarını bildirdi. Elə həmin vaxtdan tarix dərsliklərinin yenilənməsində bir dönüş yaratdı. Onu da qeyd edim ki, dərs ili başlayanadək heç birimizin Heydər Əliyevin gəlişindən xəbəri yox idi. Məktəbimizin keçmiş direktoru V.Mehdiyevin “Bu il məktəbimizin şagirdlərinin 80 faizi yüksək göstəricilərlə ali məktəbə daxil olub”- məlumatını söyləməsi məni çox sevindirdi. Xalqını, millətini canından çox sevən, Azərbaycan balalarını savadlı, bilikli, bacarıqlı görmək istəyən, onların yüksək təhsil almasına xüsusi önəm verən bir Lider üçün bundan gözəl hədiyyə nə ola bilərdi ki?

Ulu Öndərin adı, əməlləri daim qəlbimizdə yaşayacaq. Bir mahnıda deyildiyi kimi:

“Nə qədər Azərbaycan,
Nə qədər bu millət var,
Heydər xalqım deyəcək,
Xalq Heydər söyləyəcək!

Heydər Əliyev şagirdlərə hədiyyələr verdi

Gülər ORUCOVA,
ibtidai sinif müəllimi

- 25 ildir ki, müəllim olaraq çalışıram. Bu illər ərzində pedaqoji fəaliyyətim, şagirdlərimlə bağlı yaddaqalan anlarım, xatirələrim çoxdur. Amma onların arasında mənim üçün daha fərqli, qürur hissi doğuran, hər dəfə xoş hisslərlə yada saldığım bir xatirə var...

2000-ci il idi. O vaxtlar gənc bir müəllim idim. Yeni tədris ilinin ilk günü idi. Məktəbin direktoru Vaqif Mehdiyev bizə bildirdi ki, müasir dövlətçiliyimizin banisi, Ümummilli Lider Heydər Əliyev “Bilik günü” münasibəti ilə məktəbimizə gələcək. Bu xəbər hamıda bir sevinc, coşqu, eyni zamanda həyəcan yaratdı. Mən uşaq kimi sevinirdim.. Böyük bir həyəcanla, sevgi ilə Ulu Öndəri gül-çiçəklə, alqışlarla qarşıladıq. Dahi şəxsiyyət müəllim kollektivini, şagirdləri yeni dərs ilinin başlanması və “Bilik günü” münasibəti ilə təbrik etdi. Biz təhsil işçilərinə, şagird və valideynlərə məsləhət və tövsiyələrini verdi. Sonra sinif otaqlarına daxil oldu. O zaman mən I sinif götürmüşdüm. Balaca fidanlarımın gözlərindəki marağı, sevinci heç vaxt unutmaram. Uşaqların sevimlisi Heydər Əliyev sinfə daxil oldu. Ulu Öndər o qədər səmimi, o qədər mehriban idi ki, bir az əvvəlki həyəcanımdan artıq əsər-əlamət qalmamışdı. Heydər Əliyev şagirdlərlə söhbətləşdi və onlara hədiyyələr verdi.

Dahi şəxsiyyət məndən bu peşəni niyə seçdiyimi, peşəmi sevib-sevməməyimi soruşdu. Peşəmin çox şərəfli, məsuliyyətli olduğunu qeyd etdi. Bu şərəfli və məsuliyyətli işdə biz müəllimlərə müvəffəqiyyətlər arzuladı. Mən də öz növbəmdə Ulu Öndərə təhsilə, təhsil işçilərinə göstərdiyi diqqət və qayğıya görə təşəkkürümü bildirdim.

Bundan sonrakı həyatımda da bir çox görüşlər, hadisələr ola bilər. Amma 2000-ci il 1 sentyabr tarixi mənim üçün unudulmaz, yaddaşımda hər zaman xoş hisslərlə xatırlayacağım bir gün kimi qalmaqdadır.

SDU-nun əməkdaşlarına dövlət təltifləri təqdim edilib

Dekabrın 22-də Elm və Təhsil Nazirliyində Prezident İlham Əliyevin sərəncamlarına əsasən, Sumqayıt Dövlət Universitetinin 60 illiyi münasibətilə və Azərbaycanda təhsilin inkişafında xidmətlərinə görə bu ali təhsil müəssisəsinin təltif olunan əməkdaşlarına dövlət təltiflərinin təqdimetmə mərasimi keçirilib.

Mərasimdə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə SDU-nun professor-müəllim heyətinin bir qrupunu yüksək dövlət mükafatlarına layiq görülməsi münasibətilə təbrik edib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Nazir 60 illik təcrübəsi olan bu ali təhsil ocağının müasir qlobal çağırışlara uyğun yüksək peşəkarlığa və səriştəliliyə malik, rəqabətədavamlı mütəxəssislərin hazırlanmasına və insan kapitalının davamlı inkişafına, elmi-intellektual mühitin formalaşmasına gələcəkdə də öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

Daha sonra universitetin əməkdaşlarına dövlət təltifləri təqdim olunub.

Sonda SDU-nun rektoru Elxan Hüseynov çıxış edərək universitetin əməkdaşlarına göstərilən yüksək diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Böyük Qayıdışa dair I Dövlət Proqramına həsr olunan konfrans keçirilib

Dekabrın 24-də Yeni Azərbaycan Partiyasının təşkilatçılığı, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin tərəfdaşlığı ilə “Böyük Qayıdış: İlham Əliyev siyasətinin təntənəsi” adlı konfrans keçirilib.

Tədbir “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”na həsr olunub.

Konfransda dövlət və hökumət rəsmiləri, Yeni Azərbaycan Partiyasının nümayəndələri, millət vəkilləri, ictimai xadimlər və mətbuat nümayəndələri iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən Yeni Azərbaycan Partiyasının sədr müavini — Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov konfransın əhəmiyyətindən söz açıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın Tədbirlər Planı ilə bağlı təqdimatla çıxış edib.

Daha sonra ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev “Böyük Qayıdış Proqramının ekoloji aspektləri”, elm və təhsil naziri Emin Əmrullayev “Böyük Qayıdışda insan kapitalının rolu”, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev “Böyük Qayıdış: şəhərsalma siyasətinin hədəfləri” mövzularında məruzələr ediblər.

Bildirilib ki, “Böyük Qayıdışa dair I Dövlət Proqramı”nda işğaldan azad edilən ərazilərdə aparılan bərpa-quruculuq işləri və mövcud vəziyyət, nail olunması hədəflənən məqsədlər, onlara uyğun hədəf göstəriciləri, əhalinin doğma torpaqlarına qayıdışı məsələləri, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri və həyata keçiriləcək tədbirlər öz əksini tapıb. Dövlət Proqramının Tədbirlər Planı bölməsində 25 fəaliyyət istiqaməti üzrə görüləcək 188 tədbirin icrası nəticəsində 237 ilkin, 238 aralıq və 163 yekun nəticə indikatorları olmaqla ümumilikdə 638 indikator müəyyənləşdirilib.

Tədbirin sonunda konfrans iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət ünvanlanıb. Müraciəti Tahir Budaqov səsləndirib.

Bakı Ali Neft Məktəbində olimpiada qalibləri mükafatlandırılıb

Bakı Ali Neft Məktəbində (BANM) “Global Olimpic Center”in təşkilatçılığı ilə ABŞ-ın Kopernik Olimpiadasının riyaziyyat üzrə Azərbaycan mərhələsinin qalibləri mükafatlandırılıb.

Mükafatlandırma mərasimində “Global Olimpic Center”in direktoru Xəyal İbrahimzadə giriş sözü ilə çıxış edib. Sonra BANM-ın rektoru Elmar Qasımov iştirakçıları təbrik edib, onlara uğurlar arzulayıb. Bildirib ki, BANM ölkədə təhsilin inkişafına hər cür dəstək verməyə hazırdır. Rektor rəhbərlik etdiyi Ali Məktəblə bağlı tədbir iştirakçılarına geniş məlumat verib.

Daha sonra Kopernik Olimpiadasının direktor müavini Maria Pedro qonaqları Azərbaycan dilində salamlayıb, iştirakçılara qlobal turda uğurlar arzulayıb.

Çıxışlardan sonra mükafatlandırma mərasimi başlayıb. Qızıl medal qazananlara medalları rektor E.Qasımov təqdim edib. Gümüş və bürünc mükafatları qaliblərə tədbirə dəvət olunmuş qonaqlar verib. Fizika və astronomiya, təbiət elmləri üzrə qaliblərə isə mükafatları “Tərəqqi” medallı bioloq Camal Kərimov təqdim edib.

Qeyd edək ki, 800 şagird arasında təşkil edilən olimpiadada 386 nəfər qalib adını qazanıb. Mükafatlandırılan fiziklər artıq ABŞ-da Rice Universitetində təşkil olunan qlobal turda ölkəmizi təmsil edirlər. Onlar eyni zamanda, NASA-da olacaq, oradakı iş prosesi və raketlərlə tanış olacaqlar. Riyaziyyatçılar isə iyulun 10-da ABŞ-da MIT-də və Kolumbiya Universitetində təşkil olunacaq qlobal turda ölkəmizi təmsil edəcəklər.

Elm və təhsil naziri Saatlıda vətəndaşları qəbul edib

Dekabrın 23-də elm və təhsil naziri Emin Əmrullayev Saatlı, İmişli, Sabirabad və Beyləqan rayonlarında qeydiyyatda olan sakinləri qəbul edib. Qəbulda qeyd olunan ərazilərdə müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Qəbulda vətəndaşlar, əsasən, müəllimlərin işə qəbulu və yerdəyişməsi, məktəb tikintisi, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları diqqətlə dinləyib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

Nazir Saatlı məktəbində olub

Dekabrın 23-də elm və təhsil naziri Emin Əmrullayev Saatlıya səfəri çərçivəsində Saatlı şəhər 4 nömrəli tam orta məktəbdə də olub. Emin Əmrullayev məktəbin müəllim və şagird kollektivi ilə görüşüb, eyni zamanda təhsil ocağının ümumi şəraiti, dərs otaqları ilə tanış olub.

Məktəbin peşə təmayüllü siniflərində tədris prosesini izləyən elm və təhsil naziri şagirdlərin əl işlərinə baxış keçirib, onların bişirdikləri şirniyyat məhsullarının dadına baxıb.

ADNSU-da yeni kitabxana

Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) açıq kitabxananın açılışı olub. Azİİ e-Kitab Evinin balansında olan açıq kitabxananın açılışında ADNSU-nun rektoru professor Mustafa Babanlı, universitetin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Rektor Mustafa Babanlı çıxış edərək yeni kitabxana haqqında məlumat verib. Universitetdə hər zaman kitaba, elmə önəm verildiyini vurğulayan təhsil ocağının rəhbəri yaxın zamanlarda açıq havada da yeni kitabxana yaradılacağını deyib.

Bildirilib ki, yeni açılan kitabxanada hazırda 1200-ə dək kitab var və yaxın gələcəkdə bu sayın artırılması nəzərdə tutulub. 16 blokdan ibarət olan açıq kitabxanada 4 dildə nəşrlər yer alıb. Kitablar əsasən elmi ədəbiyyat, ixtisas kitabları, bədii ədəbiyyat və tədrisə uyğun digər nəşrlərdən ibarətdir. 24 saat fəaliyyət göstərəcək açıq kitabxanadan tələbələrin maksimum yararlanması üçün hər cür şərait yaradılıb.

Sonda professor M.Babanlı açılışı olan yeni kitabxana haqqında tələbələrin suallarını cavablandırıb, universitetdə kitabxanaların genişləndirilməsi, yenilərinin açılması ilə bağlı onların istək və təkliflərinin hər zaman nəzərə alınacağını deyib.

MDU-nun gənc əməkdaşları “Yerli layihəsi”ndə fəal təmsil olunublar

Mingəçevir Dövlət Universiteti (MDU) Gənclər və İdman Nazirliyinin dəstəyi ilə keçirilən “Yerli layihəsi”ndə fəal təmsil olunub. 243 nəfər gəncin iştirak etdiyi layihəyə MDU-nun 4 əməkdaşı - Elçin Tağıyev, Balabəy Həsənov, Razim Qurbanov və Günay Əliyeva qatılıb.

Layihə çərçivəsində Gəncə, Mingəçevir, Şirvan, Masallı, Göyçay, Balakən Gənclər Evində region gəncləri üçün VEB və android proqramlaşdırma, sosial media marketinq, qrafik dizayn, microsoft ofis və help disk proqramları üzrə praktiki təlimlər keçirilib. Təlimlər region gənclərinin İT biliklərinin təkmilləşdirilməsinə dəstək vermək, məşğulluq imkanlarını genişləndirmək, həmçinin gənclərin öz yaşadıqları regionlarını tərk etmədən məsafədən iş tapmalarına dəstək göstərmək məqsədi daşıyıb.

MDU-nun rektoru Şahin Bayramov “Yerli layihəsi” çərçivəsində təlimləri uğurla başa vuran universitetin gənc əməkdaşları ilə görüşüb.

Müasir dövrdə rəqəmsal bilik və bacarıqların artırılmasının zəruriliyindən, universitetdə İT təhsilinin inkişafının prioritetliyindən söhbət açan rektor layihənin önəmini diqqətə çatdırıb. Təlimləri uğurla başa vurduqlarına və universiteti layiqincə təmsil etdiklərinə görə MDU əməkdaşlarını təbrik edən Ş.Bayramov gələcək fəaliyyətlərində onlara uğurlar arzulayıb.

Əməkdaşlar göstərilən diqqət və dəstəyə görə minnətdarlıqlarını bildiriblər.

Sonra rektor Ş.Bayramov tərəfindən “Yerli layihəsi”nin iştirakçılarına müvafiq sertifikatlar təqdim edilib.

Sofiya Universitetində “Azərbaycan multikulturalizmi” tədris olunub

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və Kliment Oxridski adına Sofiya Universitetinin Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi tərəfindən birgə keçirilən “Azərbaycan multikulturalizmi” kursunun tədrisi yekunlaşıb.

Tədris prosesində dünya ölkələrində multikulturalizm modelləri, Azərbaycanın ictimai-fəlsəfi fikir tarixində tolerantlıq və multikulturalizm ideyaları, Azərbaycan Respublikasının multikulturalizm siyasəti, çoxkonfessiyalılıq, etnik-milli müxtəliflik və digər mövzularda mühazirələr oxunub, müzakirələr aparılıb. Dərslərdə Sofiya Universitetinin və Bolqarıstandakı digər ali məktəblərin tələbə və magistrantları, eləcə də Azərbaycan multikulturalizmi ilə maraqlanan şəxslər iştirak ediblər. Kursu Kliment Oxridski adına Sofiya Universitetində Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin müdiri Sofiya Şıqayeva-Mitreskaya tədris edib. Eyni zamanda, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Tədris şöbəsinin müdiri İrina Kunina tələbələrə “Azərbaycan Respublikasının xarici siyasəti və multikulturalizm” mövzusunda onlayn mühazirə oxuyub. Tələbələr kursun əvvəlində seçilmiş mövzu üzrə təqdimatlar hazırlayaraq təqdim ediblər. Kurs çərçivəsində 18 oktyabr — Azərbaycanın müstəqilliyinin bərpası və 8 noyabr — Zəfər Günü ilə bağlı xüsusi dərslər də təşkil olunub.

Sonda kurs iştirakçılarına sertifikatlar təqdim edilib.

Fundamental bilik və bacarıqlara malik mütəxəssislər yetişdirmək zamanın tələbidir

BDU-da “Code For Future” layihəsinin məzun günü keçirilib

Bakı Dövlət Universitetində (BDU) Elm və Təhsil Nazirliyinin “Code For Future” layihəsinin məzun günü keçirilib.

Tədbirdə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev ölkəmizdə gənclərin hərtərəfli inkişafına xüsusi önəm verildiyini vurğulayıb, “Code For Future” layihəsinin əhəmiyyətini diqqətə çatdırıb. Nazir texnologiyaların və insan düşüncəsinin sürətlə dəyişdiyini bildirərək gələcəyin çağırışlarına uyğun fundamental bilik və bacarıqlara malik mütəxəssislər yetişdirməyin zamanın tələbi olduğunu qeyd edib. “Rəqəmsal bacarıqlar” layihəsi barədə danışan Emin Əmrullayev hazırda layihə çərçivəsində ümumtəhsil məktəblərində 300 min şagirdin proqramlaşdırma öyrəndiyini deyib.

Nazir “Code For Future” layihəsinin məzun olan gənclər üçün dönüş nöqtəsi olacağına, onların gələcəkdə əmək bazarında daha tez iş tapacaqlarına əminliyini bildirib.

BDU-nun rektoru Elçin Babayev öz növbəsində hazırda BDU-da İT ixtisasları üzrə 830, SABAH qruplarında isə 120 tələbənin təhsil aldığını qeyd edib. Rektor məlumat verib ki, 2021-ci ildən etibarən “Code For Future” layihəsi Elm və Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti (AzTU) və “Code Academy” Təhsil Mərkəzinin iştirakı ilə uğurla icra olunmaqdadır. 2022-ci ildən etibarən isə “DevEducation” şirkəti də bu istiqamətdə fəaliyyət göstərir. Hazırda BDU-da “Code Academy” və “DevEducation” layihələri üzrə 6 auditoriyada 200-ə yaxın BDU tələbəsi təhsil alır.

Tədbirdə çıxış edən AzTU-nun rektoru Vilayət Vəliyev isə “Code For Future” layihəsinin və digər rəqəmsal proqramların tələbələrə tarixi imkan qazandırdığını vurğulayıb.

Tədbirdə “Code For Future” layihəsindən məzun olan BDU və AzTU tələbələri buraxılış işlərini təqdim ediblər.

Daha sonra tələbələrin təhsil həyatını əks etdirən video nümayiş etdirilib. Sonda isə tələbələrə sertifikatlar təqdim olunub.

Özbəkistanda 2023-2024-cü tədris ili üzrə təhsil imkanı

Özbəkistan Respublikasının İpək Yolu Turizm və Mədəni İrs Beynəlxalq Universiteti Şanxay Əməkdaşlıq Təşkilatına (SCO) üzv və tərəfdaş olan ölkələrdən əcnəbi vətəndaşlara sözügedən universitetdə magistratura təhsil səviyyəsi üzrə təqaüdlü təhsil almaq imkanı yaradır.

Seçim prosesi sənədlərin qəbulu və müsahibə mərhələsindən ibarətdir.

Təqaüd proqramı və tələb olunan sənədlər barədə ətraflı məlumatı keçidə *(https://htp.edu.az/uploads/fileuploads/2022/12/67d2e05e38f34ecc9a8ae4f8d54b7016.pdf)* daxil olaraq əldə edə bilərsiniz.

Nazirlik yanında İşəgötürənlər üzrə Məşvərətçi Şuranın ilk iclası

Elm və Təhsil Nazirliyi yanında İşəgötürənlər üzrə Məşvərətçi Şuranın yeni tərkibdə ilk iclası keçirilib.

Şuranın sədri elm və təhsil nazirinin müavini İdris İsayev üzvləri təşkilati məsələlərlə tanış etdikdən sonra ölkəmizdə elm və təhsil sahəsində görülmüş işlər, əldə olunan nəticələr, mövcud problemlər və nəzərdə tutulan islahatlarla bağlı geniş təqdimat edib.

İdris İsayev çıxışında rəqabətli insan kapitalının formalaşmasının “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda nəzərdə tutulan beş prioritet sahələrdən biri olduğunu və təsdiq edilmiş Strategiyanın Tədbirlər Planında müxtəlif istiqamətlər üzrə fəaliyyətlərin həyata keçiriləcəyini qeyd edib. Nazir müavini Məşvərətçi Şuranın Əsasnaməsinə görə növbəti il üçün fəaliyyət planının hazırlanmasının zəruriliyini bildirərək nəzərdə tutulacaq tədbirlər barədə Şura üzvlərinə məlumat verib.

İclasda əmək bazarı ilə təhsilin qarşılıqlı əlaqələri, işəgötürənlərin kadr hazırlığı prosesində iştirakı, dövlət-özəl tərəfdaşlığı, sahə komissiyaları, peşə standartları, Dördüncü Sənaye inqilabı və iqlim dəyişikliyinin yaratdığı peşələr, bilik, bacarıq, səriştələrin tanınması, gender məsələləri, inklüzivlik, innovasiyalar, elmi tədqiqatlar, elmi kəşflərin kommersiyalaşdırılması və digər məsələlər barədə fikir mübadiləsi aparılıb, rəy və təkliflər səsləndirilib.

Qeyd edək ki, Şuranın yeni tərkibində ölkənin müxtəlif sahələrində fəaliyyət göstərən işəgötürənlər təmsil olunurlar.

Yüksək nəticə göstərən məktəbli idmançılarla görüş

Təhsildə uğurlu nəticələrin əldə olunmasında məktəblilərin fiziki sağlamlığı, psixoloji dayanıqlı olmaları vacibdir

Elm və Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən uşaq-gənclər idman-şahmat məktəblərinin yetirmələri olan Respublika, Avropa və dünya səviyyəli yarışlarda uğurlu nəticə göstərən idmançılarla görüş keçirilib.

Görüşdə çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov ölkəmizdə idmana olan dövlət qayğısından, bu sahədə həyata keçirilən tədbirlərdən, idman və bədən tərbiyəsinin inkişafı, kütləviliyin təmin edilməsi məqsədilə görülən işlərdən danışıb. Nazir müavini təhsilin keyfiyyətinin yüksəldilməsi, bu sahədə uğurlu nəticələrin əldə olunmasında təhsilalanların fiziki sağlam, psixoloji dayanıqlı olmalarının əhəmiyyətini vurğulayıb.

Çıxışının sonunda idmançıları əldə etdikləri nailiyyətlər münasibətilə təbrik edən Firudin Qurbanov bu uğurların davamlı olacağına əminliyini bildirib.

İdmançılar adından çıxış edən Sumqayıt şəhər 1 nömrəli Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin yetirməsi və Avropa birinciliyinin gümüş medalçısı Xuraman Cavadzadə onlar üçün yaradılan şəraitə görə minnətdarlıq bildirib.

Görüşdə qalib idmançılara Elm və Təhsil Nazirliyi adından hədiyyələr təqdim edilib.

Sonda xatirə fotosu çəkilib.

Rəqəmsal gələcəyə addım-addım

“Kod saatı” qlobal hərəkatında, sadəcə Bakı deyil, bölgə məktəbliləri də fəaldır

2017-2018-ci tədris ilindən etibarən ümumtəhsil məktəblərində informatika fənninin yeni formatda tədrisinə başlanılıb. “Rəqəmsal bacarıqlar” layihəsi çərçivəsində həyata keçirilən tədrisin məqsədi təhsilalanların İKT bacarıqlarına dərindən yiyələnməsi, onların rəqabətqabiliyyətli, məntiqi və qeyri-standart düşüncə tərzinə malik şəxslər kimi formalaşmasını təmin etməkdir. Layihə məqsədinə çatıb. Bunu “Kod saatı: rəqəmsal gələcəyə addım 2022-ci il” müsabiqəsinin nəticələri bir daha təsdiq edib. Təbii ki, qaliblər mükafatlandırılarkən. Belə ki, “Kod saatı” qlobal hərəkatı çərçivəsində Elm və Təhsil Nazirliyinin “Alqoritmika” beynəlxalq proqramlaşdırma məktəbi ilə birgə təşkil etdiyi müsabiqə ötən ilin dekabrında yekunlaşdı. 54 şəhər və rayondan 20 223 şagirdin qatıldığı respublika müsabiqəsinin nəticələrinə əsasən seçilən 300 şagird dekabrın 26-da finalda yarışdı. IV-IX sinif şagirdlərinin qatıldığı müsabiqədə regionlardan çoxlu məktəbli də vardı. Təkcə finalçıların 100 nəfəri ayrı-ayrı bölgələrdə fəaliyyət göstərən məktəblərdəki təhsilalanlar idi və bu yarış necə ağıllı, həllyönümlü nəslin yetişdiyini göstərdi. Onların bir neçəsini yaxından tanımaq imkanı qazandıq.

Ziya Bayramov

Əkbər Əbilov

Səlimə Abduhəlimova

Mədinə Bayramova

Asan olmayıb, amma yenə gələcək!

Məsələn, yarışın ən kiçik proqramçılarından biri Hüseyn Şıxəliyev müsabiqəyə Xaçmaz şəhərindən qatılıb. Buradakı Çingiz Abdullayev adına 2 nömrəli tam orta məktəbin IV sinif şagirdidir. Balaca boyunda o qədər böyük dünya yerləşib ki...

Kompüterlə maraqlanır. Balaca olduğuna baxmayın, yarışmağı, rəqabət aparmağı, qazanmağı indidən öyrənib. Məktəblərində çox yarışa qatılıb. Dediyinə görə, təkcə öz tay-tuşlarıyla yox, özündən böyüklərlə də yarışmaqdan çəkinmir və yarışa-yarışa öyrəndiklərindən çox məmnundur. Artıq birincilik qazanmaq nə deməkdir, yaxşı bilir: “Heydər Əliyev Mərkəzi çox xoşuma gəldi. Sertifikat qazanmaq isə daha çox xoşuma gəldi”.

Deyir yarışmaq və burada qalib olmaq çox da asan olmayıb, amma o, yenə gələcək və yenə qalib olacaq.

Hamı gördü ki, onun məktəbi necə informator hazırlayır

Ziya Bayramov isə Bakı məktəblisidir. 160 nömrəli klassik gimnaziyada VIII sinif şagirdidir. Çox həyəcanlıdır. “Çətin idi”, deyir: “İlk dəfədir belə müsabiqədə iştirak edirəm, ilk dəfədən də qalib oldum. Yer tutmaq istəyirdim, tutdum və vauçer qazandım”.

Müsabiqədə necə iştirak etdiyindən danışan Ziya buna görə müəllimlərinə minnətdardır:“Müsabiqə keçirildiyi barədə mənə müəllimim dedi, iştirakımı tövsiyə etdi. Mən də qatıldım və qazandım. Müəllimlərimə təşəkkür edirəm ki, məni belə hazırlayıb, yetişdiriblər”.

Z.Bayramov artıq özü ilə qürur duymağa başlayıb. Məktəbini öz ağlı, hazırlığı ilə ən yaxşı şəkildə təmsil edəcəyinə əminlik yaranıb: “Texniki fənləri sevirəm. Müsabiqələrdə iştirak etməyə davam edəcək, məktəbimizi ən yaxşı şəkildə təmsil edəcəyəm. Qoy hamı görsün ki, məktəbimizdə necə riyaziyyatçılar hazırlayırlar”.

Bakı məktəblisi sübut etdi ki, əngəllər qələbəyə mane olmur

Müsabiqə qalibi Əkbər Əbilov 309 nömrəli tam orta məktəbdə VI sinifdə oxuyur. Bu dəfə II yeri tutub: “Bu müsabiqədə bir dəfə də iştirak eləmişdim, onda yer tuta bilməmişdim. Amma bu dəfə yaxşı yer tutdum. İnsan səhv edə-edə öyrənir. Səhv edirik, ondan nəticə çıxardırıq və sonrakı cəhdlərdə uğur qazanırıq”.

Hesab edir ki, gələcək barədə danışmaq hələ tezdir: “Yəqin mühəndis olaram”.

Əkbər müsabiqədə əlil arabasında iştirak edib: “Ayağımda problem vardı, İllizarov aparatına qoyulub”.

Yarış öncəsi baş verən bu hadisədən qətiyyən məyus deyil. Ayağında olan problemin həllinə yönələn bu əməliyyatın yarışa təsadüf etməsi onun üçün narahatlıq yaratsa da, nə yarışmağına, nə də qazanmağına əngəl olub: “Düzdür, çətin hərəkət etdim, vəziyyətimə görə özümü pis hiss etdim, amma bu çətinlik düşünməyimə, qərar verməyimə, mənə verilən tapşırıqları həll etməyimə də mane olmadı”.

Humanitar fənlər təmayüllü gimnaziyanın rəqəmsal şagirdi

Səlimə Abduhəlimova Respublika humanitar fənlər gimnaziyasının VIII sinif şagirdidir. Birincilik hədəfi idi və bu hədəfinə çatdı. Üstəlik, ikinci dəfə: “Müsabiqəyə ikinci dəfədir ki, qatılıram. Hər ikisində I oldum. Gələcəkdə dizayner olmaq istəyirəm. Kompüterlə işləməyə çox marağım var. İnformatikanı həmişə sevirdim, amma rəqəmsal bacarıqlar layihəsi bu marağı daha da inkişaf etdirdi. Gələn il də bu müsabiqəyə qatılacağam. Çünki bu yarışlarda daha çox şey öyrənirik, hətta qələbə qazanmasaq da. Başqa məktəblərdən olan şagirdləri tanıyır, onların bəziləri ilə dostluq qurur, biri-birimizlə yarışır və əylənirik”.

Oynaya-oynaya kompüteri sevən Gəncə məktəblisi

Rəqəmsal bacarıqları ilə öyünən daha bir məktəblimiz - Mədinə Bayramova Gəncədə 32 nömrəli məkəbin V sinif şagirdidir. Əvvəlcə oyunlar oynayıb, oynaya-oynaya kompüteri sevib. Məktəbdə informatika keçməyə başlayandan sonra isə bu “oyuncağına” münasibəti dəyişib. Kompüter biliklərini inkişaf etdirib və rəqəmsal dünyaya daxil olub. İndi kompüterlə tapşırıq icra etmək onun üçün çətinlik yaratmır.

“Rəqəmsal bacarıqlar” layihəsinin əhatə dairəsi genişlənir: artıq 48 şəhər və regionda

“Rəqəmsal bacarıqlar” layihəsinin rəhbəri Nilufər Rəhimova hesab edir ki, layihənin əhatə dairəsi genişləndikcə uğurları da artır: “2017-2018-ci tədris ilindən başlayaraq həyata keçirilən “Rəqəmsal bacarıqlar” layihəsinin əhatə dairəsi genişlənir: “Hazırda layihə 418 məktəbdə 300 min şagirdi əhatə edir. Bu tədris ilindən artıq 48 şəhər və region üzrə IV-IX sinif şagirdləri rəqəmsal bacarıqlara yiyələnirlər. 700-dən çox X-XI sinif şagirdi isə yeni yaradılan “Rəqəmsal bacarıqlar” təmayül siniflərində təhsil alaraq informatika-yönümlü tədrisə cəlb olunub”.

Rəqəmsal dünyada qızlar bərabərliyə nail olub

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov ölkədə məktəblilərin rəqəmsal bacarıqlara uğurla yiyələndiyi qənaətindədir. Onun sözlərinə görə, məktəblərdə davam edən “Rəqəmsal bacarıqlar” layihəsi aktual və gələcəyə istiqamətlənmiş bir layihədir. Artıq dünyada hərəkata çevrilən “Kod saatı: rəqəmsal gələcəyə addım 2022-ci il” müsabiqəsi şagirdlərə alqoritmik, məntiqi bacarıqlarını nümayiş etdirmək imkanı verir. Yarışa qatılmaqla komandada işləmək, düzgün qərar vermək bacarıqlarını inkişaf etdirirlər: “Bu bacarıqlar gələcək nəslə çox lazım olacaq. Sevinirəm ki, çox ağıllı şagirdlərimiz var. Ən sevindiricisi də odur ki, müsabiqə iştirakçıları arasında oğlanların və qızların sayı demək olar ki, bərabər idi”.

Nazir müavini hesab edir ki, gələcək çağırışları öngörmək çətin olduğundan şagirdlərdə rəqəmsal bacarıqların formalaşdırılmasının böyük əhəmiyyəti var.

Ruhiyyə DAŞSALAHLI

“Həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil. Onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır”.

Heydər ƏLİYEV,
Azərbaycan xalqının Ümummilli Lideri

Sərhəd tanımayan şöhrətin parlaq təcəssümü

“Həqiqi dahi o insandır ki, ürəyi hamı üçün döyünür”. Dünyaşöhrətli fransız yazıçısı, Nobel mükafatı laureatı Romen Rollanın bu müdrik fikri müstəqil Azərbaycan dövlətinin qurucusu, dünya azərbaycanlılarının fəxri və Ümummilli Lideri, böyük siyasətçi və mütəfəkkir Heydər Əliyevin həyat idealını çox dəqiq ifadə edir. Anadan olmasının ildönümlərini hədsiz qürur hissi ilə qeyd etdiyimiz qüdrətli dövlət xadimi Heydər Əliyevin ömür yolu nəcib məqsədlərə, işıqlı ideallara, Vətənə və millətə təmənnasız olaraq sədaqətlə xidmətin parlaq nümunəsidir. Azərbaycanın xalqımıza şərəf və başucalığı gətirən müasir tarixinin zəfər salnaməsinin yaradılmasında böyük rəhbərimizin ölçüyəgəlməz xidmətləri danılmaz və unudulmaz həqiqətdir. Fövqəladə idarəetmə məharətinə, heyrətamiz siyasətçi istedadına, yenilməz qətiyyətinə və sarsılmaz iradəsinə, ən çıxılmaz vəziyyətlərdə belə konstruktiv müdrik qərarlar qəbul etmək bacarığına görə Heydər Əliyevin adı dünyanın ən məşhur şəxsiyyətləri ilə bir sırada çəkilir. XX əsr Azərbaycan tarixinin bütöv bir qərinəsi – 30 ildən artıq dövrü məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. XX əsrin ən parlaq simalarından və nadir şəxsiyyətlərindən olan Heydər Əliyev şərəfli həyat və fəaliyyəti ilə xalqımızın simvolu səviyyəsinə yüksəlmişdir. O, qədirbilən xalqımızın, eləcə də onunla birlikdə çalışmış və ünsiyyətdə olmuş digər ölkələrin dövlət rəhbərlərinin, habelə sadə vətəndaşlarının yaddaşında xariqələr yaratmağa, siyasi uzaqgörənliyi ilə zəmanəsinin fövqündə durmağa qadir dahi insan olaraq əbədiyyət qazanmışdır.

Heydər Əliyev şəxsiyyəti və müdrikliyi dünyada çox insanları heyran etmişdir. Görkəmli ABŞ siyasətçisi Zbiqnev Bzejinski onu beynəlxalq səviyyəli, qətiyyətli, uzaqgörən dövlət xadimi, tarixi əhəmiyyətli lider, Rusiya prezidenti Vladimir Putin “siyasət nəhəngi”, ABŞ-ın sabiq prezidenti Corc Buş “Cənubi Qafqazda ən əsas şəxsiyyət”, böyük gürcü rəssamı Zurab Sereteli “dünya vətəndaşı”, Rusiya siyasi xadimi Yevgeni Primakov “tarix yaradan insan” kimi yüksək qiymətləndirmişlər. Qardaş Türkiyənin sabiq prezidenti Əhməd Necdət Sezər yazırdı ki, “Heydər Əliyevi şəxsən tanıdığıma görə böyük şərəf və xoşbəxtlik hissləri keçirirəm”. Sovet İttifaqı Qəhrəmanı, dövlət xadimi Boris Qromov qeyd etmişdi ki, “Şübhə yoxdur, Heydər Əliyevin adı vətənimizin tarixinə qızıl hərflərlə yazılacaqdır”. Bu isə tanınmış siyasətçi Kirşan İlyumjinovun fikridir: “Bütün postsovet məkanında müasir siyasətçilərin bütöv bir nəslinin yetişdirilməsində Heydər Əlirza oğlunun xidməti misilsizdir”. Vaxtilə Ulu Öndərlə tanış olmuş Klivlend klinikası təhlükəsizlik xidmətinin rəisi yazmışdı ki, “Ona yaxın olmaq möcüzə idi. Həyatda yalnız bircə dəfə baş verə biləcək möcüzə!”.

Bu gün hər bir Azərbaycan vətəndaşının qəlbində Ümummilli Liderimizin ölməz işıqlı obrazı yaşayır. Zaman ötdükcə Heydər Əliyev dühasının əzəməti daha aydın hiss olunmaqdadır. Təsadüfi deyil ki, bu gün dünyanın siyasət aləmində Heydər Əliyev fenomeni hərtərəfli öyrənilməli və bəhrələnməli məktəb kimi qəbul edilir.

Ulu Öndər şərəfli həyat və fəaliyyətinin bütün dövrlərində möhtəşəm quruculuğun, sosial-iqtisadi inkişafın, ictimai-siyasi sabitliyin, əmin-amanlığın, dövlətçiliyin təminatçısı olmuş, ən ağır vaxtlarda xalqımız və dövlətimizin mənafeyi naminə xilaskarlıq missiyasını yerinə yetirmişdir. Onun Azərbaycanda siyasi hakimiyyətdə olduğu ilk dövrü əhatə edən 1969–1982-ci illər ölkəmizin müasir tarixinin şanlı səhifələri, intibah dövrü kimi qiymətləndirilir. O vaxtlar tənəzzül və durğunluq burulğanında qalmış, nəinki xarici dövlətlərdə, hətta keçmiş Sovetlər Birliyinin hüdudları daxilində yaxşı tanınmayan, “imzalar içində imzası olmayan” Azərbaycanın qısa zamanda sosial-iqtisadi inkişaf baxımından qabaqcıllar sırasına çıxması, adlı-sanlı respublika imici qazanması birmənalı şəkildə Heydər Əliyevin idarəetmə istedadının, onun qibtəolunası təşkilatçılıq bacarığının, tükənməz yaradıcılıq əzminin məntiqi nəticəsi idi.

Ötən əsrin 80-ci illərində Ulu Öndərin keçmiş SSRİ rəhbərliyinə dəvət olunması, 5 il ərzində qüdrətli bir dövlətin ən strateji fəaliyyət sahələrinə, o cümlədən təhsil sahəsinə rəhbərlik etməsi hər bir azərbaycanlının, hər bir türk əsilli vətəndaşın qəlbində hədsiz qürur və iftixar hissi doğurmaqla bərabər, Heydər Əliyev şəxsiyyətinin, Heydər Əliyev fenomeninin dünya miqyasında təsdiqinə təkzibedilməz parlaq nümunədir.

Bu gün Vətən və millət qarşısında öz məsuliyyətini dərindən dərk edən hər bir soydaşımız üçün Ümummilli Lider Heydər Əliyev dövlətçiliyimizin rəmzi, müstəqil Azərbaycanın xilaskarı və qurucusu, ən böyük azərbaycanlıdır. Azərbaycan keçən əsrin 90-cı illərinin əvvəlində yaranmış siyasi və iqtisadi böhrandan, başıpozuqluqdan, anarxiya və vətəndaş müharibəsi təhlükəsindən 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdan Ulu Öndərin böyük rəhbərlik təcrübəsi, yenilməz siyasi iradəsi və qətiyyəti sayəsində xilas ola bilmiş, dinamik inkişaf yolunda inamla irəliləməyə başlamışdır. Məhz onun möhtəşəm fəaliyyəti nəticəsində Azərbaycan XXI əsrə müstəqil müasir dövlət kimi qədəm qoymuşdur. Cəmiyyətin siyasi, sosial-iqtisadi mənzərəsini dəyişmək, insanların dünyagörüşünün, mənəviyyat və psixologiyasının humanist və demokratik ideallara söykənən bəşəri dəyərlər zəminində formalaşması üçün ideoloji əsas yaratmaq, insanların qürur və istinad mənbəyi zirvəsinə, xalqın lideri olmaq məqamına ucalmaq yalnız Ulu Öndər Heydər Əliyev kimi nadir şəxsiyyətlərə bəxş edilən xoşbəxtlikdir.

Dahi və uzaqgörən dövlət rəhbəri Heydər Əliyev Azərbaycanda güclü iqtisadiyyatın yaradılması ilə bərabər, cəmiyyətin tərəqqisinin əsas hərəkətverici qüvvəsi hesab olunan təhsilin inkişafına da böyük diqqət və müntəzəm qayğı göstərmiş, Azərbaycan təhsilinin mütərəqqi dünya dövlətlərindəki səviyyəyə yüksəlməsi ilə bağlı taleyüklü məsələlərin həyata keçirilməsini dövlət siyasətinin başlıca prioriteti elan etmişdir. İnkarolunmaz həqiqətdir ki, Azərbaycanda təhsil islahatlarına başlanması, Dünya Bankının islahatlar prosesinə cəlb edilməsi, islahatların hüquqi-normativ bazasını təşkil edən direktiv sənədlərin qəbulu, təhsil sahəsində öz həllini gözləyən problemlərin aradan qaldırılmasına yönəlmiş bir sıra dövlət proqramlarının təsdiqi birmənalı şəkildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və qətiyyətli mövqeyi sayəsində mümkün olmuşdur.

Dünyaşöhrətli dövlət xadimi, Azərbaycan xalqının milli və mənəvi lideri Heydər Əliyevin öz həmvətənlərinə müqəddəs əmanət qoyduğu müstəqil Azərbaycan onun ölməz ideyalarının işığında ölkə Prezidenti cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə gələcəyə doğru inamla addımlayır. 2003-cü ildən bu günədək Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi sahələrdə əldə etdiyi möhtəşəm uğurlar Heydər Əliyev ideallarına, Ulu Öndərin siyasi kursuna sadiqliyin əyani təzahürüdür.

Şöhrəti və nüfuzu sərhəd tanımayan, əbədiyaşarlıq zirvəsinə ucalan Heydər Əliyevin əzəmətli şəxsiyyəti, onun Azərbaycana, doğma xalqına həsr edilmiş şərəfli ömür yolu, mübarizə və qələbələrlə zəngin fəaliyyəti bu günün və gələcəyin gəncləri üçün parlaq nümunə, ibrətamiz tərbiyə məktəbidir. Ulu Öndərin ölkə vətəndaşlarına qiymətli əmanəti hesab edilən əvəzolunmaz irsi – xarici və daxili siyasət quruculuğuna, iqtisadiyyatın, elmin, təhsil və mədəniyyətin inkişafına, dövlətçilik ənənələrinin qorunub saxlanmasına və möhkəmləndirilməsinə, dövlətin idarəolunması texnologiyalarına, cəmiyyətdə insan amilinin və mənəvi ucalığın, Vətən təəssübünün prioritet dəyərlər kimi qiymətləndirilməsinə həsr edilmiş proqram istiqamətli nitq və çıxışları, müsahibələri XXI əsr Azərbaycan vətəndaşının yetkin şəxsiyyət olaraq formalaşması üçün daim öyrənməli zəngin xəzinədir. Dahi rəhbərin dünyanın nüfuzlu dövlət başçıları, siyasi xadimləri ilə keçirdiyi görüşlərdə nümayiş etdirdiyi taktiki ustalıq, dialoq mədəniyyəti və müsahibini öz təsir dairəsində saxlamaq istedadı isə gələcək siyasətçilər üçün ibrətamiz ustad dərsləridir. Hazırkı dövrdə təhsil işçiləri, bütövlükdə pedaqoji ictimaiyyətin ən başlıca vəzifəsi gənc nəslin hər bir nümayəndəsini dahi Heydər Əliyevin nümunəsində, onun banisi olduğu azərbaycançılıq məfkurəsinin timsalında tərbiyə etməkdən, ulu rəhbərin zəngin elmi-nəzəri irsini davamlı surətdə uşaq və gənclərə öyrətmək üçün əzmlə çalışmaqdan, bu şərəfli işi Vətən və xalq qarşısında vətəndaşlıq borcu kimi qiymətləndirərək yerinə yetirməkdən ibarətdir.

Bu sətirləri yazarkən Ulu Öndər bütün əzəməti ilə gözlərim önündə canlandı... Doğma, qəlbləri riqqətə gətirən bir mənzərənin sehrinə düşmüşdüm. İnsanların gur toplaşdığı geniş və işıqlı bir salonda dahi rəhbərimiz tribuna arxasında idi. Həmişə olduğu kimi inamlı, qətiyyətli... Çöhrəsindən nur yağırdı. Alqış sədaları kəsilmək bilmirdi... Budur, nüfuzedici nəzərlərlə salona diqqət yetirdikdən sonra o, aramla nitqinə başlayır...

* “Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz. Təhsilsiz xalq müasir şəraitdə öz imkanlarını həyatına sərf etmək üçün çox problemlərlə rastlaşar. Azərbaycan xalqının gələcəyi, müstəqil Azərbaycanın gələcəyi gənclərin bu gün aldıqları bilik, təhsil və tərbiyədən asılıdır. Çünki hər bir xalqın səviyyəsini onun bilik səviyyəsi müəyyən edir. Xüsusən, aparıcı qüvvə, hər bir ölkənin, hər bir millətin aparıcı qüvvəsi onun bilikli nümayəndələridir. Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o, mütləq hər şeydən çox təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır.

* İnsanlar həmişə elmi cəmiyyətin ali dəyəri hesab etmişlər, ən qədim zamanlardan başlayaraq elm yüksək qiymətləndirilib və elmi kəşflər etmiş dahilər insan cəmiyyətinin inkişafına imkan yaratmışlar. Müasir həyat və dünyanın gələcəyi insanlardan daha da çox bilik tələb edir. Bilik səviyyəsinə də nail olmaq üçün təhsil daim mövcud olmalıdır və o, ardıcıl surətdə inkişaf etməlidir. Biz gələcəkdə Azərbaycanın təhsilinin daha da təkmilləşməsinə, keyfiyyətinin yüksəlməsinə nail ola biləcəyik. Gələcək bilikli, elmli insanların çiyinləri üstündə qurulacaqdır.

* Azərbaycan xalqı yüksək elmə, yüksək biliyə, savada malik olan xalqdır. Bunlar hamısı uzun illər – keçmişdən indiyə qədər Azərbaycanda yaranmış təhsil sisteminin fəaliyyətinin əməli nəticələri, Azərbaycan müəllimlərinin, alimlərinin gərgin fəaliyyətinin nəticəsidir. Çoxəsrlik tariximizdə xalqımız bəşər mədəniyyətinə, elminə böyük töhfələr vermiş, xalqımızın içərisində böyümüş görkəmli alimlər, ixtiraçılar, şairlər, yazıçılar dünya mədəniyyətini, elmini öz əsərləri ilə zənginləşdirmişlər. Bu gün biz fəxr edə bilərik ki, regionumuza mənsub olan başqa ölkələrlə müqayisədə xalqımızın bilik, savad, elm, mədəniyyət səviyyəsi bir çoxundan yüksəkdir. Birincisi, bu, xalqımızın istedadlı xalq olduğunu bir daha nümayiş etdirir, qədim dövrlərdən indiyə qədər xalqımızın içində zəkalı, elm və təhsil ilə məşğul olan mütəfəkkir insanların olması ilə bağlıdır. Əsrlərdən-əsrlərə xalqımız istedadlar yetiribdir. Bu istedadlar Azərbaycan xalqının mənəviyyatını, elmini, ədəbiyyatını, incəsənətini yaradıb, yaşadıb, inkişaf etdiriblər. Məhz xalqımızın istedadlarının fəaliyyəti nəticəsində və xalqımızın mənəviyyata, mədəniyyətə xüsusi qayğısı və münasibəti nəticəsində Azərbaycan xalqının böyük, gözəl mədəniyyəti, böyük elmi yaranıbdır. Azərbaycanın görkəmli elm, mədəniyyət xadimləri, incəsənət ustaları dünya mədəniyyətinə gözəl töhfələr verib, onu zənginləşdiriblər. Şübhəsiz ki, istedad qayğı istəyir. Qayğı olmayanda istedad bəzən özünə yol tapa bilmir, yaxud da ki, onun inkişaf yolu çətin olur. İstedadı cəmiyyətə, xalqa göstərmək lazımdır, ona istedadını inkişaf etdirmək üçün kömək etmək, istedada yol açmaq lazımdır. Azərbaycanda uşaqların əksəriyyəti çox istedadlıdır. Əgər valideynlər, məktəblərdə müəllimlər, təhsil sahəsində fəaliyyət göstərən bizim vətəndaşlarımız uşaqların tərbiyəsinə, təhsilinə qayğını daha da artırsalar, biz gələcəkdə daha da istedadlı Azərbaycan gənclərinə, vətəndaşlarına malik olacağıq.

* Təhsil sahəsi müqəddəs sahədir. Çünki təhsil sahəsi uşaqları, gəncləri hazırlayıb gələcəyə əsl vətəndaş, yüksək səviyyəli mütəxəssis etmək üçün mövcuddur. Amma bununla yanaşı, təhsilimizin ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır. Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun! Vətəndaş sözü böyük sözdür. Vətəndaş sözü o deməkdir ki, hər bir vətəndaş gərək dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq olsun. Ona görə də orta təhsil sisteminə çox ciddi fikir vermək lazımdır.

* Təhsil sahəsi cəmiyyət üzvlərinin, demək olar ki, tam əksəriyyətini həm maraqlandırır, həm də onların bu və ya digər şəkildə iştirakını tələb edir, yaxud da iştirakı ilə bağlıdır. Bir də ona görə ki, təhsil mürəkkəb bir sahədir. Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətli yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır. Həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır. Təhsil də daim təkmilləşdirilməlidir. Təhsil haqqında danışarkən istərdim ki, həm orta məktəbdə, həm də ali məktəbdə təhsil alan gənclərimiz dünya elminin, dünya mədəniyyətinin əldə etdiyi dəyərlərlə nəinki tanış olsunlar, habelə onu mənimsəməyə şərait yaradılsın. Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu, mənim prinsipial mövqeyimdir.

* Təhsil sistemi Azərbaycanın gələcəyini təmin edən bir sistemdir. Biz müstəqil dövlət olaraq özümüzün təhsil sistemimizi istədiyimiz kimi qurururuq. Bütün dünya ölkələrinin mütərəqqi təcrübələrindən istifadə edirik. Bizim müstəqil dövlət olmağımız, müstəqil dövlət olaraq dünyada tanınmağımız və Dünya Birliyində yer tutmağımız onu tələb edir ki, bizim ölkəmizin, xalqımızın bütün sahələrdə gərək yüksək ixtisasa malik olan, dünyada gedən elmi-texniki proseslə nəinki ayaqlaşan və bəlkə də müəyyən istiqamətlərdə onu qabaqlayan, buna qabil ola bilən kadr potensialı olmalıdır. Buna görə də biz, ümumiyyətlə, təhsil sahəsinə xüsusi fikir veririk. Hesab edirəm ki, indiyə qədər yaranmış təməlin, əsasın üzərində Azərbaycanın təhsili, məktəbi bundan sonra daha da təkmilləşəcək, inkişaf edəcək və Azərbaycan uşaqları, gəncləri bu inkişaf dövrümüzdə ilbəil daha da geniş, yüksək təhsil alacaqlar.

* Azərbaycan Respublikasının, Azərbaycan xalqının XX əsrdə böyük nailiyyətlərindən biri də budur ki, bizdə yaxşı orta təhsil sistemi yaranmışdır və orta məktəblərimiz gənclərə yaxşı təhsil verir, onları tərbiyələndirir, gələcək müstəqil həyata hazırlayır, ali təhsil almağın bünövrəsini qoyur. Ümumi təhsil xalqın mentalitetidir, dünya xalqları ilə müqayisə olunacağı səviyyədir. İndi dünyaya gələn körpələr, birinci sinfə qədəm qoyan uşaqlar, bu gün yuxarı siniflərə girən şagirdlər, ali məktəblərə daxil olan gənclər təhsil, bilik almalıdırlar, müstəqil Azərbaycan Respublikasının bu gününü, gələcəyini təmin etmək üçün, gələcəkdə respublikamızı inkişaf etmiş bir ölkəyə çevirmək üçün təhsil almalıdırlar, bilik toplamalıdırlar, özlərini cəmiyyətdə fəaliyyətə hazırlamalıdırlar.

* Bizim uşaqlarımız, gənclərimiz hər bir fənni bilməlidirlər və xüsusən, o fənlərdə ki, ixtisaslaşmaq istəyir, – onu daha da yaxşı bilməlidirlər. Biri istəyir riyaziyyatçı olsun, biri istəyir fizik olsun, biri istəyir geoloq olsun, biri istəyir hüquqşünas olsun. Qoy olsun. Ancaq orta məktəblər üçün bizim bir neçə şərtlərimiz vardır, onları həyata keçirməlidirlər. Ana dilini bilməlidirlər, ədəbiyyatımızı bilməlidirlər, bizim tariximizi bilməlidirlər, bizim mədəniyyətimizi bilməlidirlər. İndi biz Azərbaycanda məhdudiyyət qoymuruq. Rusdilli məktəblər var və qarışıq – rus-Azərbaycan dilli məktəblər vardır. Gürcülər yaşayan yerdə gürcü dilli məktəblər vardır. Başqa dillərdə olan bütün bu məktəblərdə, yaxud ola bilər, başqa dillərdə də məktəblər yaransın – bunların hamısında Azərbaycanın tarixi, Azərbaycanın ədəbiyyatı, Azərbaycanın mədəniyyəti tədris olunmalıdır. Bu, mütləq lazımdır.

* Ümumi təhsilimizdə, yəni məktəblərimizdə bütün dərslər, bütün fənlər bizim bu günümüzə və gələcəyimizə həsr olunmalıdır. İnsan təhsilinin əsasını orta məktəbdə alır. Ona görə də bütün təhsil sistemində orta məktəb, orta ixtisas məktəbi, yaxud da ki, orta təhsil məktəbi – bunlar xüsusi yer tutmalıdır. Əgər bu 11 il müddətində uşaq birinci sinifdən başlayaraq sona qədər köklü təhsil almasa, yaxşı hazırlaşmasa, o, nəinki gedib universitetə imtahan verə bilməz – heç lazım deyil ki, hər bir orta təhsil alan getsin universitetə imtahan versin. Bu, mümkün də deyildir. Bu, keçmişdə də mümkün olmayıbdır, bu gün də mümkün deyildir, – ancaq ola bilər, ondan sonra gedib universitetdə ali təhsil almasa da, amma həyatda yaşayacaqdır, həyatda fəaliyyət göstərəcəkdir, cəmiyyətdə olacaqdır. Əgər onun fundamental, köklü orta təhsili varsa, o, cəmiyyətdə özünə yer tapacaq, çalışacaq, özünü, ailəsini yaşadacaqdır. Amma ən vacibi də odur ki, cəmiyyətimizin şüurlu üzvü olacaqdır.

* Hər bir insan üçün həyat anadan doğulduğu gündən başlayırsa, insanın şüurlu həyatı, onun gələcəyi, onun cəmiyyətdə özünə yer tutması məktəbdən başlayır. Məktəbimiz təbiət və cəmiyyətin inkişaf qanunlarını yaxşı başa düşən, yaradıcı təfəkkür vərdişləri olan bilikli adamlar hazırlamalıdır. Bu gün faktların müəyyən məcmusunun şagirdlər tərəfindən mənimsənilməsi ilə kifayətlənmək olmaz. Şagirdlərə öz biliklərini müstəqil surətdə artırmaq, elmi informasiyanın sürətli axınından baş çıxarmaq vərdişi aşılanmalıdır.

* Məktəb həyatı təkcə təhsil vermir, eyni zamanda bu, yüksək tərbiyə ocağıdır. Bu, eyni zamanda uşağı, gənci müstəqil həyata hazırlayan bir səviyyədir. Məktəb elə bir prosesdir, orqanizmdir ki, burada hamı – şagird də, tələbə də, müəllim də, bütün kollektiv də inkişafdadır. Məktəbdə insanın dünyagörüşünün bünövrəsi qoyulur, onun xarakteri formalaşır, ideya dayaqlarının, mənəvi və əxlaqi dayaqların təməli yaradılır. Məktəbin təsiri altında əqidəliliyi, əməyə məhəbbət, yüksək mənəviyyat və humanizm, vətənpərvərlik və beynəlmiləlçilik kimi zəruri keyfiyyətləri tərbiyə edilir. Məktəbdə insanın baxışları, arzu və istəkləri formalaşır, onun rəhbər tutduğu mənəvi meyarlar bir çox cəhətdən müəyyənləşir. Məktəb gənc şəxsiyyətin bir vətəndaş kimi təşəkküründə, gənclərin vətənpərvərlik tərbiyəsində böyük rol oynayır. Məktəbdə vətənpərvərlik tərbiyəsi işini daim təkmilləşdirmək, onun forma və metodlarının rəngarəngliyinə çalışmaq, yüksək səmərəliliyinə nail olmaq lazımdır. Hər bir gənc vətəndaş öz ölkəsinin alovlu vətənpərvəri olmalıdır.

* Çox uzun bir müddət ərzində məktəbin işinə yalnız bir göstəriciyə, əsas hesab edilən göstəriciyə görə qiymət verilirdi: məktəbin nə qədər məzunu tələbə olmuş, ali məktəb diplomu almışdır. Bu nöqteyi-nəzəri dəyişdirmək vaxtı gəlib çatmışdır. Bilikli, bacarıqlı, əməksevər adamlar yetişdirmək məktəbin ən birinci borcudur. Məzun əməyə hazırdırmı – bu gün məktəbin işinin, bütün xalq maarifi sisteminin səmərəliliyi bax bu meyarla müəyyən edilir.

* Məktəb ailə ilə qarşılıqlı münasibətlərdə prinsipial, pedaqoji cəhətdən düzgün mövqe tutmalıdır. Nail olmaq lazımdır ki, hər bir pedaqoji kollektivdə şagirdlər üçün, onların valideynləri üçün, geniş ictimaiyyət üçün yüksək ideyalılıq, əxlaqi prinsiplərə sədaqət, yüksək tələbkarlıq və prinsipiallıq nümunəsi olsun. Pedaqoji kollektivdəki mənəvi iqlim məktəblilərin əxlaq tərbiyəsinin səmərəliliyi üçün çox mühüm şərtdir. Məktəblə ailənin sıx, qarşılıqlı əlaqəsi olmadan mükəmməl tərbiyə ola bilməz, çünki bu proses kompleks prosesdir və onun səmərəliliyini valideynlərlə pedaqogların birgə səyi ilə yüksəltmək lazımdır. Şagirdlərin valideynləri və ailələri ilə məktəbin əlaqəsi hər vasitə ilə möhkəmləndirilməlidir. Məktəb evdə uşağın hansı şəraitdə böyüdüyünü və tərbiyə edildiyini yaxşı bilməli, ailədə tərbiyə prosesinə təsir göstərməyin yeni formalarını axtarmalı, pedaqoji biliklərin əsaslarını valideynlərə öyrətməlidir. Məhz müəllim müəyyən mərhələdə tərbiyə sahəsində hansı vəzifəni yerinə yetirmək lazım gəldiyini müəyyənləşdirməli, valideynlərə kömək etməli, uşağın şəxsiyyətinin formalaşdırılmasına düzgün təsir göstərmək yollarını onlara öyrətməlidir. Məktəb hər bir şagirdə tələbkarlıqla və obyektiv yanaşmalı, hər yerdə – davranışda da, geyimdə də, əyləncədə də təvazökar olmağı öyrətməlidir. Məktəb bunu uşaqlara, lazım gəlsə, hətta valideynlərə də öyrətməlidir. Valideynlər yaxşı başa düşməlidirlər ki, uşaqların tərbiyəsi heç də ailənin daxili işi, hər kəsin şəxsi işi deyildir. Bu, vətəndaşın Konstitusiyadan irəli gələn vəzifəsidir, cəmiyyət qarşısında borcudur və hər bir valideyn məsuliyyətini tamamilə dərk edərək öz borcunu yerinə yetirməlidir.

* Azərbaycanın suverenliyi, bütövlüyü və bölünməzliyi, ölkəmizin bütün vətəndaşlarının mənsub olduğu Azərbaycan xalqı, azərbaycançılıq, ölkəmizin dövlət dili olan Azərbaycan dili, xalqımızın tarix boyu yaratdığı milli-mənəvi dəyərlərimiz, xalqımızın milli əxlaqi mentaliteti, ümumbəşəri dəyərlər və bütün bu dəyərlərin sintezi, respublikamızın ilk demokratik konstitusiyası, bu konstitusiyada hər bir vətəndaş üçün vəzifələr, vətəndaşlarımızın hüquqları, təminatları, Azərbaycanın milli bayrağı, gerbi, himni – bütün bunlar, mənim fikrimcə, müstəqil Azərbaycanın milli ideologiyasının əsasını təşkil edən prinsiplərdir. Gənclərimizi təhsil, tərbiyə sahəsində, ailə həyatında bu prinsiplər əsasında formalaşdırmaq, inkişaf etdirmək və fəaliyyətə cəlb etmək lazımdır. Konstitusiyanı öyrənmək lazımdır, Konstitusiyanı dərk etmək lazımdır. Konstitusiyanın maddələrini, xüsusən vətəndaşların vəzifələrinə aid olan, vətəndaşların hüquqlarına aid olan maddələrini vətəndaş bilməlidir, bizim gənc vətəndaş bilməlidir və ona riayət etməlidir. Azərbaycanın dövlət müstəqilliyini təmsil edən Azərbaycan bayrağına münasibət, onun müqəddəsliyi hər bir cocuqda, yeniyetmədə daxildən olmalıdır. Azərbaycan bayrağı sadəcə bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Məktəblərimizdə Azərbaycanın dövlət müstəqilliyinin, azadlığının mənası, məzmunu çox geniş tədris olunmalıdır. Bu, çox əhəmiyyətlidir, çünki vətənpərvərlik hissləri insanlara uşaq vaxtından aşılanmalıdır. Xalqımızın təbii xüsusiyyəti ondan ibarətdir ki, xalqımız vətənpərvərdir. O, ananın bətnində vətənpərvərlik hisslərini özündə toplayır.

⇨Ardı səh.7

Sərhəd tanımayan şöhrətin parlaq təcəssümü

⇦ Əvvəli səh.6

* Respublikamızın çox güclü müəllim ordusu var. Azərbaycanın müəllimləri ən yüksək mənəviyyata, vətəndaşlıq hisslərinə malik olan insanlardır. Müəllimlik sənəti şərəfli bir sənətdir. Mən bunu öz həyatımda da, işlədiyim dövrlərdə müəllimlərlə görüşlərdə, danışıqlarda da hiss etmişəm ki, Azərbaycan müəllimləri bu şərəfli adı ləyaqətlə daşıyıblar və bu gün də daşıyırlar. Müəllim, həqiqi müəllim adını daşıyan insan həmişə, tarixin ən çətin dövrlərində dəyanətli, dözümlü olubdur və öz mənəviyyatını hər şeydən yüksək tutubdur. Bizim hamımız - mən də, siz də Azərbaycan məktəbinə, Azərbaycan müəlliminə borcluyuq. Cəmiyyətimizin ümidi, gələcəyi olan uşaqların təlim-tərbiyəsi kimi ən mühüm, ən vacib iş ona etibar edilmişdir. Müəllim öz biliyini, təcrübəsini, qüvvəsini, qiymətli nəyi varsa, hamısını şagirdlərinə, xalqa bəxş edir. Məktəbimizin bütün yetişdirmələrinə həyat vəsiqəsini müəllim vermişdir. Rəşadətə bərabər bu nəcib, fədakar əməyinə görə müəllimin yetişdirmələri, valideynlər ona hədsiz dərəcədə minnətdarıq.

* Müəllim adı dünyada ən yüksək addır. Məsələn, şəxsən mən Yer üzündə müəllimdən yüksək ad tanımıram. Çünki hər birimizə təhsil, bilik verən, bu səviyyəyə qaldıran məktəbdir və məktəbdə təhsil verən də müəllimdir. Bizim müstəqil respublikamızda, Azərbaycan cəmiyyətində müəllim bu gün də, gələcəkdə də ən hörmətli insan kimi qəbul edilməlidir və müəllimlik peşəsi ən yüksək qiymətə layiq olan peşədir. Biz əsl vətənpərvərlərin, mübarizlərin, əməkçilərin, möhkəm əqidəli insanların neçə-neçə nəslini yetişdirmiş müəllimlərimizlə haqlı olaraq fəxr edirik.

* Müəllimin mənəvi-əxlaqi siması, ideya inamı, baxışlarının sabitliyi, hərəkətlərinin ardıcıllığı, maraq dairəsinin genişliyi, səmimiliyi və vicdanlılığı məktəbdə qüdrətli, tərbiyəvi amildir. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdirliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq. Müəllim vəzifəsi ona görə şərəflidir ki, o, cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli, vətənpərvər vətəndaşlar hazırlayır.

* Şəxsən mənim müəllimə həmişə böyük hörmətim olubdur. İndiyə qədər həyatımda keçdiyim yol, mənim biliyim, elmim - hamısı məhz orta məktəbdə aldığım təhsillə bağlıdır, müəllimlərin mənə və o illərdə oxuyan mənim kimi gənclərə göstərdikləri qayğıkeşliklə bağlıdır. Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır. Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır. Müəllimlik peşəsi asan peşə deyil. Bəziləri hesab edirlər ki, hər adam müəllim ola bilər. Bəzən olur ki, müəllimliyə layiq olmayan adam da müəllimlik edir. Belə hallar bu gün də var, gələcəkdə də ola bilər. Ancaq Azərbaycan müəllimlərinin tam əksəriyyəti layiqli müəllimdir. Əgər bunlar belə olmasaydı, Azərbaycanın bugünkü elmi, iqtisadiyyatı, mədəniyyəti, yüksəlişi ola bilərdimi? Biz bunların hamısını məktəblərdən, universitetlərdən, müəllimlərdən almışıq. Bu gün ölkəmizin qarşısında duran problemlərin həllində müəllimlərin fəal iştirakı xüsusi əhəmiyyət kəsb edir. Bizim xalqımızın zəngin tarixini, mədəniyyətini, mənəviyyatını, mənəvi dəyərlərini uşaqlara öyrətmək, çatdırmaq, uşaqları məhz həmin ənənələr ruhunda tərbiyə etmək müəllimlərin müqəddəs borcudur. Azərbaycan müəlliminin bir məqsədi, bir amalı olmalıdır: Azərbaycanımızı çiçəklənən, inkişaf edən, firavan, qüdrətli bir dövlətə çevirməyə qadir, müstəqillik ideyalarına sadiq, özünü Vətənin azadlığı naminə fəda etməyə hər an hazır olan, yeni təfəkkür tərzini qavrayaraq müasir tələblərə cavab verən sağlam əqidəli, milli ruhlu nəsil yetişdirmək.

* İndi təhsil sahəsində geniş islahatlar həyata keçirilir. Güman edirəm ki, bu, təhsilin keyfiyyətini artıracaqdır və gənclərin daha da yüksək təhsil alması üçün şərait yaradacaqdır. Biz Azərbaycanda islahatların keçirilməsində müəyyən beynəlxalq təşkilatların köməyindən istifadə edirik və onların tövsiyələrini, təkliflərini nəzərə alırıq. Şübhəsiz ki, bütün beynəlxalq təşkilatların məsləhətlərinə çox diqqətlə yanaşmalıyıq. Xüsusən Dünya Bankı ilə ki, əməkdaşlıq edirik, onun verdiyi tövsiyələri, məsləhətləri çox diqqətlə qəbul etməliyik. Azərbaycanın reallığına, milli xüsusiyyətinə uyğun olan hər bir müsbət təklifdən istifadə etməli, onu öz təhsil sistemimizdə tətbiq etməliyik. Dünya Bankının köməyi yalnız qrant və kredit ayırmaqdan ibarət deyildir. Dünya Bankının bizə köməyi dünya təcrübəsini Azərbaycana gətirməkdir. Ancaq Azərbaycanda təhsil sistemində indiyə qədər əldə edilmiş müsbət təcrübə, özünü doğrultmuş, müsbət nəticələr vermiş sistem saxlanmalı, inkişaf etdirilməli və müasirləşdirilməlidir. Nöqsanlar, yaxud mənfi təcrübə aradan götürülməlidir. Dünya təcrübəsindən Azərbaycanın milli xüsusiyyətlərinə uyğun olan prinsiplər, qaydalar təhsil sistemimizə tətbiq edilməlidir. Biz dünyanın bütün ölkələrində - Qərbdə də, Şərqdə də əldə olunmuş nailiyyətləri dərindən öyrənməli və onlardan Azərbaycan üçün müsbət xarakter daşıyan cəhətləri ölkəmizin təhsil sistemində tətbiq etməliyik. Respublikamız müstəqil dövlət kimi Azərbaycanın öz milli ideologiya konsepsiyasını yaradaraq, inkişaf etdirərək, şübhəsiz ki, təhsil sahəsini də milli məqsədlər, mənafelər əsasında qurmalıdır.

* Biz təhsil sahəsində bütün yeniliklərin tərəfdarıyıq, dünya təcrübəsindən səmərəli istifadə etməyi tələb edirik. Ancaq bu işlər gərək sistemli olsun. Bu işləri görərkən, qurarkən siz onların yaxın və uzaq zamanda nəticələrini mütləq nəzərə almalısınız. İndiyə qədər yaranmış təhsil, bilik, elm potensialından, həm də bütün ölkələrlə hazırkı əlaqələrdən istifadə edərək inkişaf etmiş ölkələrin təcrübəsini təhsil sahəsində tətbiq etmək mümkündür. Mənim sizə tövsiyəm ondan ibarət olar ki, islahatları düşünülmüş qaydada aparasınız, formalizmə, konyunkturaya yol verməyəsiniz, Azərbaycanın milli ənənələrinin üstündən keçməyəsiniz. Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz. Ümumiyyətlə, bizim həyatımızın bütün sahələrində dəyişikliklər təkamül xarakteri, tədricən dəyişikliklər xarakteri daşıyır. Əgər iqtisadiyyat sahəsində islahatları keçirmək bir il, iki il yox, bir neçə il və ondan da çox vaxt tələb edirsə, təhsil sahəsində islahatlar bundan daha çox vaxt tələb edir. Bunu anlamaq, bilmək lazımdır. Ona görə də deyirəm ki, burada inqilabi dəyişikliklər ola bilməz. Çalışmaq lazımdır ki, islahat islahatlar naminə aparılmasın, təhsil sistemimizi daha da təkmilləşdirmək, bu günün, gələcəyin tələblərinə daha da uyğunlaşdırmaq məqsədi daşısın. Biz istəyirik ki, ölkəmizin bütün sahələrində proseslər dünya ilə tam uyğun formalarda inkişaf etsin. Təhsil sahəsində islahatların keçirilməsi məhz bu məqsədi daşıyır. Bizim təhsilin məzmunu yüksəkdir. Amma onun forması və təhsilin bəzi ayrı-ayrı mərhələlərdə müddəti, yaxud onların nəticəsi indi dünyada, xüsusən Qərb ölkələrində, inkişaf etmiş ölkələrdə olan sistemlərdən bir az fərqlidir. Ona görə də indi biz bu islahatları həyata keçiririk ki, bizim təhsil sistemi də həmin o ümumdünya təhsil sisteminə uyğun olsun, Azərbaycanın təhsil sistemi dünya təhsil sisteminin standartlarına uyğunlaşsın. Azərbaycanın təhsil sistemində təhsil alan insanların və xüsusən ali məktəbləri bitirənlərin bilik səviyyəsi və onların biliklərini təsdiq edən sənədlər gərək dünyanın inkişaf etmiş ölkələrinin ali məktəblərinin bilik səviyyəsinə uyğunlaşdırılsın. Onların prinsiplərinə uyğunlaşdırılsın ki, Azərbaycanda təhsil almış və mühəndis diplomu almış bir insan başqa ölkələrdə də həmin diplomla qəbul edilə və fəaliyyət göstərə bilsin. Yaxud da, Azərbaycanda Tibb Universitetində təhsil almış, həkim ixtisası diplomu almış adam hər bir başqa ölkədə öz diplomu ilə işləyə bilsin. Ona görə də onun bilikləri, Azərbaycan Tibb Universitetində təhsilin istiqaməti gərək dünya miqyasında ümumbəşəri dəyərlər hesab edilən tibb təhsilinin səviyyəsində olsun.

* Son illər Azərbaycan müstəqil dövlət kimi yeni iqtisadi-siyasi sistem yolu ilə gedərək dünyanın bütün ölkələrinin, xüsusən Qərb ölkələrinin təcrübəsindən öyrənməyə çalışır və təhsilin də təkmilləşdirilməsində bu təcrübədən istifadə etmək lazımdır. Müasir texnikanı, müasir bazar iqtisadiyyatının bütün yollarını mənimsəmək, respublikada tətbiq etmək üçün gələcək nəsli hazırlamaq və keçmiş dövrə nisbətən bir çox yeni ixtisaslar üzrə kadrlar hazırlamaq lazımdır. Şübhəsiz ki, bütün bunlar ali təhsil səviyyəsində olacaqdır. Ancaq bunların əsası orta təhsil illərində qoyulmalıdır. Yəni gənclərin bu istiqamətdə təhsilinin artırılmasının təməli qoyulmalıdır. Bunu iqtisadiyyatımızın bu günü və gələcəyi tələb edir. Bu günün tələbləri, gələcəyin tələbləri baxımından dünyanın hər yerində, bütün ölkələrdə inkişaf etmiş iqtisadiyyatı, texnologiyanı, texnikanı mənimsəmək, onları respublikada tətbiq etmək, ölkəmizin iqtisadiyyatını, mədəniyyətini, təhsilini, elmini dünya standartları səviyyəsinə qaldırmaq üçün gənclərimizə lazım olan fənlərin tədrisi gərək yaxşı təşkil edilsin.

* Hər bir millətin, hər bir ölkənin gələcəyi gənclərdir. Bizim gənclərimiz gərək bütün əvvəlki nəsillərə nisbətən daha yüksək təhsil almış olsunlar. Biz gənclərimizi nə qədər yüksək təhsilli etsək, həqiqi yüksək təhsilli etsək, onların müəyyən ixtisaslara mükəmməl yiyələnməsinə şərait yarada bilsək, müstəqil Azərbaycanın gələcəyi və demək, müstəqil Azərbaycanın iqtisadiyyatının inkişafı, elminin inkişafı, təhsilinin inkişafı, insanların rifah halı o qədər də yaxşı olacaqdır. Həm elm sahəsində, həm təhsil sahəsində, ədəbiyyat, mədəniyyət sahəsində və bizim mənəvi mənbəyimiz olan din sahəsində, islam dini sahəsində tarixi ənənələrimizdən istifadə edərək gənclərimiz üçün bütün dünyaya geniş yol açmaq lazımdır. İndiki gənclərin əvvəlki dövrlərə nisbətən bu potensialı daha da böyükdür. Bizim hamımızın vəzifəsi bunlardan səmərəli istifadə etməkdir. Gərək onlar Azərbaycanın gələcəyi üçün, Azərbaycanda indi bizim apardığımız islahatların gələcəkdə nəticələrini həyata keçirmək üçün, Azərbaycanı daim müstəqil, demokratik, hüquqi, dünyəvi dövlət kimi yaşatmaq üçün, əvvəlkilərdən fərqli olaraq, indi daha da çox bilik alsınlar, müasir həyatı daha yaxşı dərk edə bilsinlər, müasir texnikadan, texnologiyadan istifadə edə bilsinlər. Gənclər elmi işçilərin sıralarına daha fəal qoşulmalı, elmi-texniki tərəqqinin tətbiq edilməsinin önündə getməlidirlər. Fundamental və texniki fənləri dərindən mənimsəmək, bu fənlərin tədrisi səviyyəsinə daim diqqət yetirmək lüzumu buradan irəli gəlir.

* Əziz gənclər! XXI əsr sizin əsriniz, sizin dövrünüz olacaqdır. Siz və sizin kimi Azərbaycan gəncləri, yeniyetmələri, yüksək təhsilli insanları həmin əsrdə müstəqil, azad respublikamızı yaşadacaqsınız, inkişaf etdirəcəksiniz. Biz bu işləri sizin öhdənizə buraxacağıq. İqtisadi və mədəni quruculuq sürəti də, gələcəkdə respublikamızın ictimai həyatının səviyyəsi də nəticə etibarı ilə sizdən, gənclərin bütün indiki nəslindən, onların bacarığından, qabiliyyətindən, biliyindən asılı olacaqdır. Siz elmi-texniki inqilabı irəli aparmalı, elm və mədəniyyəti inkişaf etdirməli, cəmiyyətin yeni maddi və mənəvi sərvətlərini yaratmalı olacaqsız. Bu gün sizin başlıca vəzifəniz oxumaqdan, müstəqil işləmək vərdişləri əldə etməkdən, həqiqəti axtarmaq və ona nail olmaq bacarığına yiyələnməkdən, yəni kamil mütəxəssis olmaq, cəmiyyətimizə daha çox fayda vermək üçün zəhmətlə, səylə, əzmlə, gündən-günə misilsiz bilik, mədəniyyət, ictimai vərdiş ehtiyatı toplamaqdan ibarətdir. Sabahkı gün sizə yeni, yüksək tələblər verəcəkdir. Əgər mütəxəssis həqiqətən yaradıcı şəxsiyyətdirsə, o, sadəcə olaraq zamanla ayaqlaşmalı deyil, həmişə zamanı bir qədər qabaqlamalıdır. Bu isə o deməkdir ki, daim öyrənmək lazımdır, buna görə də bilik, bacarıq, vərdiş bünövrəsi möhkəm olmalıdır. Yeniliyi dərindən mənimsəmək, yaradıcılıqla düşünməyi bacarmaq, özünə çalışqanlıq, axtarış bacarığı, tədqiqat məharəti aşılamaq lazımdır. Əməyin elmi təşkili prinsiplərini yaxşı öyrənmək, kollektiv təcrübəni qiymətləndirməyi, başqalarının rəyinə qulaq asmağı, tənqiddən qorxmamağı, öz işinə tənqidi yanaşmağı bacarmaq lazımdır.

* Gənc şəxsiyyətin təşəkküləndə, gənclərin dünyagörüşünün formalaşdırılmasında ictimai fənlərin rolu xüsusilə böyükdür. İctimai fənləri yaxşı bilmək hər bir məktəblidə Vətənə məhəbbət hissinin, xalqın rifahı naminə fədakarlıqla çalışma əzminin tərbiyə olunmasına və inkişaf etdirilməsinə kömək edir. Azərbaycan tarixini mütləq bilmək lazımdır. Ona görə yox ki, onlar tarixçi olacaqlar. Əgər riyaziyyatçı millətinin, xalqının, ölkəsinin tarixini bilmirsə bu, ona üstünlük vermir. Hər bir Azərbaycan vətəndaşı öz tarixini bilməlidir və tarixini də bilmək üçün gərək onu uşaqlıqdan bu işə cəlb edəsən, gərək orta məktəbdən cəlb edəsən. Demək, orta məktəblərdə tarixin tədrisi çox yüksək səviyyədə olmalıdır. Xalqımızın keçdiyi tarixi yol, əldə etdiyi mədəni, intellektual potensial, inkişaf səviyyəsi böyük mədəni sərvətimizdir. Biz öz tariximizlə fəxr edirik. Biz Azərbaycan xalqının əsrlər boyu dünya sivilizasiyasına verdiyi töhfələrlə fəxr edirik. Bunların hamısı bu günümüz və gələcəyimiz üçün gözəl təməldir.

* Məktəbdə ana dili və ədəbiyyatın tədrisi formaları və metodlarını daim təkmilləşdirmək, uşaqlarda sözə, obrazlı təfəkkürə məhəbbət hissi aşılamaq, onları mədəniyyət nailiyyətləri ilə, dünya və Azərbaycan poeziyası və nəsri klassiklərinin yaradıcılığı ilə, ədəbiyyatın qızıl fonduna daxil olmuş görkəmli əsərlərlə tanış etmək lazımdır. Ana dilini, doğma xalqın ədəbiyyatını, mədəniyyətini dərindən bilmək elmli adam üçün zəruri keyfiyyətdir. Bir var ki, Azərbaycan dilində oxuyursan, bir də var ki, dilin incəliklərini bilirsən, Azərbaycan dilində yüksək səviyyəli söz deyə bilirsən, fikrini ifadə edə bilirsən, nitq edə bilirsən.

* Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilə bilməz. Biz öz dilimizin hörmətini qaldırmalıyıq. Ona görə ki, bizim dilə hörmət edilsin, dilimizi öyrənsinlər, mənimsəsinlər. Mən əminəm ki, başqa ölkələrdə də bizim dilimiz nə qədər geniş yayılsa, öyrənilsə, Azərbaycanın ədəbiyyatını, mədəniyyətini ana dilimizdə oxuyanlar, öyrənənlər respublikamızın necə zəngin mənəviyyata, ədəbiyyata, mədəniyyətə malik olduğunu dərk edəcəklər. Ədəbiyyatımızı bilmək lazımdır. Ədəbiyyatını bilməyən adam dilini yaxşı bilməyəcəkdir. Ədəbiyyatı bilməyən adam yüksək mədəni səviyyəyə çata bilməyəcəkdir. Mən bu məsələ ilə əlaqədar öz fikirlərimi sizə çatdırıram və güman edirəm ki, bu tövsiyələrimi unutmayacaqsınız.

* Gənclərimizin qarşısında duran əsas vəzifələrdən biri mənəvi tərbiyə məsələsidir. Böyüməkdə olan nəslin mənəviyyatca zəngin, ideyaca mətin, yüksək əxlaqlı şəxsiyyət kimi formalaşdırılması bu gün cəmiyyətimiz qarşısında duran çox mühüm vəzifədir. Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir. Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Keçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran və bizim üçün nümunə edən onların yüksək mənəviyyatıdır, yüksək amallarıdır. Əgər biz xalqımızda mənəvi dəyərləri inkişaf etdirmək istəyiriksə, birinci növbədə ziyalılarımızın mənəviyyatı yüksək olmalıdır və onlar xalqın başqa təbəqələrinə nümunə göstərməlidirlər.

* Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra xalqımızın mənəvi dəyərləri canlanıb, bərpa edilibdir, hər bir azərbaycanlı müsəlmanın həyat tərzinin əsas qanunu olubdur. Bu, bizim üçün böyük bir tarixi hadisədir və biz bunu yüksək qiymətləndirməliyik, xalqımızı, millətimizi, gənc nəsli, bütün cəmiyyətimizi islamın bu yüksək mənəvi dəyərləri əsasında yaşatmalı, tərbiyə etməliyik, həyatımızı bu mənəvi dəyərlər əsasında qurmalıyıq. İslam dini bizim müqəddəs dinimizdir, “Qurani-Kərim” müqəddəs kitabımızdır. İslam dininin, “Quran”ın Azərbaycan xalqına bəxş etdiyi mənəvi dəyərlər bizim üçün əzizdir və xalqımızın, gənclərimizin bu gün də, gələcəkdə də tərbiyəsi üçün çox əhəmiyyətlidir. Qurani-Şərifin bizə verdiyi tövsiyələr, dərs, göstərdiyi yollar insanları paklığa, düzlüyə, doğruluğa, sədaqətə, qəhrəmanlığa, cəsarətə, cəsurluğa dəvət edən tələblərdir, tövsiyələrdir. İslam dininin bəşəriyyətə bəxş etdiyi bütün nemətlərdən hər bir azərbaycanlı səmərəli istifadə etməlidir və xüsusən cəmiyyətdə davranışında islam dininin tələblərinə uyğun olaraq özünü göstərməlidir. Gənclərimizin islam dinini mənimsəməsi üçün lazımi tədbirlər görülməlidir.

* Respublikamızın, xalqımızın milli xüsusiyyətlərini, milli ənənələrini, milliliyini heç vaxt unutmaq lazım deyil və bunu heç bir şeyə dəyişmək olmaz. Əgər biz azərbaycanlı kimi öz müstəqilliyimizi, milli azadlığımızı yüksək qiymətləndiririksə, xalqımızın tarixini, adət-ənənələrini, xalqımıza məxsus milliliyi həmişə yaşatmalıyıq və onları hər yerdə təbliğ etməliyik. Mən bunu ona görə deyirəm ki, bizim bəzi adamlar - gənclər, hətta gənc olmayanlar da başqa ölkəyə gedən kimi dərhal cürbəcür təsir altına düşürlər. Bu da o nəticəyə gətirib çıxarır ki, həmin adamlar öz milliliyini itirir, öz adət-ənənələrini itirirlər. Bu da təhlükəlidir. Biz həm milli tariximizdən aldığımız mənəvi sərvətlərdən istifadə etməli, həm də bəşəriyyətin yaratdığı mənəvi dəyərlərə yiyələnməliyik, o cümlədən Avropa mədəniyyətindən, Rusiya mədəniyyətindən, Şərq mədəniyyətindən istifadə etməliyik.

* Biz keçmişlərdən fərqli olaraq, indi müstəqil Azərbaycanın gələcəyini formalaşdırırıq, müstəqil Azərbaycanın gələcək fəaliyyətini formalaşdırırıq, müstəqil Azərbaycanın vətəndaşlarını formalaşdırırıq və məktəbdə, universitetdə formalaşan gənc, Azərbaycanın gələcək fəal vətəndaşı gərək mənəviyyatca saf olsun. Gərək o, vətənpərvərlik hissi ilə yaşasın, vətənpərvərlik hissi ilə tərbiyə olunsun. Ona görə də gərək mənəvi saflıq ali məktəblərdə, orta məktəblərdə hökm sürsün. Gərək onun müəllimləri, tərbiyəçiləri özləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər. Onlar gərək Azərbaycan dövlətinə, millətinə, Azərbaycanın gələcəyinə sadiq vətəndaşlar olsunlar. Bu da hamısı məktəblərdə, universitetlərdə formalaşmalıdır.

* Mənəvi və fiziki sağlamlıq bir-biri ilə qarşılıqlı əlaqədədir. Çünki mənəviyyat pozulanda gənclərin fiziki sağlamlığını da pozur. Dünya təcrübəsi, tarix əsrlər boyu göstərmişdir ki, mənəvi və fiziki sağlamlıq xalqın ümumi sağlamlığı, ümumi saflığı, millətin bu günü və gələcəyidir. Gənclərimizi, bütün əhalimizi bədən tərbiyəsinə, idmana cəlb etməliyik. İnsanlar bədən tərbiyəsi ilə, idmanla nə qədər çox məşğul olsalar, onlar adamların sağlamlığına, həyatına zərər gətirən adətlərdən kənar olarlar, uzaq olarlar, - məsələn, alkoqollu içkilərdən istifadə edilməsi, gənclər arasında narkotik maddələrdən istifadə halları müşahidə olunur, yaxud insan üçün zərərli olan başqa adətlərdən, xüsusiyyətlərdən kənar olarlar, belə şeylərə heç vaxt alışmazlar. Böyüməkdə olan nəslin fiziki inkişafına daha çox fikir verilməli, bədən tərbiyəsinin tədrisi yaxşılaşdırılmalı, hər bir məktəbdə səmərəli idman məşğələləri üçün şərait yaradılmalı, uşaqlar fiziki cəhətdən hər vasitə ilə möhkəmləndirilməli, onların sağlamlığına qayğı göstərilməlidir.

* Azərbaycan gəncləri orduda xidmət etməyi öz şərəfli borcları hesab etməlidirlər. Hərbi xidmət etməyən gənc həyatın sınaqlarından çıxa bilməz. Mən də bunu bir daha bildirmək istəyirəm ki, hər bir azərbaycanlı gənc orduda xidmət etməklə özünü yüksəldir, həqiqi vətəndaş edir, ölkəsində özünü hüquqlu bir insan edir. Ordu mövzusu, ordunun yaranması, formalaşması bizim bütün həyatımızda əsas mövzulardan biri olmalıdır, gənclərin orduda xidmət etmək üçün tərbiyələndirilməsi bizim əsas vəzifələrimizdən biri olmalıdır və bu vəzifələri biz ardıcıl surətdə həyata keçirməliyik.

* Gənclərimiz nə qədər çox dil bilsələr, bir o qədər zəngin dünyagörüşünə malik olacaqlar. Bu, müasir dünyanın tələbləridir. Hər bir azərbaycanlı gənc çalışmalıdır ki, dünyanın çox dillərini - rus dilini də, ingilis dilini də, fransız dilini də, ərəb, fars dillərini də mənimsəsin, öyrənsin. Bu, lazımdır, çünki müasir dünya ölkələrinin bir-biri ilə sıx əlaqəsi bu gün və gələcəkdə insanlardan bir çox dil bilməsini tələb edir. Mən arzu edirəm ki, Azərbaycan gənci Şekspiri ingilis dilində oxusun, Puşkini rus dilində oxusun, Nizamini, Füzulini, Nəsimini isə Azərbaycan dilində oxusun. Amma ən əsası ondan ibarətdir ki, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini - Azərbaycan dilini, dövlət dilini mükəmməl bilməlidir, bu dildə yaxşı danışmaq lazımdır, bu dili ana dili kimi daim duymaq lazımdır, bu dili sevmək lazımdır. Gənclərə tövsiyə edirəm ki, əgər kiminsə bu barədə çatışmazlığı varsa, çalışın, bunu aradan qaldırın. Xarici ölkələrdə təhsil alarkən, həmin ölkənin dilini öyrənərkən, eyni zamanda başqa dilləri öyrənərkən öz dilinizi heç vaxt unutmayın və öz ana dilinizi heç bir başqa dilə dəyişməyin. Xalqın, millətin, insanın öz ana dilindən əziz heç bir şeyi ola bilməz. Azərbaycandan kənara - başqa ölkələrə təhsil almağa gedən gənclərə xüsusi tövsiyəm ondan ibarətdir ki, siz hansı ölkədə olursunuzsa-olun, birinci vəzifəniz yüksək təhsil almaqdan, o təhsil ocağının bütün imkanlarından istifadə edərək hərtərəfli, hazırlıqlı bir vətəndaş olmaqdan ibarətdir. Eyni zamanda siz respublikamızı xarici ölkələrdə təmsil edən insanlar, gənclər olacaqsınız. Siz sadəcə olaraq təhsil almaqla kifayətlənməməlisiniz, Azərbaycanı ləyaqətlə təmsil etməlisiniz, ölkəmizin həqiqətlərini təhsil alacağınız universitetlərdə, ali təhsil müəssisələrində yaymalısınız, təbliğ etməlisiniz.

* Bu gün sizin qarşınızda xoşbəxt bir yol açılıbdır. Eyni zamanda sizin üzərinizə böyük məsuliyyət düşür. Bu sizin şəxsi vətəndaşlıq məsuliyyətinizdir. Həmçinin valideynlərinizin, müəllimlərinizin, doğma Vətəninizin qarşısında məsuliyyət daşıyırsınız. Azərbaycanı sevmək azərbaycanlılıq hissiyatını özündə cəm etmək deməkdir. Mən əminəm ki, Azərbaycanın gələcəyi etibarlı əllərdədir. Çünki bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclərdir, vətənpərvər gənclərdir, xalqını, millətini sevən gənclərdir. Mən əminəm ki, müstəqil Azərbaycanın gələcəyini qoruyub saxlaya bilən gənc nəsillər yetişir. Arzu edərdim ki, siz bütün bunların hamısını layiqincə yerinə yetirəsiniz, Azərbaycanın layiqli övladları olasınız, respublikamızın gələcəkdə layiqli, yüksəkixtisaslı mütəxəssisləri, vətənpərvər vətəndaşları olasınız. Bunun üçün siz gərək universitetlərdə, başqa ali məktəblərdə təhsil dövründən səmərəli istifadə edəsiniz. Bu, çox əhəmiyyətlidir. Gənclər bəzən gələcəklərini o qədər də dərk edə bilmirlər. Ancaq mən, bütün çətin dövrləri yaşamış bir şəxs kimi, sizə öz həyat təcrübəmdən və gördüklərimə əsasən tövsiyə edirəm ki, həyatınızda heç bir günü itirməyin. Ali məktəblərdə hər bir gün sizin üçün vacib və əhəmiyyətlidir. Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifələr düşür. Bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır. Siz müstəqil Azərbaycanı XXI əsrdə yaşadanlarsınız, quranlarsınız, inkişaf etdirənlərsiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək üçün hazır olun!”.

...Həmin məqamda hissiyatıma hakim kəsilən və məni bu sehrli aləmə gətirən, uzun illər şahidi olduğum və hər anını sevinclə yaşadığım doğma ovqatı mənə yenidən bəxş edən düşüncələrdən ayıldım, reallığa qayıtdım. Qarşımda yenə yazı masam, qələmim və vərəqlər idi. Lakin daxilimi bürümüş həyəcan məni tərk etmirdi, Ulu Öndərin bənzərsiz səsi, sərrast, zərgər dəqiqliyi ilə ölçülüb biçilmiş, varlığı qədər sevdiyi doğma ana dilimizdə ən yüksək ifadəsini tapmış parlaq nitqi hələ də yaddaşımda səslənirdi. Əminəm ki, bu qüdrətli səs daim bizimlə olacaqdır, xalqımızı qələbədən-qələbəyə aparan əbədi çağırışın rəmzi kimi müstəqil Azərbaycanın hər guşəsində eşidiləcəkdir.

Aydın ƏHMƏDOV,
Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor müavini, Əməkdar müəllim

Redaksiyadan

Təqdim etdiyimiz bu yazı təxminən 10 il bundan əvvəl qələmə alınıb və pedaqoji mətbuatda işıq üzü görüb. Ulu Öndər Heydər Əliyevin təhsil haqqında proqramyönlü seçilmiş dəyərli fikirlərinin məcmusunu əks etdirən bu məqalə o vaxtlar maraqla qarşılanmışdı və indi də belə qənaətdəyik ki, aradan xeyli müddət keçməsinə baxmayaraq, dahi rəhbərin təhsilimizin dünəni, bugünü və gələcəyi barədə irəli sürdüyü müdrik fikirlər inkişaf yolumuzu daim işıqlandıran sönməz məşəl, təhsil mütəxəssisləri və tədqiqatçıları üçün etibarlı və qiymətli tarixi mənbədir. Qeyd edilənləri və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında” Sərəncamını rəhbər tutaraq, həmin yazının təkrarən təhsil ictimaiyyətinin diqqətinə çatdırılmasını məqsədəmüvafiq saydıq.

2020

Təqvim ili rəqəmlərdə

Məktəbəqədər və ümumi təhsil

151899 uşaq birinci sinfə gedib

2022-ci təqvim ilində birinci siniflərə 151899 uşaq qəbul edilib.

Ölkə üzrə 91549 uşaq məktəbəhazırlığa cəlb edilib

2022-ci təqvim ilində ölkə üzrə ümumilikdə 5445 qrupda 91549 uşaq təhsilə cəlb olunub.

İcma əsaslı məktəbəqədər təhsil qrupları

Ölkə üzrə 55 rayon və şəhərdə təşkil edilən 847 icma əsaslı məktəbəqədər təhsil qrupunda 15177 nəfər 3-4 yaşlı uşaq təhsilə cəlb edilib.

Məktəbəqədər təhsil

2022-ci ildə 22 mindən çox uşaq elektron qaydada məktəbəqədər təhsil müəssisələrinə qəbul edilib.

53 yeni təhsil müəssisəsi istifadəyə verilib

2022-ci ildə 23 yeni məktəb və 30 modul tipli məktəb istifadəyə verilib. 682 məktəb cari, 87 məktəb əsaslı təmir olunub.

Ümumi təhsil müəssisələrinin internetə çıxışı

Ümumilikdə ölkə üzrə 4331 təhsil müəssisəsinin Azərbaycan Təhsil Şəbəkəsinə (ATŞ) və internetə çıxışı təmin edilib. Cari tədris ilinin sonunadək məktəblərə əlavə 43350 kompüterin paylanılması planlaşdırılır.

Beynəlxalq fənn olimpiadalarında yüksək nəticə

Azərbaycan məktəbliləri ümumilikdə 19 müxtəlif beynəlxalq olimpiada və müsabiqələrdə iştirak edərək 2 qızıl, 22 gümüş, 48 bürünc medal olmaqla ümumilikdə 72 medal əldə ediblər.

“Rəqəmsal bacarıqlar” layihəsinin tətbiqi genişləndirilib

2022-2023-cü tədris ilində “Rəqəmsal bacarıqlar” layihəsi Bakı, Sumqayıt, Abşeron, Astara, Ağsu, Bərdə, Cəlilabad, Göyçay, Hacıqabul, Quba, Kürdəmir, Lənkəran, Masallı, Mingəçevir, Saatlı, Oğuz, Qax, Qusar, Qəbələ, Saatlı, Salyan, Siyəzən, Tərtər, Masallı, Ucar, Xaçmaz, Yevlax, İmişli, İsmayıllı, Şəki, Ağcabədi, Ağstafa, Balakən, Beyləqan, Biləsuvar, Daşkəsən, Şamaxı, Gəncə, Naftalan, Qazax, Samux, Tovuz, Zaqatala, Şəmkir, Kürdəmir, Qobustan, Zərdab, Gədəbəy olmaqla ümumilikdə 48 şəhər və rayonda yerləşən 418 məktəb üzrə 300 min şagirdi əhatə edir.

Cari tədris ilindən etibarən 23 məktəbdə 10-cu siniflərdə informatikayönümlü tədrisin aparılması məqsədilə “Rəqəmsal bacarıqlar” təmayül sinifləri yaradılıb. Sözügedən siniflərdə 400-dən çox şagird təhsil alır. Ümumilikdə “Rəqəmsal bacarıqlar” təmayül 10 və 11-ci siniflərdə 700-dən çox şagird təhsil alır.

Peşə təmayüllü siniflər

2022-2023-cü tədris ilində “Peşə təmayüllü siniflərin təşkili” layihəsi 80 məktəbdə 124 sinfi əhatə etməklə fəaliyyətini davam etdirir. Cari tədris ilindən layihənin əhatə etdiyi bütün məktəblərdə “STEAM” və “Sürücülük” modulu tətbiq edilir, həmçinin bütün şagirdlərə karyera məsləhəti xidməti göstərilir.

2022-ci ildə peşə təmayüllü siniflərdən məzun olmuş şagirdlərin 28%-i əmək fəaliyyətinə, 12%-i ali, 7%-i orta ixtisas, 11%-i isə peşə təhsili almağa başlayıb.

STEAM

2022-ci ildə STEAM layihəsi 318 ümumtəhsil məktəb və 19 STEAM Mərkəzini əhatə edib. Ümumilikdə 135000-ə yaxın şagird STEAM tədrisinə cəlb edilib.

İl ərzində Tovuz, Mingəçevir, Şəmkir, Bakı, Zaqatala, Saray qəsəbəsində STEAM mərkəzləri fəaliyyətə başlayıb.

5-9 dekabr 2022-ci il tarixlərində STEAM Azərbaycan Festivalı keçirilib. Festivalda 10 kateqoriya üzrə yarışlar və 1 kateqoriya üzrə innovativ sərgi təşkil edilib. 7 ölkədən 127 əcnəbi iştirakçının da qatıldığı festivalda ümumilikdə 1500-dən çox iştirakçı olub.

“Məktəblinin dostu”

“Məktəblinin dostu” layihəsi 2022-ci ildə Bakıda 192, Abşeronda 11, Sumqayıtda 23 təhsil müəssisəsi olmaqla ümumilikdə 226 ümumi təhsil müəssisəsində fəaliyyət göstərib. 400 minə yaxın şagirdi əhatə edən layihə üzrə hazırda 400 əməkdaş çalışır.

Məktəbdənkənar fəaliyyət

Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə təhsil müəssisələrinin şagird və tələbələrinin iştirakı ilə vətənpərvərlik, sağlam həyat tərzi və digər istiqamətlər üzrə 7 festival, 6 intellektual oyun və bilik yarışı, 3 respublika yaradıcılıq müsabiqəsi, 3 hərbi-idman oyunu, 16 idman növü üzrə kütləvi tədbirlər, 14 idman növü üzrə 24 respublika birinciliyi və 1 beynəlxalq idman yarışı, sərgilər, forumlar, ekskursiyalar, turnirlər və birinciliklər keçirilib. Sözügedən tədbirlərə 100000-lərlə məktəbli və tələbə cəlb olunub.

Elm və Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən uşaq-gənclər idman şahmat məktəblərinin yetirmələri 2022-ci il ərzində respublika yarışlarında 344 qızıl, 318 gümüş, 374 bürünc olmaqla ümumilikdə 1036 medal, beynəlxalq yarışlarda isə 184 qızıl, 120 gümüş, 107 bürünc olmaqla ümumilikdə 411 medal qazanıblar.

Cari tədris ilində 143 məktəbdənkənar təhsil müəssisəsinin qrup və dərnəklərinə 29 idman növü və 103 adda dərnək üzrə 110 min nəfərə yaxın məktəbli cəlb olunub.

Müəllimlərin işə qəbulu üzrə müsabiqə

2022-ci ildə müəllimlərin işə qəbulu üzrə müsabiqədə iştirak üçün 60002 namizəd müraciət edib, onlardan 54804-ü müsabiqədə iştirak hüququ qazanıb. 7 gün ərzində 15 mərkəzdə təşkil olunan imtahanlarda 44363 namizəd iştirak edib.

Yeni işə qəbul olunan müəllimlər

2022-ci təqvim ilində müəllimlərin işə qəbulu üçün müsabiqə üzrə 13280 vakant yer elan edilib, 3902 namizəd müddətsiz əsaslarla, 3086 namizəd müddətli əsaslarla işə qəbul edilib. Əlavə yerləşdirmə zamanı isə 1650 namizəd müddətli əsaslarla vakant yerlərə təyin olunub. Tədris ili ərzində əlavə yerləşdirmə davam etdiriləcək.

953 müəllim iş yerini dəyişib

Elm və Təhsil Nazirliyi sisteminə daxil olan dövlət ümumi təhsil müəssisələrində müddətsiz müqavilə ilə işləyən müəllimlərin iş yerinin dəyişdirilməsi müsabiqəsinin nəticələrinə əsasən 953 nəfərin iş yerinin dəyişdirilməsinə razılıq verilib. Onlardan 21-i şəhid ailəsi üzvü, 55-i hərbçi ailəsi üzvü, 372-si həvəsləndirmə tədbirlərinin tətbiq edildiyi müəssisələrdə 3-5 il müddətində çalışan, 335 nəfəri isə həvəsləndirmə tədbirlərinin tətbiq edildiyi müəssisələrdə 5 il və daha artıq çalışan müəllimlərdir.

Müəllimlərin iş yerinin qarşılıqlı dəyişdirilməsi müsabiqəsi

Müsabiqə üzrə 2085 nəfər ərizəsini təsdiqləyib, 1177 nəfərin ərizəsi qəbul edilib. 202 müəllim isə elektron platforma üzərindən iş yerini qarşılıqlı olaraq dəyişib.

Müəllimlərin sertifikatlaşdırılması

İlk dəfə cari ildə təşkil olunan təhsilverənlərin sertifikatlaşdırılması prosesinə ilkin mərhələdə Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Abşeron-Xızı, Quba-Xaçmaz və Gəncə-Daşkəsən regional təhsil idarələrinə tabe olan, həmçinin Elm və Təhsil Nazirliyinin birbaşa tabeliyindəki ümumi təhsil müəssisələrində çalışan ibtidai sinif müəllimləri cəlb olunublar. Test mərhələsinə dəvət edilən 11665 nəfərdən 11211-i imtahanda iştirak edib və onlardan 8843-ü keçid balını toplayıb. Müsahibə mərhələsində 8784 nəfər təhsilverən iştirak edib və onlardan 8751-i uğur qazanaraq sertifikatlaşdırmadan keçmiş hesab olunub. Sertifikatlaşdırmadan keçmiş 3127 təhsilverənin vəzifə maaşına 35 faiz, 5624 təhsilverənə isə 10 faiz əlavə edilib.

Məktəbəqədər təhsil müəssisələrinə tərbiyəçi-müəllimlərin işə qəbulu

İlk dəfə olaraq məktəbəqədər təhsil müəssisələrinə tərbiyəçi-müəllimlərin işə qəbulu mərkəzləşdirilmiş qaydada müsabiqə yolu ilə təşkil edilib. Ölkə üzrə 9 imtahan mərkəzində təşkil olunan test imtahanı mərhələsinə 5508 nəfər namizəd dəvət olunub. Onlardan 4539-u test imtahanında iştirak edib. Müsahibələrə 775 nəfər dəvət edilib. Onlardan 739 namizəd müsahibə mərhələsində iştirak edib, 366 nəfəri isə uğur qazanıb.

Şəhid ailəsi üzvlərinin, qazi və Vətən müharibəsi iştirakçılarının işə qəbulu

Müəllimlərin işə qəbulu və yerdəyişməsi ilə əlaqədar hərbçi və şəhid ailəsi üzvləri, Vətən müharibəsi iştirakçıları tərəfindən Elm və Təhsil Nazirliyinə 200-ə yaxın müraciət ünvanlanıb. Onlardan 130 nəfərin müraciəti müsbət həll edilib, digər müraciətlər isə təhlil edilərək nəzarətə götürülüb.

Eyni zamanda şəhid və qazi ailəsi üzvlərinin sosial müdafiəsinin, məşğulluğunun təmin edilməsi məqsədilə digər pedaqoji vəzifələr üzrə 2021-ci ilin fevral ayından 2022-ci ilin 1 dekabr tarixinə kimi 2385 nəfər şəhid və hərbçi ailə üzvü, qazi, müharibə iştirakçısı Elm və Təhsil Nazirliyinə tabe müəssisələrdə işlə təmin olunub. Onlardan 1098 nəfəri cari ildə işə qəbul edilib.

Peşə təhsili

İşğaldan azad edilmiş ərazilərdə ilk peşə təhsili müəssisəsi

10 may 2022-ci il tarixində Prezident İlham Əliyev tərəfindən Füzuli peşə liseyinin təməli qoyulub. Peşə liseyinin ərazisi 3,2 hektar sahəni əhatə edəcək. Kompleksdə tədris, laboratoriya, idman binaları və meydança yaradılacaq. Burada həmçinin avtomobil təmiri emalatxanası, avadanlıq, texnika və təsərrüfat anbarları, təsərrüfat və praktik təlimlər qurğusu da inşa ediləcək.

Peşəyə gələn 19000 nəfərdən çox tələbə

2022-ci ildə peşə təhsilinə elektron qaydada həyata keçirilən tələbə qəbulu 126 ixtisas üzrə aparılıb. Peşə təhsili müəssisələrinə qəbul üçün ümumilikdə 93500 müraciət daxil olub, 19043 nəfər tələbə adını qazanıb. Ötən illə müqayisədə qəbul olunan şəxslərin sayı 14% artıb.

Yüksək texniki peşə təhsili səviyyəsi üzrə tələbə qəbulu

2022-2023-cü tədris ilində 5 regionda fəaliyyət göstərən 8 peşə təhsili müəssisəsində yüksək texniki peşə təhsili səviyyəsi üzrə də tələbə qəbulu aparılıb. Belə ki, yüksək texniki peşə təhsilinə 17 ixtisas üzrə tələbə qəbulu həyata keçirilib və 820 nəfər tələbə adını qazanıb.

Hazırda respublika üzrə 1466 tələbə yüksək texniki peşə təhsili səviyyəsində təhsil alır.

Yeni təhsil proqramları

Yüksək texniki peşə təhsili səviyyəsində “Moda dizaynı”, “Saç kəsimi və gözəllik xidmətlərinin təşkili”, texniki peşə təhsili səviyyəsində isə “İnformasiya texnologiyaları üzrə texniki dəstək mütəxəssisi”, “Plastik qapı-pəncərə ustası” ixtisasları üzrə yeni səriştə əsaslı təhsil proqramları hazırlanıb. “Avtomobil mexatronikası üzrə texnik” və “İnformasiya-kommunikasiya texnologiyaları üzrə texnik” proqramları isə texniki peşə təhsili səviyyəsi üzrə Almaniyanın dual peşə təhsili təcrübəsi əsasında formalaşdırılıb.

25 xarici dərsliyin tərcüməsinə başlanılıb

2022-ci ildə türk dilindən 20 dərsliyin və 5 digər xarici ölkənin dərslik komplektinin tərcüməsi ilə bağlı işlərə başlanılıb. Peşə təhsilinə aid 11 ixtisas üzrə 21 dərslik PDF formatından EPUB formatına çevrilərək elektron dərslik portalında *(www.e-derslik.edu.az)* yerləşdirilib.

Qısamüddətli təlimlərin iştirakçı sayı artıb

2022-ci ilin ilk yarımilliyi ərzində Peşə Təhsili üzrə Dövlət Agentliyinin dəstəyi ilə 27 ixtisas üzrə (37 qrup olmaqla) qısamüddətli təlim keçirilib. Qeyd olunan təlimlərdə 781 nəfər iştirak hüququ qazanıb. Onlardan 478 nəfəri kişi, 303 nəfəri isə qadındır.

İxtisas fənn müəllimlərinin və istehsalat təlimi ustalarının işə qəbulu

Peşə təhsili müəssisələrində kadr potensialının gücləndirilməsi məqsədilə 2022-2023-cü tədris ili üçün ümumtəhsil fənləri üzrə 32 nəfərin işə qəbulu həyata keçirilib. Bununla yanaşı, test üsulu ilə ixtisas fənn müəllimlərinin və istehsalat təlimi ustalarının işə qəbulu aparılıb. Sözügedən vakansiyalar üzrə işə qəbulla bağlı müvafiq olaraq 79 və 211 vakant yer elan olunub. Ümumilikdə 1325 nəfər müraciət edib və 765-i müsabiqəyə buraxılıb. Müsabiqə nəticəsində isə 89 istehsalat təlimi ustası və 25 ixtisas fənn müəllimi işə qəbul edilib.

Direktor və direktor müavinlərinin imtahanla işə qəbulu

Peşə təhsili müəssisələrinə direktor müavinlərinin və ilk dəfə olaraq direktorların mərkəzləşdirilmiş qaydada müsabiqə yolu ilə işə qəbulu da təşkil edilib. Ümumilikdə 2022-ci ildə 18 nəfərin direktor müavini, 19 nəfərin isə direktor vəzifəsi üçün təyinatı aparılıb.

Dual peşə təhsili proqramlarının əhatə dairəsi genişləndirilib

2022-2023-cü tədris ilində dual təhsil proqramı çərçivəsində “Usta yanında şagirdlik” ixtisası üzrə 15 peşə təhsili müəssisəsində 44 qrupda tədrisə başlanılıb. Proqramda hazırda 785 tələbə təhsil alır. Ümumilikdə 9 regionu əhatə edən proqrama 70-dən çox işəgötürən tərəfdaş dəstək verir. Sənaye, turizm, xidmət, kənd təsərrüfatı kimi müxtəlif sahələri əhatə edən proqramda 23 ixtisas mövcuddur.

“Texnofest Azərbaycan” aerokosmik və texnologiya festivalında qalibiyyət

“Texnofest Azərbaycan”ın “Robototexnika” müsabiqəsində Rabitə və İnformasiya Texnologiyaları üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzini təmsil edən “Baku Stark” komandası “A” kateqoriyası üzrə qalib seçilib. Komandanın yaratdığı “Smart Helmet” qurğusu vasitəsilə işçilərin sağlamlığı, təhlükəsizliyi və yeri haqqında məlumatlar həmin an veb-bazaya ötürülür, yəni işçi hər hansı bir xəsarət aldıqda xəbərdarlıq verilir və köməkçi briqada həmin əraziyə göndərilir.

“Bir peşənin sirri” festivalı keçirilib

Avropa İttifaqı, BMT-nin İnkişaf Proqramı və Peşə Təhsili üzrə Dövlət Agentliyinin birgə əməkdaşlığı ilə İçərişəhər, Qoşa Qala meydanında “Bir peşənin sirri” festivalı keçirilib. Festivalda qonaqlara Bakı və müxtəlif regionları təmsil edən 12 peşə təhsili müəssisəsinin turizm, sənaye, kənd təsərrüfatı, İKT və ictimai iaşə istiqamətlərində təhsil alan tələbələrinin əl işlərindən ibarət sərgilər, ustad dərsləri və müxtəlif fəaliyyətlər nümayiş etdirilib. Festivalda 5000-ə qədər şəhər sakini iştirak edib.

17000-dən çox şagirdə peşə təhsili haqqında məlumat verilib

Peşəyönümü fəaliyyətinin bir hissəsi olaraq keçirilən “açıq qapı” tədbirləri 7000-dən çox iştirakçı və 134-dən çox işəgötürəni əhatə edib. Genişmiqyaslı tədbirlərlə yanaşı, mütəmadi olaraq hər bir peşə təhsil müəssisəsi tərəfindən müəssisənin maddi-texniki bazası və tədris olunan ixtisasları ilə tanışlıq məqsədli infoturlar keçirilib. İnfoturlarda 10000-ə yaxın şagird və 174 işəgötürən iştirak edib.

www.Avando.az saytı istifadəyə verilib

İşəgötürənlərlə işaxtaranlar arasında körpü funksiyasını yerinə yetirəcək, həmçinin məzunlar üçün məlumat mənbəyi olan *www.avando.az* portalı istifadəyə verilib. İşəgötürən və işaxtaranlara rəqəmsal həllər təklif edən layihə Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin dəstəyi ilə hazırlanıb.

Ali təhsil və elm

48780 tələbə

2022-2023-cü tədris ilində 48780 nəfər tələbə adını qazanıb. Bu ötən tədris ili ilə müqayisədə 11,3 faiz çoxdur. Ötən tədris ilində bu rəqəm 43828 nəfər təşkil edib.

110 ölkədən 8900-ə yaxın əcnəbi tələbə

2022-2023-cü tədris ili üzrə ölkəmizin ali və orta ixtisas təhsili müəssisələrində 110 ölkədən 8900-ə yaxın əcnəbi və vətəndaşlığı olmayan şəxs təhsil alır. Bu da ötən ilə (7332 nəfər) nisbətdə 20%, 2015/2016-cı tədris ilinə (4326 nəfər) nisbətdə isə 103% artım deməkdir.

Tələbələr, əsasən, Türkiyə, İran, Gürcüstan, Pakistan, Rusiya, Nigeriya, Hindistan, Şri-Lanka, İraq, Suriya və digər ölkələri təmsil edirlər.

86 əcnəbi tələbə dövlət hesabına təhsil almaq hüququ əldə edib

Ölkə Prezidentinin sərəncamları ilə təsis edilmiş təhsil qrantı proqramları çərçivəsində İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatına üzv dövlətlərin 40 vətəndaşı (hər bir qrant proqramı üzrə 20 nəfər) müxtəlif yerli təhsil müəssisələrində təhsil almaq hüququ qazanıb.

Ümumilikdə 2018-2022-ci illər çərçivəsində İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşları üçün ayrılmış 200-ə yaxın təqaüd proqramı çərçivəsində yerli təhsil müəssisələrində əcnəbi tələbələr bakalavriat, baza ali tibb təhsili, magistratura, rezidentura, doktorantura səviyyələri üzrə təhsil almaq hüququ qazanıblar.

HTP çərçivəsində cari tədris ilində Çin Xalq Respublikası, Qazaxıstan, Tacikistan vətəndaşlarının qəbulu aparılıb. 4 fərqli ölkədən 46 əcnəbi tələbə bu çərçivədə yerli ali təhsil müəssisələrində təhsil almaq hüququ qazanıb.

HTP çərçivəsində 211 nəfər azərbaycanlı xaricdə təhsil almaq hüququ qazanıb

2022-2023-cü tədris ilində Hökumətlərarası Təqaüd Proqramı (HTP) çərçivəsində Macarıstanda 149, Çində 31, Rumıniyada 3, Rusiyada (MGIMO) 10, Latviyada 10, Türkiyədə (YTB xətti ilə doktorantura üzrə) 7, Qazaxıstanda 1, ümumilikdə isə 211 tələbə dünyanın 7 müxtəlif ölkəsinə aid 44 ali təhsil müəssisəsində təhsil almaq hüququ qazanıb.

84 nəfər xaricdə doktorantura təhsili almaq hüququ qazanıb

“2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində 2022-ci ildə keçirilən müsabiqələr nəticəsində 84 nəfər 7 prioritet ixtisas istiqaməti üzrə dünyanın 12 ölkəsinin 40 aparıcı ali təhsil müəssisəsində (beynəlxalq reytinq cədvəlləri üzrə: “Times Higher Education World University Rankings”, “Academic Ranking of World Universities”) təhsil almaq hüququ qazanıb.

Hazırda Dövlət Proqramı çərçivəsində 7 prioritet ixtisas istiqaməti üzrə dünyanın 22 ölkəsinə aid 82 nüfuzlu ali təhsil müəssisəsində 207 doktorant təhsil almaqdadır.

Dövlət Proqramı çərçivəsində 353 nəfər xaricdə təhsil almaq hüququ əldə edib

“Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı” çərçivəsində 2022-ci ildə keçirilən müsabiqələr nəticəsində 15 prioritet ixtisas istiqaməti üzrə dünyanın 18 ölkəsinə aid 111 ali təhsil müəssisəsində 353 nəfər (80 nəfər bakalavriat, 273 nəfəri isə magistratura) təhsil almaq hüququ qazanıb.

4265 nəfər tələbə krediti alıb

Təhsil tələbə kreditlərinin verilməsinə başlanıldığı 25 noyabr 2021-ci il tarixindən 30 noyabr 2022-ci il tarixinədək Fonda 17000-dən çox tələbə müraciəti daxil olub.

2022-2023-cü tədris ilinin payız semestri üzrə 7000-dən çox tələbə müraciət edib, onlardan 4265 nəfər tələbənin müraciəti rəsmiləşdirilib. Həmin müraciətlər üzrə 1641 nəfər sosial TTK, 2624 nəfər isə standart TTK-dan yararlanıblar. Hazırda 2022-2023-cü tədris ili üzrə müraciətlərin qəbulu davam edir.

SABAH tələbələri

2022-ci ildə 11 ali təhsil müəssisəsi və 31 ixtisas üzrə 830 tələbə məzun olub. 2022-2023-cü tədris ili üzrə 32 ixtisas üzrə 985 tələbə SABAH tələbəsi adını qazanıb.

Cari tədris ilində bu qruplarda ümumilikdə 2555 tələbə bakalavr, 782 tələbə isə magistr təhsili alır.

“Bir” tələbə-könüllü proqramı

2022-ci tədris ilində proqram 33 ali , 19 orta, 10 peşə təhsili müəssisəsini əhatə edib. 30000-dən çox könüllü üzvə sahib olan proqram il ərzində 372-dən çox tədbir təşkil edib və ümumilikdə 52974 könüllü fəaliyyət saatı qeydə alınıb. Tələbə-könüllülərin dəstəyi ilə baş tutmuş tədbirlərdə minimum tələbə-könüllü sayı 1, maksimum isə 713-ü əhatə edib.

Qeyri-formal və informal təhsilin tanınması

Qeyri-formal və informal təhsilin tanınması fəaliyyəti üzrə 963 təhsil sənədi təqdim olunub.

Cari il ərzində qeyri-formal və informal təhsilin tanınması prosesi üzrə ümumilikdə 900 sertifikat və 63 diplom təqdim olunub.

10 ixtisas üzrə tanınma həyata keçirilib

“Tikiş avadanlıqlarının operatoru” və “Tikişçi” ixtisasları üzrə 214 sertifikat, 15 diplom, “Bərbər” ixtisası üzrə 205 sertifikat, 11 diplom, “Avtomobillərin təmiri çilingəri” ixtisası üzrə 17 sertifikat, “Qənnadçı-şirniyyatçı” ixtisası üzrə 224 sertifikat,19 diplom, “Mobil telefonların təmiri ustası” ixtisası üzrə 126 sertifikat və 11 diplom, “Ərzaq və qeyri-ərzaq mallarının satıcısı, nəzarətçi-xəzinədar” ixtisası üzrə 20 sertifikat və 2 diplom, “Elektrik qaz qaynaqçısı” ixtisası üzrə 18 sertifikat, “Baytar” texniki ixtisası üzrə 23 sertifikat, “Turizm sahəsində iaşə üzrə mütəxəssis” ixtisası üzrə isə 8 sertifikat təqdim olunub.

Diplomların tanınması

Cari ilin dekabr ayının 1-nə kimi xarici kvalifikasiyaların tanınması ilə bağlı 3295 müraciət qəbul edilib. 2668 müraciət üzrə müsbət rəy verilib və müraciət sahiblərinə xarici ali təhsil ixtisasının tanınması haqqında şəhadətnamələr təqdim olunub. Digər 627 müraciət üzrə isə mənfi rəy verilib.

Heydər Əliyev irsinin öyrənilməsi və təbliği

2023-cü il Ümummilli Lider, müstəqil və müasir Azərbaycan dövlətinin memarı Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Bununla əlaqədar olaraq, dövlət başçımızın müvafiq Sərəncamı ilə Azərbaycanda 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi mühüm tarixi əhəmiyyət kəsb edir.

Ulu Öndər Azərbaycanın müstəqil dövlət kimi mövcudluğunun qorunması və hərtərəfli inkişafı naminə göstərdiyi misilsiz xidmətləri ilə hələ sağlığında xalqımızın qəlbində öz əbədi heykəlini ucaltmışdır. Güclü siyasi iradəsi, qətiyyəti və uzaqgörənliyi, yüksək intellekti, əzmkarlığı və fədakarlığı, zəngin idarəçilik təcrübəsi ilə Vətən qarşısında xilaskarlıq missiyasını uğurla yerinə yetirən Heydər Əliyev adını Azərbaycan tarixinə qızıl hərflərlə yazmışdır.

Məhz əbədiyaşar liderin müdrik daxili və xarici siyasəti sayəsində Azərbaycan müstəqilliyinin ilk illərində dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən qurtulmuşdur. Vətəninə və xalqına, milli dəyərlərə və ənənələrə sıx bağlı olan dahi şəxsiyyət dövlətçilik maraqlarına hər zaman xüsusi həssaslıqla yanaşmış və milli mənafeləri hər şeydən üstün tutmuşdur. Qarşılaşdığı ciddi həyati təhlükələrə və təhdidlərə baxmayaraq, Ulu Öndər ən ağır və çətin günlərdə daim xalqın yanında olmuş, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi yolunda böyük cəsarət və fədakarlıq nümayiş etdirmişdir.

Müstəqil və qüdrətli Azərbaycanın dinamik, davamlı və hərtərəfli inkişafı Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin alternativi olmayan məqsədyönlü siyasi kursu sayəsində ölkəmiz xaosdan sabitliyə, tənəzzüldən tərəqqiyə qədəm qoymuş, müstəqilliyimiz əbədi və dönməz xarakter alaraq güclənmişdir. Hazırda əldə edilən nəhəng uğurlar və möhtəşəm nailiyyətlər Heydər Əliyevin müəllifi olduğu hərtərəfli inkişaf strategiyasının təntənəsidir. Dövlətçiliyimizi möhkəm təməllər üzərində quran, ictimai həyatın bütün sferalarının, o cümlədən iqtisadiyyat, müdafiə, təhsil, səhiyyə, mədəniyyət və incəsənət sahələrinin inkişafında müstəsna xidmətlər göstərən Heydər Əliyev Azərbaycanın quruculuq salnaməsində silinməz izlər qoymuşdur.

Bu gün biz bu izləri Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və rəşadətli Azərbaycan Silahlı Qüvvələrinin əsgər və zabitlərinin qəhrəmanlığı sayəsində 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərdə aydın görürük. Eyni zamanda, bu izlər dahi şəxsiyyətin layiqli siyasi varisi Prezident İlham Əliyevin rəhbərliyi ilə bölgədə yeni geosiyasi reallıqlar yaradan Azərbaycanın yazmaqda davam etdiyi şanlı tarixinin bütün müasir səhifələrində də öz təsdiqini tapır. Əminik ki, Heydər Əliyevin zəngin və çoxşaxəli irsi bundan sonra da doğma Azərbaycanın yeni zirvələr fəth etməsi və əzəmətli qələbələr qazanması yoluna gur işıq saçacaq. Bu müqəddəs irsi qoruyub saxlamaq və gələcək nəsillərə ötürmək hər bir azərbaycanlının şərəfli vəzifələrindəndir.

Xalqımızın milli sərvəti hesab edilən Ulu Öndərin zəngin və çoxşaxəli irsinin öyrənilməsi və gənc nəsil arasında təbliği əsas missiyalarından biri Vətənə və dövlətə layiqli mütəxəssis kadrlar hazırlamaq olan Mingəçevir Dövlət Universitetində (MDU) də diqqət mərkəzində saxlanılır. Bu baxımdan, yenicə yekun vurduğumuz 2022-ci il MDU-da Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü, anım günü, Milli Qurtuluş Günü və dahi şəxsiyyətin adı ilə bağlı digər əlamətdar tarixi hadisələrin qeyd edilməsi ilə yadda qalmışdır.

Mingəçevir Dövlət Universitetində silsilə tədbirlər keçirilir

Heydər Əliyev dühası və müasir Azərbaycan

2022-ci ilin 4-5 may tarixlərində MDU-da Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunan “Heydər Əliyev dühası və müasir Azərbaycan” mövzusunda elmi-nəzəri konfrans keçirilmişdir. Konfransdan əvvəl MDU-nun əsas tədris korpusunda Heydər Əliyevin büstünün qarşısına gül dəstələri düzülmüş və görkəmli dövlət xadiminin əziz xatirəsi dərin ehtiramla yad edilmişdir. Konfransa respublikamızın 11 ali təhsil müəssisəsi, 6 elmi-tədqiqat institutu olmaqla, bütövlükdə 22 fərqli təşkilatdan Ulu Öndərin titanik fəaliyyətinin müxtəlif istiqamətlərinə dair 116 məqalə və tezis daxil olmuşdur. Konfrans çərçivəsində plenar və bölmə iclasları keçirilmişdir. Plenar iclasda MDU-nun rektoru Şahin Bayramov “Heydər Əliyev müasir Azərbaycanın memarı və qurucusudur”, Mingəçevir şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov “Heydər Əliyevin zəngin irsi Azərbaycan xalqı üçün əbədi örnəkdir”, Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının üzvü Adilə Abasova “Heydər Əliyev: xatirələrdə əbədi yaşayan tarixi şəxsiyyət”, Milli Məclisin deputatı Ceyhun Məmmədov “Heydər Əliyev: elm və təhsilimizin böyük himayədarı”, Milli Məclisin deputatı Elşad Mirbəşir oğlu “Azərbaycanın türk dünyasına qovuşmasında Ulu Öndərin misilsiz xidmətləri” və YAP Mingəçevir şəhər təşkilatının sədri Cavanşir Yusibov “Heydər Əliyev: qlobal siyasət nəhəngi” mövzularında məruzələrlə çıxış etmişdirlər.

15 iyun 1993-cü il: Azərbaycan xalqını parlaq gələcəyə aparan yolun başlanğıcı

2022-ci ilin iyunun 13-də MDU-da Milli Qurtuluş Gününə həsr olunan “15 iyun 1993-cü il: Azərbaycan xalqını parlaq gələcəyə aparan yolun başlanğıcı” mövzusunda elmi konfrans keçirilmişdir. Konfransın açılışında MDU-nun rektoru çıxış etmişdir. Açılış nitqində Azərbaycan xalqının taleyində dönüş anı - 15 iyun tarixinin ölkəmiz üçün böyük ictimai, siyasi və tarixi əhəmiyyət daşıdığı bildirilmiş və Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra həyata keçirdiyi xilaskarlıq missiyasından bəhs edilmişdir. Vurğulanmışdır ki, məhz dahi şəxsiyyətin titanik fəaliyyəti, uzaqgörən və qətiyyətli siyasəti sayəsində Azərbaycan məhv olmaq təhlükəsindən qurtulmuş və əbədi müstəqilliyinə qovuşmuşdur. Qeyd edilmişdir ki, müstəqil dövlətçiliyin əsaslarının yaradılması və möhkəmləndirilməsi, ictimai-siyasi sabitlik, milli birlik və həmrəyliyin təmin olunması, hərtərəfli, davamlı və dinamik inkişaf yoluna qədəm qoyulması və dövlətimizin dünya birliyində mövqeyinin güclənməsi əbədiyaşar lider Heydər Əliyevin adı ilə bağlıdır. Konfransın bölmə iclaslarında MDU əməkdaşları “Heydər Əliyev: adı Azərbaycanın müasir tarixinə qızıl hərflərlə yazılmış xilaskar lider”, “Heydər Əliyev milli iqtisadi dirçəliş konsepsiyasının müəllifidir”, “44 günlük Vətən müharibəsində qazanılmış möhtəşəm Zəfərin təməl tarixi”, “Təhsili ali kürsüyə qaldırmış dahi şəxsiyyət” və “Azərbaycan dilinin və ədəbiyyatının böyük hamisi: Heydər Əliyev” mövzularında məruzələrlə çıxış etmişlər.

Heydər Əliyev Azərbaycanın hərtərəfli inkişaf konsepsiyasının banisidir

2022-ci ilin dekabrın 12-də MDU və YAP Mingəçevir şəhər təşkilatının birgə təşkilatçılığı ilə Ümummilli Liderin anım gününə həsr olunan “Heydər Əliyev Azərbaycanın hərtərəfli inkişaf konsepsiyasının banisidir” mövzusunda elmi-praktik konfrans keçirilmişdir. Konfransda şəhər partiya təşkilatının nümayəndələri, universitetin akademik və inzibati heyət üzvləri, tələbə və magistrantlar iştirak etmişlər. Konfransın açılışında MDU-nun rektoru Şahin Bayramov və YAP Mingəçevir şəhər təşkilatının sədr müavini Bəxtiyar Mustafayev çıxış etmişlər. Çıxışlarda Ulu Öndərin respublikamıza rəhbərlik etdiyi bütün illər Azərbaycan tarixində qızıl dövr kimi xarakterizə olunmuş və müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin qədirbilən xalqımız tərəfindən hər zaman dərin ehtiram və sonsuz minnətdarlıq hissi ilə yad edildiyi bildirilmişdir. Konfransda “Böyük lider Heydər Əliyevin həyat yolu” adlı videoçarx nümayiş etdirilmiş və MDU əməkdaşlarının “Heydər Əliyev - şanlı keçmişimizi işıqlı gələcəyə daşıyan lider”, “Heydər Əliyev Azərbaycan təhsilinin ən böyük himayədarı kimi”, “Heydər Əliyev zəkasının işığında aydınlanan elmimiz”, “Heydər Əliyev: Azərbaycanın davamlı iqtisadi inkişafının memarı”, “Heydər Əliyev və İKT sahəsinin inkişafı”, “Heydər Əliyev siyasətində Azərbaycan turizminin inkişafının yeri” və “Heydər Əliyev və Azərbaycanda ekologiya siyasəti” mövzularında məruzələri dinlənilmişdir.

İdeoloji maarifləndirmə tədbirləri

2022-ci il fevralın 28-də “Ulu Öndər Heydər Əliyevin iqtisadi inkişaf strategiyası” mövzusunda MDU-da keçirilən elmi seminarda universitetin akademik və inzibati heyət üzvləri, tələbələr və magistrantlar iştirak etmişdir. Seminarda MDU-nun əməkdaşları “Heydər Əliyevin regional inkişaf strategiyası”, “Heydər Əliyev və Azərbaycanda xarici iqtisadi siyasətin inkişaf strategiyasının formalaşması”, “Rəqabət qabiliyyətli aqrar iqtisadiyyatın formalaşması - Heydər Əliyev iqtisadi siyasətinin təcəssümü kimi” və “Heydər Əliyevin neft strategiyası” adlı məruzələrlə çıxış etmişlər. Məruzələrdə Heydər Əliyevin milli maraqlarımıza uyğun işləyib hazırladığı hərtərəfli və dayanıqlı sosial-iqtisadi inkişaf strategiyasından və onun uğurla reallaşdırılmasında göstərdiyi misilsiz və müstəsna xidmətlərdən, regionda sülhün, təhlükəsizliyin və tərəqqinin möhkəmlənməsinə, ölkəmizin siyasi və iqtisadi müstəqilliyinin gücləndirilməsinə hədəflənən məqsədyönlü, uzaqgörən və qətiyyətli siyasətindən bəhs edilmişdir. Eyni zamanda dahi şəxsiyyətin müəllifi olduğu neft strategiyasının ictimai həyatın bütün sahələrinin tərəqqisinə və sosial rifahın yüksəlməsinə verdiyi töhfələrdən danışılmışdır. Qeyd edilmişdir ki, hazırda Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi siyasi-iqtisadi kursu müasir dövrün tələblərinə uyğun uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz dünyada mövqelərini daha da möhkəmləndirmiş və regionda lider dövlətə çevrilmişdir.

2022-ci ilin 17 fevral və 22 aprel tarixlərində - MDU Tələbə Gənclər Təşkilatının və Tələbə Vətənpərvərlik İnkişafı Mərkəzinin birgə təşkilatçılığı ilə universitetin bir qrup tələbə və magistrantı Mingəçevir şəhər Heydər Əliyev Mərkəzinə ekskursiya etmişdirlər. Ekskursiyada gənclərə Ümummilli Lider Heydər Əliyevin keçdiyi həyat yolu, ölkəmizin müstəqilliyinin qorunması, gücləndirilməsi və tərəqqisi naminə misilsiz xidmətləri haqqında məlumatlar verilmiş və Mərkəzin fəaliyyət istiqamətləri diqqətə çatdırılmışdır. Eləcə də tələbə və magistrantlar Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən eksponat, fotoşəkil və kitablarla tanış olmuşlar.

Ulu Öndərə həsr edilən müsabiqə və yarışlarda fəal iştirak

Ötən ilin aprel-may aylarında Elm və Təhsil Nazirliyi və Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin (ATİAHİ) təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş müsabiqə-festivalına MDU tələbələri də fəal qatılmışdır. Festival gəncləri milli vətənpərvərlik, mədəniyyətimizə, incəsənətimizə, milli adət-ənənələrimizə hörmət ruhunda hazırlamaq məqsədilə keçirilmişdir. Respublika üzrə 28 ali məktəb və 3000-dən artıq tələbənin iştirak etdiyi festivalda gənclər bədii qiraət, musiqi və rəqs bacarıqlarını nümayiş etdirmişlər. Müsabiqə-festivalda “Müasir rəqs” nominasiyası üzrə II yer tutan MDU Elm və Təhsil Nazirliyinin və ATİAHİ Respublika Komitəsinin Fəxri Fərmanına layiq görülmüşdür. Bununla yanaşı, universitetdə tələbələr arasında inşa, şeir və rəsm müsabiqəsi təşkil edilmişdir.

2022-ci il mayın 6-da MDU və Mingəçevir şəhər Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş voleybol üzrə təhsil müəssisələri arasında şəhər turniri keçirilmişdir. Yarışda MDU-nu təmsil edən iki voleybol komandası şəhər turnirini qalibiyyətlə başa vuraraq müvafiq olaraq birinci və üçüncü yerləri bölüşdürmüşdür.

Keçən il noyabrın 12-də “Heydər Əliyev və Azərbaycan tarixi” VIII ümumrespublika bilik yarışında da MDU fəal təmsil olunmuşdur. Heydər Əliyev Mərkəzinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin dəstəyi ilə ölkənin 49 ali təhsil müəssisəsi arasında keçirilən bilik yarışında MDU komandası 13-cü yerdə qərarlaşmışdır. Qeyd edək ki, Azərbaycan tarixinin və Ümummilli Lider Heydər Əliyevin həyatının, çoxşaxəli fəaliyyətinin öyrənilməsi, gənclər arasında təbliği məqsədi daşıyan bu layihə ənənəvi olaraq hər il keçirilir.

Tələbələr və şagirdlər üçün mühazirələr və kitab sərgisi

2022-ci il mayın 6-da MDU-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş “Heydər Əliyev: dahi şəxsiyyət və tarix yaradan şəxsiyyət” mövzusunda mühazirə keçirilmişdir. Universitetin akademik və inzibati heyət üzvləri, tələbə və magistrantlarının iştirakı ilə təşkil edilmiş mühazirədə Heydər Əliyevin titanik və çoxşaxəli fəaliyyətindən, milli maraqlara əsaslanaraq tarixi proseslərə təsir edən müdrik siyasətindən bəhs edilmişdir.

2022-ci il 5-10 may tarixlərində MDU və Mingəçevir Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə universitetin bir qrup müəllimi tərəfindən şəhərin yeddi məktəbində şagirdlər üçün Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunan mühazirələr oxunmuşdur. Mühazirələrdə Ümummilli Liderin təhsilə, uşaqların və gənclərin hərtərəfli inkişafına göstərdiyi diqqət və qayğıdan danışılmış, əbədiyaşar liderin gənclərlə bağlı tövsiyələri xatırlanmışdır.

2022-ci il iyunun 14-də MDU-da Milli Qurtuluş Gününə həsr edilən “Azərbaycanın dövlət müstəqilliyini əbədi və dönməz edən xilaskar lider” mövzusunda mühazirədə isə bu əlamətdar tarixi günün ictimai-siyasi əhəmiyyətindən bəhs edilmiş və gənclərə Heydər Əliyevin xilaskarlıq missiyası barədə ətraflı məlumat verilmişdir.

Ötən ilin may ayında MDU Kitabxanasının təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunan kitab sərgisi keçirilmişdir. Sərgidə gənclər əbədiyaşar liderin zəngin həyatını və çoxşaxəli fəaliyyətini əks etdirən kitablarla tanış olmuşlar.

“Heydər Əliyev İli” çərçivəsində fəaliyyətlərin davamı

2022-ci ilin dekabrın 1-də MDU Elmi Şurası tərəfindən “Mingəçevir Dövlət Universitetində “Heydər Əliyev İli” çərçivəsində keçiriləcək tədbirlər haqqında” təkliflər qəbul edilmişdir.

Əminik ki, “Heydər Əliyev İli” çərçivəsində Ümummilli Liderin şərəfli ömür yoluna və titanik dövlətçilik fəaliyyətinə həsr edilən çoxsaylı və müxtəlif formatlı fəaliyyətləri özündə ehtiva edən tədbirlər planının reallaşdırılması gənclərin hərtərəfli inkişafı və vətənpərvərlik ruhunda yetişdirilməsi işlərinə misilsiz töhfələr verəcəkdir.

Şahin BAYRAMOV,
Mingəçevir Dövlət Universitetinin rektoru

“İbtidai sinif şagirdlərinin ideya inamının formalaşmasında Heydər Əliyev irsindən istifadə”

Monoqrafiya ümumtəhsil məktəblərində Ulu Öndər Heydər Əliyevin irsi nümunəsində tərbiyə işinin təşkili, bu zəngin mənbədən tədris prosesində istifadənin elmi-pedaqoji əsasları müasir təlim texnologiyası kontekstində araşdırılmasına həsr olunub

Qloballaşan çağdaş dövrdə böyüyən nəslin müasir çağırışlara cavab verməsi üçün mənəvi yetkinliyi, ideya-siyasi və milli tərbiyəsi işinin təkmilləşdirilməsi ümumtəhsil məktəblərinin qarşısında duran çox mühüm hədəflərdən biridir. Gəncliyin yüksək ideallar ruhunda tərbiyə edilməsi, milli-mənəvi dəyərlər əsasında formalaşdırılması müstəqil ölkəmizin gələcəyinin və bəşəri təminatının başlıca amalıdır. Gələcək vətəndaşın ictimai-siyasi proseslərdə iştirakı bugünkü məktəblinin milli-mənəvi tərbiyəsindən asılıdır. Bu mənada Ümummilli Lider, milli təhsilin böyük qurucusu Heydər Əliyevin parlaq şəxsiyyətinin nümunəsi və nurlu ideyalarının, zəngin irsinin təsir gücü çox mühüm mətləblərdən biridir.

Heydər Əliyevin istər şəxsiyyəti, istərsə də fenomenal dövlətçilik fəaliyyəti qüdrətli tərbiyəedici, təhsilləndirici və inkişafetdirici təsirə malikdir. Odur ki, təlim və tərbiyə işlərinin təşkilində Ulu Öndərin özünün yüksək mənəvi keyfiyyətlərinə, dərin zəkasına, güclü məntiqinə, uzaqgörənliyinə, idarəetmə qabiliyyətinə aid xüsusiyyətləri diqqət mərkəzində olmalıdır. Bu istiqamətdə təhsilin bütün pillələrində təhsilalanlar arasında məqsədyönlü, planlı və fasiləsiz iş aparılmalıdır və aparılır. Çünki Heydər Əliyevin irsi xalqımızın milli sərvətidir və bu tükənməz xəzinədən hamıya, o cümlədən böyüməkdə olan uşaq və gənclərə pay düşür. Bu tarixi reallıqdır ki, hər bir insan istər bu gün, istərsə də gələcəkdə bu xəzinədən bəhrələnəcək, xüsusən Azərbaycan gəncliyi Ulu Öndərin zəkasının nurundan, zəngin və çoxcəhətli irsindən faydalanacaq, təhsil işçiləri və alimlər bu dəyərli mənbədən hər zaman bəhrələnəcək, bu əvəzsiz xəzinənin sirlərini araşdırmağa dönədönə müraciət edəcəklər.

Bu baxımdan, Naxçıvan Müəllimlər İnstitutunun dosenti Lalə Allahverdiyevanın bu yaxınlarda çapdan çıxmış “İbtidai sinif şagirdlərinin ideya inamının formalaşmasında Heydər Əliyev irsindən istifadə” adlı monoqrafiyasında ümumtəhsil məktəblərində Ulu Öndər Heydər Əliyevin irsi nümunəsində tərbiyə işinin təşkili, bu zəngin mənbədən tədris prosesində istifadənin elmi-pedaqoji əsasları müasir təlim texnologiyası kontekstində araşdırılmasına həsr olunub.

Azərbaycan müstəqilliyini əldə etdikdən sonra təhsil sistemimizin təkmilləşdirilməsi, yeniləşdirilməsi, müasirləşdirilməsi istiqamətində səmərəli tədbirlər həyata keçirilməyə başladı. Müstəqil dövlətin müstəqil təhsil sistemi olmalıdır. Bu müddəa əsas götürülərək milli təhsilin formalaşdırılması istiqamətində məqsədyönlü işlər görülməyə başlandı. Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə bütün sahələrdə, o cümlədən təhsil sahəsində islahatlar həyata keçirildi. Nəticədə, Ulu Öndər ölkəmizdə milli təhsil quruculuğunun memarı və banisi kimi təhsil tariximizə öz imzasını qoydu.

Ulu Öndər ölkə vətəndaşlarına, xüsusən gənclərə öz tarixi keçmişini, Azərbaycan tarixini və coğrafiyasını, milli adət və ənənələrini, mədəniyyətini, ana dilini dərindən bilməyi tövsiyə edirdi. Ulu Öndər tariximizi dərindən bilməyin vacibliyini vurğulayarkən diqqəti aşağıdakı məsələlərə yönəldirdi: “Əgər bunu bilmirsə, o, həqiqi vətənpərvər ola bilməz. Əgər bunu bilməsə, o, millətini qiymətləndirə bilməz. Əgər onu bilməsə, o, millətinə olan mənsubiyyəti ilə istənilən səviyyədə fəxr edə bilməz”. Heydər Əliyev uşaqların milli-mənəvi və bəşəri dəyərlər, milli adət-ənənələrimiz ruhunda tərbiyə olunmasında valideynlərin və məktəbin üzərinə düşən vəzifələrə də aydınlıq gətirmişdir.

Monoqrafiyada ilk dəfə olaraq:

* ibtidai sinif şagirdlərinin ideya inamının formalaşdırılmasında Heydər Əliyev irsindən istifadə etməklə mənəvi tərbiyə işinin nəzəri-pedaqoji əsasları işlənib hazırlanmış;
* ideya inamının aşılanmasında nümunə kimi Ümummilli Liderin irsindən istifadə texnologiyaları dəqiqləşdirilmiş;
* kiçikyaşlı məktəblilərin Ulu Öndərin həyat və fəaliyyəti nümunəsində vətəndaşlıq tərbiyəsi üzrə işin məzmunu işlənmiş, dahi şəxsiyyətin irsinin onların intellektual inkişafına, dünyagörüşünün formalaşmasına təsirinin səmərəlilik səviyyəsi müəyyənləşdirilmiş;
* nəhayət, kiçikyaşlı məktəblilərin ideya inamının formalaşdırılmasında Ümummilli Liderin zəngin irsindən istifadə imkanlarının kompleks elmi-pedaqoji şərtləri üzə çıxarılmışdır.

Monoqrafiyanın “Heydər Əliyev irsindən istifadə etməklə ibtidai sinif şagirdlərinin ideya inamının formalaşdırılması üzrə işin mahiyyəti, pedaqoji-psixoloji əsasları” adlanan birinci fəslində dahi şəxsiyyətin şərəfli ömür yolu, parlaq ideyaları tədqiq edilmiş, onun milli azərbaycançılıq ideologiyasının formalaşdırılması istiqamətində gördüyü işləri, onun tətbiqi sahələri, vasitələri və imkanları ortaya çıxarılmış, bu sahədə Ulu Öndərin milli tərbiyə konsepsiyasının əsas prinsipləri açıqlanmışdır.

Yetişməkdə olan gənc nəslin mənəvi tərbiyəsi məsələsini Heydər Əliyev təhsil işçiləri qarşısında mühüm istiqamətlərdən biri kimi müəyyənləşdirirdi. “Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz”- deyən Ulu Öndərin bu istiqamətdə gördüyü tarixi işlər, onun məzmunu, məqsəd və vəzifələri monoqrafiyada yüksək alim səriştəsi ilə müəyyənləşdirilib.

Kitabın I fəslinin “Məktəblilərin Heydər Əliyev nümunəsində ideya inamı tərbiyəsinin məzmunu” adlanan ikinci yarımfəslində elmi-pedaqoji ədəbiyyatlarda yer alan “ideya”, “ideya-siyasi tərbiyə”, “inam” kimi anlayışların mahiyyəti ilə bağlı fikirlər təhlilə cəlb edilmiş, şagirdlərin ideya inamı tərbiyəsinin müxtəlif forma və üsulları, bu istiqamətdə aparılacaq işin sistemi peşəkarlıqla müəyyənləşdirilmişdir. Şagirdlərdə ideya inamının formalaşdırılması, möhkəm əqidəli nəslin yetişdirilməsi məktəb tərbiyəsi işində başlıca yer tutur. Bu işdə Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyət nümunəsi əvəzedilməzdir. Bunu Heydər Əliyevin bu sözləri də təsdiqləyir: “Həyatın mənası çox, yaxud az yaşamaqdan ibarət deyil, onun mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır”. Onun həyat amalı bu sözlərdə çox yaxşı ifadə edilmişdir.

Kitabın “Ümumtəhsil məktəblərində Heydər Əliyev nümunəsində ideya inamı tərbiyəsinin mövcud vəziyyəti və əsas istiqamətləri” adlanan I fəslin üçüncü yarımfəslində ümumtəhsil məktəblərində şagirdlərin Ulu rəhbərin nurlu ideyaları ruhunda tərbiyə edilməsi üçün mövcud olan imkanlar araşdırılmışdır. Elmi təhlil göstərir ki, Heydər Əliyev ideyalarının, işinin əzəmətini, böyüklüyünü başa düşməyin bünövrəsi isə ibtidai siniflərdə qoyulur.

Monoqrafiyada qeyd edilən fikirlərdən də aydın olur ki, ibtidai siniflər üzrə proqram və dərsliklərdə Ulu Öndərin fəaliyyəti və irsinə aid öyrədilən nümunələrin həm məzmun, həm də say və həcm etibarı ilə artırılmasına bu gün daha çox ehtiyac vardır. Milli özünüdərk, müstəqillik yolunun davamlılığı və əbədiliyinin təmin olunması üçün elə azərbaycançılıq məfkurəsi, ideya əqidəli nəsillər yetişdirmək lazımdır ki, onlar nəsillərin qanı və canı bahasına qazanılmış bu müstəqilliyi qoruya və möhkəmləndirə bilsinlər. Bu müqəddəs vəzifənin yerinə yetirilməsi üçün Ümummilli Liderin ideyalarını, həyat və fəaliyyətini dərindən öyrənmək və ona sadiq qalmaq qənaətinə gəlinmişdir.

Monoqrafiyanın “İbtidai siniflərdə Heydər Əliyev irsindən istifadə etməklə şagirdlərin ideya inamı tərbiyəsinin formalaşdırılması imkanları və yolları” adlanan ikinci fəslində ibtidai siniflər üçün “Azərbaycan dili”, “Həyat bilgisi” dərsləri təhlil olunmuş, Ulu Öndərə həsr edilmiş mövzular və digər əlaqələndirici xarakterli mövzuların Heydər Əliyev nümunəsi ilə ideya inamı tərbiyəsinin formalaşdırılması imkanları araşdırılmışdır. Bu və digər əlaqələndirici mövzuların vasitəsi ilə Azərbaycan dili fənni üzrə standartların mənimsənilməsinə diqqət yetirən müəllifin yeni təlim metodlarından istifadə etməklə Heydər Əliyev ideyaları ruhunda ideya inamı tərbiyəsinin formalaşdırılması üçün geniş imkanlara malik olduğu qənaətinə gəlinmişdir.

Monoqrafiyanın II fəslinin “Heydər Əliyev nümunəsi ilə sinifdənxaric və məktəbdənkənar tədbirlər zamanı şagirdlərdə ideya inamının formalaşdırılması” adlı paraqrafında isə belə bir qənaətə gəlinmişdir ki, müəllim ilk gündən təlim prosesinin verdiyi imkanlardan əlavə digər vasitə və yollarla da şagirdlərdə doğma yurda, Vətənə, onun qəhrəmanlarına, mütəfəkkirlərinə məhəbbət hissi aşılamaq, mənəviyyatını və ideya inamını, davranışını, mədəniyyətini formalaşdırmaq məqsədilə mənalı və zəngin iş formalarına müraciət etməli, onlardan məharətlə istifadəni bacarmalıdır. Monoqrafiyada kiçikyaşlı məktəblilərin Heydər Əliyevin fəaliyyəti nümunəsində ideya inamının formalaşdırılması üçün ibtidai siniflərdə sinifdənxaric iş formaları müəyyənləşdirilmiş və geniş təhlil edilmişdir. Müşahidə və təhlillərdən bu qənaətə gəlinmişdir ki, kiçikyaşlı məktəblilərin Heydər Əliyevin həyat və fəaliyyəti nümunəsində ideya inamının formalaşdırılması üçün ibtidai siniflərdə sinifdənxaric iş formaları müəyyənləşdirilmiş və geniş təhlil edilmişdir. Müşahidə və təhlillərdən bu qənaətə gəlinmişdir ki, kiçikyaşlı məktəblilərin Heydər Əliyevin həyat və fəaliyyəti nümunəsində ideya inamının formalaşdırılması üçün ibtidai siniflərdə sinifdənxaric iş formaları kimi aşağıda adları göstərilən tədbirlər yüksək səmərə verə bilər:

- “Bilik Günü” münasibətilə Heydər Əliyev haqqında bədii əsərlər və kitablar üzrə ədəbi-bədii kompozisiyaların hazırlanması;
- ölkənin ictimai-siyasi və mədəni həyatını əks etdirən tarixi günlər və bayramların keçirilməsi;
- Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən söhbətlərin aparılması;
- Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı tarixi günlər münasibətilə viktorinaların keçirilməsi;
- muzeylərlə tanışlıq (Heydər Əliyev muzeyi və məktəb muzeyləri);
- ekskursiya və yürüşlərin təşkil olunması (Heydər Əliyevin yaşadığı, işlədiyi yerlərə, abidə, büst və heykəllərə baxışlar);
- stendlər, sərgilər hazırlanması;
- Heydər Əliyev haqqında yazılmış ən yaxşı bədii əsərlərin ifadəli oxusu üzrə müsabiqələr və s.

Monoqrafiyanın bu fəslində həmçinin “Naxçıvan Muxtar Respublikası Heydər Əliyev muzeyi və ümumtəhsil məktəbləri muzeylərinin şagirdlərin ideya inamı tərbiyəsində rolu” da tədqiq edilmişdir. Bu yarımfəsildə kiçik məktəbyaşlı şagirdlərin ideya tərbiyəsi işində yüksək səmərə verə biləcək tədbir kimi muzey işi elmi tədqiqata cəlb edilmişdir. Hazırda dünya pedaqoji fikrində yetişən nəslin muzeylər vasitəsilə tərbiyəsi ilə bağlı zəngin təcrübə toplanmış, hətta “Muzey pedaqogikası” adlı ayrıca elm-fənn sahəsi formalaşmışdır. Muzey pedaqogikası tərbiyə prosesinə müstəsna dərəcədə kömək göstərir. O, məktəblilərin yaradıcı şəxsiyyət kimi işləyib yaşamasına, mədəniyyət, elm, siyasi-mənəvi ideallara bağlı olmasına şərait yaradır, təkcə öz həyatı ilə yox, digər böyük mütəfəkkirlərin həyat amalları ilə yaşamasına kömək edir.

Bu gün müasir müəllimlərin qarşısında şagirdlərin təlim - tərbiyəsi sahəsində son dərəcə mühüm vəzifələr durur. Müasir müəllim dövrün xüsusiyyətlərini, buna uyğun olaraq kurikulumun tələblərinin əsaslarını dərindən bilməli və öz işində yaradıcılıqla tətbiq etməklə yetirmələrinin dünyagörüşü və baxışlarına lazımi təsir göstərə bilməyi bacarmalıdır. Hazırkı mərhələdə şagirdlər arasında Ulu Öndər Heydər Əliyev ideyalarının anlaşıqlı və ardıcıl təbliği, ideya inamı keyfiyyətlərinin daha yaxşı formalaşdırılması istiqamətində pedaqoji kollektivlər tərəfindən ardıcıl və sistemli iş aparılmalıdır.

Prezident İlham Əliyev 2022-ci il noyabrın 28-də “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında” Sərəncam imzalayıb. Düşünürük ki, ümumtəhsil məktəblərində “Heydər Əliyev dərsləri”nin keçirilməsində və Ümummilli Liderin ölməz irsinin ümumtəhsil məktəblərində aşılanması işində Lalə Allahverdiyevanın uzunmüddətli səmərəli elmi axtarışlarının nəticəsi olan “İbtidai sinif şagirdlərinin ideya inamının formalaşmasında Heydər Əliyev irsindən istifadə” adlı monoqrafiyası Heydər Əliyevşünaslığa dəyərli töhfədir.

Hümeyir ƏHMƏDOV,
pedaqogika üzrə elmlər doktoru, professor, Təhsilin İnformatlaşdırılması Akademiyasının həqiqi üzvü, Rusiya Təhsil Akademiyasının xarici üzvü, RTA-nın əməkdar elm və təhsil xadimi

Müəllimlər “Biliyini paylaş” layihəsində...

Paytaxtın öz uğurları ilə sayılıb-seçilən ümumi təhsil müəssisələrindən biri olan Məmməd Rahim adına 7 nömrəli tam orta məktəbdə “Biliyini paylaş” layihəsi çərçivəsində riyaziyyat müəllimi Şəhla Yolçuyevanın təşkilatçılığı ilə interaktiv “Açıq dərs” keçirilib.



Şəhla Yolçuyeva tədris etdiyi fənnini “Misir piramidaları ”mövzusu üzrə texnologiya, tarix, coğrafiya, informatika, biologiya fənlərinə inteqrasiya edərək əldə olunan məlumatları şagirdlərin və dərsdə iştirak edən qonaqların diqqətinə çatdırıb. Dərsin interaktiv tədrisi, fənlər üzrə bir-biri ilə əsaslandırılmış şəkildə verilən məlumatlar şagirdlərin və “Açıq dərs”də iştirak edən qonaqların böyük marağına səbəb olub.

Dərs prosesində məktəbin tarix müəllimi Yeganə Misirzadə də “Misir piramidaları” haqqında məlumat verərək onun tədris etdiyi tarix fənninə inteqrasiyasını təmin etməklə bir sıra tarixi faktları söyləyib.

Dərsin əsas maraqlı məqamlarından biri isə 3D VR eynəklərdən istifadə olunaraq fəza fiqurlarının xüsusiyyətlərinin daha dərindən mənimsənilməsi üçün virtual olaraq Misir piramidalarına səyahətin edilməsi olub. Belə ki, şagirdlər piramidaların tikilişində hansı fiqurlardan istifadə olunduğunu daha yaxından görmək imkanı əldə ediblər. Bundan başqa, məktəblilər və eyni zamanda dərsdə iştirak edən qonaqlar onlara təqdim olunmuş QR-kodu scan edərək fəza fiqurları mövzusunda oyun əsaslı öyrənmə modelinin iştirakçısı olublar ki, bu da günümüzdə təhsildə tez-tez istifadə olunan maraqlı yanaşmalardan biri hesab edilir.

Dərs zamanı diqqətçəkən digər növbəti işlərdən biri şagirdlərlə yanaşı, qonaqların da plastilin və çöplərdən istifadə edərək müxtəlif fəza fiqurlarını hazırlayaraq əyani vəsait kimi təqdim etmələri olub.

Sonra “Biliyini paylaş” layihəsi çərçivəsində keçirilən “Açıq dərs” lə bağlı geniş müzakirə və fikir mübadiləsi aparılıb. 7 nömrəli tam orta məktəbin direktoru Könül Təhməzova, layihə üzrə komanda üzvləri olan direktor müavinləri və müəllimlər, Bakıdakı 144 nömrəli tam orta məktəbin direktoru İlahə Həmidova, adıçəkilən layihə üzrə komandanın üzvü Nərgiz Hacızadə, komandanın mentoru Lütviyyə Yolçuyeva çıxış edərək dərslə bağlı fikirlərini söyləyiblər. Riyaziyyat müəllimi Şəhla Yolçuyevanın təşkilatçılığı ilə təşkil edilən “Açıq dərs”də əks-əlaqənin yaradılması, interaktiv və əsaslandırılmış tədrisə yönəlmiş layihə , həmçinin oyun əsaslı öyrənmənin dərs prosesində uğurla tətbiqi diqqətə çatdırılıb.

Çıxışlarda həmçinin bu cür əməkdaşlığın davamlılığını təmin etmək, biliklərin paylaşılması məqsədi ilə yaxın günlərdə reallaşdırılacaq digər işlərdən də söz açılıb.

Qeyd edək ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən paytaxt müəllimləri üçün həyata keçirilən “Biliyini paylaş” layihəsinin əsas məqsədi ümumi təhsil müəssisələrində interaktiv və əsaslandırılmış tədrisə yönəlmiş layihə əsaslı öyrənmənin dərs prosesində tətbiqi ilə bağlı aktual məsələyə diqqətin artırılması, bu istiqamətdə yaradıcı və yenilikçi müəllimlərin qabaqcıl təcrübələrinin öyrənilməsidir.

Samirə KƏRİMOVA

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

Gəncə Dövlət Universiteti

aşağıdakı vəzifəni tutmaq üçün müsabiqə

ELAN EDİR:

Kafedra üzrə boş olan vəzifə:

Sosial fənlər - kafedra müdiri

Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 05.02.2018-ci il tarixli F-100 saylı əmri ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması” və 07.08.1996-cı il tarixli 401 saylı əmri ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında” Əsasnaməyə uyğun olaraq elan olunduğu gündən 1 ay müddətində qəbul edilir.

Ünvan: AZ 2000, Gəncə şəhəri, Heydər Əliyev prospekti, 429. Gəncə Dövlət Universiteti, əsas tədris binası

Telefon:
(022) 266-73-10; (022) 266-01-89

REKTORLUQ

“AZƏRBAYCAN MÜƏLLİMİ”

Qəzet 1934-cü ildən çıxır

Baş redaktor
Sarvan İbrahimov 538-21-55

Mühasibatlıq 539-67-74

Reklam və elanlar 539-20-77 (tel./faks)

Ünvan: AZ-1100, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti 23 L, 5-ci mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

Bank hesabımız
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

Lisenziya № 022327, **İndeks:** 0003, **Tiraj** 548 **Sifariş** 22

Məsul növbətçi: S.Kərimova

Etibarsız sayılır

Lənkəran şəhər 6 nömrəli tam orta məktəb-liseyi 2022-ci ildə bitirmiş Əliyev Hüseyn Zaur oğluna verilmiş E-480793 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Yeni Dızaxlı kənd tam orta məktəbin IX sinfini 1997-ci ildə bitirmiş Aslanov Yaşar Cəfər oğluna verilmiş B-109476 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən 2006-cı ildə Mirzəyev Elvin Tofiq oğluna verilmiş B-079402 nömrəli bakalavr fərqlənmə diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

Xırdalan şəhər 2 nömrəli tam orta məktəbin IX sinfini 2020-ci ildə bitirmiş Misirov Namaz Şakir oğluna verilmiş C-370892 nömrəli ümumi təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

59 nömrəli Bakı Texniki Peşə Məktəbi tərəfindən 1984-cü ildə Makayeva (Zəkiyeva) Svetlana Zahidovnaya verilmiş Д-459553 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Laçın rayon Qarıqışlaq kənd tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Quluyeva (Bəşirova) Məltəm Məhəmmədəli qızına verilmiş A-268852 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Neftçala rayon Həsənabad qəsəbə tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Gözəlova Südabə Soltan qızına verilmiş A-775030 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Goranboy rayon Muzdurlar kənd tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Məmmədova Gülxanım Müslüm qızına verilmiş 000847 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Şahbuz şəhər 2 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Quliyev Niyazi Nofəl oğluna verilmiş A-304618 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bərdə rayon Yeni Daşkənd kənd tam orta məktəbi 2016-cı ildə bitirmiş Səfərova Nigar Heydər qızına verilmiş A-543535 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Naxçıvan şəhər 15 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Maxsudov Tural Cavid oğluna verilmiş A-476715 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Masallı rayon Xıl kənd tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Qədirova (Əmirova) Elnarə Ədalət qızına verilmiş A-910574 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bərdə rayon Muğanlı kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Əlizadə Xaliqə Məmməd qızına verilmiş B-456227 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Tibb Universiteti tərəfindən 2004-cü ildə Abbasova Gülbəniz Rəfayıl qızına verilmiş AB-I-085604 nömrəli diplom və 2005-ci ildə verilmiş 0105 nömrəli internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Tibb Universiteti tərəfindən 2004-cü ildə Mehdizadə Səbuhi Salman oğluna verilmiş AB-I-084537 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Şərur rayon Şahtaxtı kənd tam orta məktəbi 2002-ci ildə bitirmiş Babayeva (Hüseynova) Gülnarə Hüseyn qızına verilmiş A-604085 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Şərur rayon Şahtaxtı kənd tam orta məktəbi 1997-ci ildə bitirmiş Quliyeva (Musayeva) Məxfurə Fərman qızına verilmiş A-210571 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Şəmkir rayon Çənlibel kənd tam orta məktəbi 2015-ci ildə bitirmiş Quluyev Xəyyam Fuad oğluna verilmiş A-486306 nömrəli eksternat yolu ilə verilmiş tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Şəmkir rayon Əliyaqublu kənd tam orta məktəbi 2019-cu ildə bitirmiş Quliyeva Aysel Mübariz qızına verilmiş E-247769 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Milli Aviasiya Akademiyasını 2009-cu ildə bitirmiş Əliyev İlham Saleh oğluna 2011-ci ildə verilmiş BB-I-012931 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Salyan rayon Kürqaraqaşlı kənd tam orta məktəbin IX sinfini 2021-ci ildə bitirmiş Əzizov Tuncay Yalçın oğluna verilmiş C-503860 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 3 nömrəli tam orta məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Mikayılov Əlifağa Vüqar oğluna verilmiş A-154014 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

2 nömrəli Bakı Baza Tibb Məktəbi tərəfindən 2010-cu ildə Əliyeva Aygün Nadir qızına verilmiş BB-II-101730 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Şəmkir şəhər M.Füzuli adına təbiət və humanitar fənlər təmayüllü tam orta məktəb-liseyi 2005-ci ildə bitirmiş Hacıyeva Aynur Səmənd qızına verilmiş A-177872 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Gəncə şəhər 13 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Məmmədov Kamran İsgəndər oğluna verilmiş B-113827 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Gəncə şəhər 39 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Abdullayev Cövdət Məhər oğluna verilmiş A-029141 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Xaçmaz şəhər 7 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Osmanova (Məmmədova) Ruhiyyə Ələnur qızına verilmiş B-349663 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 198 nömrəli tam orta məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Səlimova (Ələkbərova) Xanım Rahab qızına verilmiş A-448939 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci tərəfindən 2022-ci ildə Əliyeva Aybəniz Rövşən qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Neftçala rayon Qırmızıkənd kənd tam orta məktəbi 1992-ci ildə bitirmiş Səmədov Elşad Hüseynqulu oğluna verilmiş A-165160 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Sumqayıt şəhər 17 nömrəli tam orta məktəbin IX sinfini 1987-ci ildə bitirmiş Məmmədov (Həşimov) Xəqani Balaqardaş oğluna verilmiş 204049 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Ağcabədi rayon Aran kənd 1 nömrəli tam orta məktəbi 1989-cu ildə bitirmiş Möylanverdiyev Azər Oruc oğluna verilmiş 582175 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 271 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Bağırova Mayya Bahəddin qızına verilmiş B-375477 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Cəbrayıl rayon 5 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Nəbizadə Fehruz Şərəkət oğluna verilmiş E-155392 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Salyan şəhər 1 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Mikayılov Xəyyam Vaqif oğluna verilmiş A-251079 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Sumqayıt 35 nömrəli Orta Texniki Peşə Məktəbi (indiki Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 1987-ci ildə Abbasov Etibar İslam oğluna verilmiş 824555 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Beyləqan rayon Qəhrəmanlı qəsəbə tam orta məktəbi 2013-cü ildə bitirmiş Qənbərli Hacıbaba Rayil oğluna verilmiş A-211753 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Beyləqan rayon Örənqala qəsəbə tam orta məktəbi 2004-cü ildə bitirmiş İbrahimova (Hümbətova) Elladə İnşallah qızına verilmiş A-046360 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Əziz Əliyev adına Sumqayıt Tibb Məktəbi tərəfindən 2004-cü ildə Mustafayeva Rəna Valeh qızına verilmiş BB-II-007524 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

29 nömrəli Orta Texniki Peşə Məktəbi tərəfindən 1987-ci ildə Səfərəliyev Nəriman Mehdiqulu oğluna verilmiş A-419094 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Şəmkir rayon Çaparlı kənd tam orta məktəbi 2012-ci ildə bitirmiş Həsənova Fatimə Eyvaz qızına verilmiş A-161085 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız saylır.

Heydər Əliyev adına Liseyi 2016-cı ildə bitirmiş Mədədli Kamal Allahverdi oğluna verilmiş A-496394 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Cəlilabad rayon Göytəpə şəhər 2 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Hüseynov Azər Səyyad oğluna verilmiş E-315580 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı Dövlət Universiteti tərəfindən 2010-cu ildə Mürsəlov Elxan Əfqan oğluna verilmiş B-196572 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Kooperasiya Universiteti tərəfindən 2010-cu ildə Axundov Emin Faiq oğluna verilmiş B-198600 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Tibb Universiteti tərəfindən 2001-ci ildə Mütəllimov Pərviz Rasim oğluna verilmiş A-063734 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

Abşeron rayon Görədil kənd tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Atababayeva Günay Ədalət qızına verilmiş A-410562 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Bərdə rayon Mehdili kənd tam orta məktəbi 1999-cu ildə bitirmiş Muxtarova Ruzigar Feruz qızına verilmiş A-354367 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Kürdəmir rayon Qarasu kənd tam orta məktəbin IX sinfini 1996-cı ildə bitirmiş Quluyeva (Həbilova) Həmayə Böyükkişi qızına verilmiş B-115102 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 82 nömrəli tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Məmmədzadə Hicran Mehman qızına verilmiş 974377 nömrəli ümumi orta təhsil haqqında attestat və 2012-ci ildə bitirmiş 098534 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 158 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Abbasova İlahə Tehran qızına verilmiş A-500936 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 73 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Hüseynov Nicat Hüsən oğluna verilmiş E-003469 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Beyləqan rayon İmamverdilər kənd tam orta məktəbi 2003-cü ildə bitirmiş Süleymanova (Mirzəyeva) Həmidə Əhəd qızına verilmiş A-660339 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Şəki Dövlət Texniki Kolleci tərəfindən 2016-cı ildə Məmmədova Arzu Azad qızına verilmiş AA-076997 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Zaqatala rayon Əliabad qəsəbə 1 nömrəli tam orta məktəbi 1990-cı ildə bitirmiş Mahmudova Nərgiz Hacıməmməd qızına verilmiş AR-129204 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Şərur rayon Çomaxtur kənd tam orta məktəbi 1992-ci ildə bitirmiş Məmmədov Əhməd Nəriman oğluna verilmiş A-201406 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibatsız sayılır.

Şərur rayon Zeyvə kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Sərxanbəyova (İsmayılova) Xasa Mənsim qızına verilmiş B-385111 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Quba rayon Nərimanabad kənd tam orta məktəbin IX sinfini (Alekseyevka kənd tam orta məktəb) 1991-ci ildə bitirmiş Kərimov Mətləb Şərafəddin oğluna verilmiş A-850394 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Daşkəsən rayon Qıyıxlı kənd ümumi orta məktəbin IX sinfini 1990-cı ildə bitirmiş Məmmədəliyev Ərəstun Tofiq oğluna verilmiş C-488897 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Abşeron rayon Ceyranbatan qəsəbə 2 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Bağırov Əli Bayram oğluna verilmiş E-168105 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti tərəfindən 2017-ci ildə Əliyev Qurban Nəriman oğluna verilmiş A-121378 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası tərəfindən 2018-ci ildə Əbilov Elvin Arzu oğluna verilmiş C-006857 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

“Ankara məktəbi” məktəb-liseyi (77 nömrəli orta ümumtəhsil məktəb) 1999-cu ildə bitirmiş Quliyev Elşən Tofiq oğluna verilmiş A-309413 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Sumqayıt şəhər Evdə fərdi təhsil məktəbin IX sinfini 2000-ci ildə bitirmiş Nuriyeva Vüsalə Qüdrət qızına verilmiş B-323118 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Cəbrayıl rayon Böyük Mərcanlı kənd tam orta məktəbi 2000-ci ildə bitirmiş Məstəliyeva Minə Fəxrəddin qızına verilmiş A-340334 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Qazax şəhər 2 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Nəcəfov Tural Faik oğluna verilmiş A-369207 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Babək rayon Cəhri kənd 1 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Əliyev Turqut Rəşid oğluna verilmiş A-497642 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

ALLAH RƏHMƏT ELƏSİN!

İdrak Liseyinin rəhbərliyi və pedaqoji kollektivi Liseyin müəllimi Tünzalə Eylazovaya atası

İSA MÜRŞÜDOVUN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“Mən uşağı yetişdirmək üçün müəllimlik edirəm”

“Yeni çağırışlar”ın qonağı



Ziya Selçuk: “Mənim təhsillə bağlı görüşlərim dünyadakı bütün uşaqlar üçün nəzərdə tutulub”

“Yeni çağırışlar” onlayn müzakirə proqramının budəfəki qonağı professor, “Maya” məktəblər şəbəkəsinin yaradıcısı Ziya Selçuk olub. Belə ki, Elm və Təhsil Nazirliyinin dəstəyi və “T-Network” təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının təşkilatçılığı ilə davam edən “Yeni çağırışlar” proqramının 28 dekabr 2022-ci il tarixində yayımlanan bölümündə Türkiyənin ən tanınmış elm xadimlərindən olan professor ilə “Uşaqları məktəbə yox, məktəbi uşaqlara hazırlamaq” mövzusu ətrafında danışılıb. “T-Network”un rəhbəri,təhsilin idarə olunması üzrə mütəxəssis Cəfər Mənsiminin təqdimatında davam edən proqram Elm və Təhsil Nazirliyinin “Facebook” səhifəsi üzərindən canlı yayımlanıb.

Uşağın ehtiyacları üzərindən təhsil

Dünya Azərbaycanlılarının Həmrəylik Gününü və Yeni ili nəzərə alaraq dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin “Xəmsə”sindən ibarət kitablardan qurulan “şam ağacı” fonunda qonağı salamlayan görüşün aparıcısı Cəfər Mənsimi professoru izləyicilərə yaxından təqdim edib. Bildirilib ki, Ziya Selçuk 2018-2021-ci illərdə Türkiyənin milli təhsil naziri vəzifəsində çalışıb. “40 dəfə demişəm”, “Təhsil psixologiyası”, “Həyatın içindəki tədris proqramı “ və s. adlı kitabların müəllifidir.

C.Mənsiminin “Nə vaxtdan Ziya olmaq qərarına gəldiniz? Hansı xüsusiyyətlərinizlə örnəksiniz?” suallarına cavabında Ziya Selçuk qeyd edib: “Hər kəsin dünyada bir vəzifəsi vardır və hər birimiz örnək olmaqla qarşı-qarşıyayıq. Hər insan yaxın və uzaq çevrəsində davranışları, düşüncələri, duyğuları ilə özünü əks etdirir. Biz də peşəmiz çərçivəsində bir müəllim olaraq çeşidli qruplarda, universitetlərdə dərslər vermək və bəlli mövzuları insanlarla paylaşmaq durumunda olduğumuz üçün istər-istəməz beləcə örnək oluruq. Örnək olmaq qərarına gəlmək də hər insanın dünyadakı ən böyük vəzifəsidir deyə düşünürəm”.

Təhsildə təbliğ etdiyi əsas ideya haqqında danışarkən professor bildirib ki, min illər boyunca insanların təhsillə bağlı fikirləri, baxışları dəyişə bilər, lakin əsas olan insanı, uşağı mərkəzə almaq və uşağın ehtiyacları üzərindən təhsil verməkdir. Elm xadiminin fikrincə, uşaq anadan olan kimi sevgiyə, qayğıya ehtiyac duyur, bu, onun haqqıdır və böyüklər onun bütün ehtiyaclarını təmin etməlidir. Daha sonra uşaqların digər emosional ehtiyacları vardır və onları da təmin etmək lazımdır ki, uşaq emosional cəhətdən şəxsiyyət olaraq formalaşsın. Bu məqsədlə də uşaqların incəsənətlə maraqlanması şərtdir. Şagirdlərin fiziki intizama sahib olmasının da vacibliyindən danışan qonaq bildirib: “Şagirdin zehni, emosional və fiziki inkişafını əsasa alan bir təhsil sistemi hər zaman təbiəti də izah etmiş, uşağın şəxsiyyətinə də hörmət göstərmiş olur”.

Təhsil uşaqların gözü ilə

Aparıcının “Bildiyim qədərilə siz təhsilə uşaqların gözü ilə baxmağı tövsiyə edirsiniz. Təhsilə uşaqların gözü ilə baxdığımız zaman necə bir mənzərə ilə qarşılaşırıq?” sualına cavab olaraq professor diqqətə çatdırıb ki, uşaqlar dünyaya gəldiyi gündən hər şeyə maraq göstərir, ətrafı öyrənməyə, araşdırmağa cəhd edirlər. Önəmli olan uşağın ətrafındakı böyüklərin - valideynlərin, müəllimlərin uşağın təbii marağının qarşısını almamaq, ona əngəl olmamaqdan ibarətdir. Z.Selçukun sözlərinə görə, uşağın təbii marağının qarşısını alarkən təhsilinin də qarşısını almış oluruq. Uşaqların gözü ilə baxdıqda böyüklərin istəkləri, arzuları, onların dünyasındakı aktual olan mövzuları deyil, uşağın ehtiyacını görmək lazımdır. Yəni uşaqlar nəyisə öyrənmək istəyərkən onlara digər şeyləri, böyüklərin istədiyi, marağında olduğu məlumatları onlara vermək lazım deyil. Uşaqlar istədiklərini, nəyə gərək duyduqlarını böyüklərə mesaj olaraq bildirirlər, onlar isə işlə, diplomatiyayla bağlı aktual, populyar olan məsələləri uşağa ötürürlər.

“Sizin qurucusu olduğunuz “Maya” məktəblərinin fəlsəfəsində “ən yaxşı kurikulum uşağın içərisindəki yanaşmadır” söylənilir. Bu yanaşma “Maya” təcrübəsində necə nəzərdə tutulub, necə tətbiq olunmaqdadır? Ən yaxşı kurikulum uşağın içərisindədir fikrinin təhsil dünyasında təbliği haqqında nə söyləmək istərdiniz?” sualına cavabında professor bildirib: “Mənim təhsillə bağlı görüşlərim dünyadakı bütün uşaqlar üçün nəzərdə tutulub. Görüşlərimi tək bəlli bir təhsil müəssisəsinin uşaqları üçün ortaya qoymuram. Uşaqların içindəki kurikulumdan çıxardığım budur ki, hər bir uşaq dünyaya gəldiyində nəyəsə maraqlı olur: ətrafa, idmana, əşyalar və mexanizmlərə, açıq havaya daha çox ehtiyac duyur. Bu hətta bir neçə aylıq körpələrin davranışlarında belə müşahidə edilə bilər. Misal olaraq, körpələr var ki, yad insanların qucağına getməz, ağlayar, bəziləri isə sosial təması çox sevər, hamının qucağına gedər, bəzi körpələr səs çıxaran əşyalarla oynamağı sevər və s. Bunların əsasında körpələrin nəyə meyilli olduğunu, nəyə ehtiyac duyduğunu içində gətirdiyi kurikulum göstərir. Bir uşağın potensialı nədədirsə, nəyə meyillidirsə, onu incələyib həmin ehtiyaclara görə uşağa təhsil verməyə çalışmaq lazımdır. Hər kəsə eyni proqram tədris edildiyi, eyni sualların verildiyi dünya təhsil sistemlərində uşağın şəxsi arzu və ehtiyaclarına məhəl qoyulmur. Bu, hər kəsə 40 ölçülü ayaqqabı geyindirməyə bənzəyir. Təhsil işçiləri olaraq özümüzə sual verməliyik ki, əgər uşaqlar fərqlidirsə, fiziki cəhətdən hər biri xüsusi özəlliklərə malikdirsə, o zaman niyə onlara eyni dərsi veririk, eyni kitabı oxuduruq, eyni sualları soruşuruq, hər kəsə eyni proqram tətbiq edirik?”

Həyat məktəbi və məktəb həyatı

Həyat məktəbinin məktəb həyatına çevrilməsi məsələsinə toxunan Ziya Selçuk həyat məktəbi anlayışını şagirdlərin lehinə olan bir məqam adlandırıb: “Bəzən həyat bizi istəmədiyimiz yerlərə götürə bilər, bu uşağın istəklərinə zidd və həmin həyata uyğunlaşmaq çox çətin ola bilər. Eyni zamanda həyata uyğunlaşmaq məcburiyyəti ilə yanaşı həyatın da uşağın təbiətinə uyğunlaşması gərəkdir, bu məqamı da diqqətə almaq lazımdır. Sadəcə uşağın həyata uyğunlaşması kifayət etməz. Həyat şərtlərinin də uşaq üçün nə mənaya gəlməsi diqqətə alınmalıdır. Müəllimlər öz siniflərinə girməmişdən qabaq düşünməlidirlər ki, bir il boyu öyrədəcəklərimi uşaqlar mənimsəyə biləcəkmi? Bunun üçün müəllimlər öncədən şagirdləri test etməli, bir il keçəcəklərini bu ön testdə cəmləşdirməli, uşaqların nəyi bilib-bilməməyini öyrənməli, daha çox hansı istiqamətə diqqət yetirilməli olduğunu özü üçün aydınlaşdırmalıdır. Uşaqları əvvəlcədən test etmədən birbaşa dərslərə keçmək onların həyatla əlaqəsini kəsmək anlamına gəlir. Bizim əsas məqsədimiz kurikulum, yoxsa uşağı yetişdirməkdir? Əsas olan məsələ budur. Mən uşağı yetişdirmək üçün müəllimlik edirəm. Bundan irəli gələrək sinfin durumuna görə tədris etmək, ehtiyaclara görə fərqli yönlərə də zaman ayırmaq gərəkdir. Əks təqdirdə uşaqların maraq göstərmədiyi məqamları öyrətməyə çalışacağıq və zorla öyrətməyə çalışdığımız mövzuların mənimsənilməsində ciddi problemlər yaranacaq”.

Şagird aktivliyi

Professorun fikrincə, şagirdlərə kənardan verilən məlumatlar əvəzinə onlara bilik təcrübəsi yaşatmaq lazımdır. Misal olaraq, israfçılıqla əlaqəli mövzunu uşaqların bir yerdə çalışaraq, layihə hazırlayaraq, bu problemi özününküləşdirərək aradan qaldırma yollarını düşünməsini tətbiq etmək lazımdır. Qonaq deyib: “Kənardan bunlar doğru, bunlar səhvdir deyib daha sonra da imtahan etmək və cavab almaq yetərli deyil. Şagirdlərin təcrübədən keçirmədiyi, sadəcə söylənilən, başa salınan, əzbərlətdirilən mövzular tez bir zamanda unudulur. Öyrədilən mövzunun içində olması üçün uşağın bir saat təcrübə etməsi gərəkdir. Bizim verəcəyimiz məlumatlar onsuz da axtarış saytlarında vardır və uşaq asanlıqla bu məlumatları oradan əldə edə bilər. Müəllim düşünməlidir ki, “Google”-da olmayan nədir ki, mən onu başa salım, uşaqlara onu yaşadım. Uşağın bir saata qədər araşdırması, nəyinsə üzərində düşünməsi, çözməyə çalışması onun əsl bilik qazanması ilə nəticələnər, qulaqla eşitdiyi isə onu həyata hazırlamaz”.

Z.Selçuk onu da qeyd edib ki, şagirdlərin hər hansı bir mövzuda öyrənəcəkləri bilikləri öncə onlara tapşırıq şəklində vermək lazımdır ki, onlar bu mövzunu araşdırıb bir layihə hazırlasınlar. Sonra şagirdlərə sual ünvanlanmalıdır ki, onlar burada nəyi problem gördülər və ya burada problem görməyənlər varmı? Qərarları alıb şagirdlərə posterlər hazırlatmaq olar. Uşaqları iki qrupa bölərək hazırladıqları posterləri müqayisə etmək gərəkdir. Mövzu ətrafında qruplar, müzakirə və mübahisə etməlidir, bunun nəticəsində də sinfin əldə etdiyi bilikləri nəzərdən keçirmək olar. Beləcə şagirdlər mövzunu yaşayaraq tam qavraya bilərlər. Professorun fikrincə, şagirdlərə “oturun başa saldıqlarımızı yaxşı dinləyin, dinlədiyinizi də yadınızda saxlayın” deyib daha sonra da şagirdləri imtahan etmək və “imtahanda yaxşı cavab versəniz həyata hazır olacaqsınız” demək heç doğru deyil. Şagirdlərin siniflə, qrupla, yoldaşları ilə bir yerdə müzakirə etdiyi, araşdırdığı, mübahisə etdiyi mövzu daha yaddaqalan olur. Əsas məqamlardan biri dərslərdə şagirdin və ya müəllimin nə qədər aktiv olmasındadır. Müəllim aktivdirsə, burada çox nəticə gözləmək olmaz. Şagird aktivdirsə, orada həyata hazırlıqlı gənclər yetişir.

Şagirdin maraqlarına xidmət edən kurikulum

C.Mənsiminin “Bugünkü təhsil sistemimizi necə qiymətləndirərdiniz? Daha yüksək qiymət almaq üçün, təhsilimizi daha da inkişaf etdirmək üçün nələri etmək gərəkdir?” sualına cavab olaraq qonaq vurğulayıb: “Verdiyimiz təhsilin sonunda şagirdlər öz iradələrinə sahib çıxa bilirlərsə, intizamlıdırlarsa, emosional və fiziki cəhətdən sağlamdırlarsa, fəlsəfi və düşünmə anlamında səy göstərirlərsə, yeni şeyləri öyrənmək üçün maraqları davam edirsə, yaşamaqdan zövq alırlarsa, çalışmağı sevirlərsə, demək, üzərimizə düşəni layiqincə yerinə yetiririk. Lakin şagirdlər dərslərə zorla gedirlərsə, heç nəyə maraq göstərmirlərsə, ətraf mühiti nəzərə almırlarsa, çalışmağı sevmirlərsə, dərslərdən qaçırlarsa və dərsləri buraxırlarsa, imtahanları, kitab oxumağı sevmirlərsə biz öhdəmizə düşəni etmirik deməkdir”.

Aparıcı bildirib ki, proqramda qonaq olan bir çox şəxslər uşaqların məktəblərdə xoşbəxt olmadığını söyləyib və bu mövzuda professorun nə düşündüyünü soruşub. Bu suala cavab verən qonaq ilk növbədə “uşaqlar məktəbə niyə gəlir, məktəbi niyə sevir” suallarını verməyin önəmindən danışıb. O, bir çox şagirdin məktəbə yüksək qiymət almaq, dərslərdə bacarıqlı olmaq, imtahanlarda yüksək nəticə əldə etmək, attestat almaq üçün deyil, sadəcə dostları məktəbə getdiyi üçün getmələri fikrini səsləndirib. Yəni sadalanan nailiyyətlərin əldə olunması şagirdlərin deyil, daha çox valideynlərin və müəllimlərin məqsədidir. “Şagird “ən yüksək balı mən almalıyam, çox öyrənməliyəm, çox oxumalıyam, bacarıqlı olmalıyam” kimi bir məqsədə sahibdirmi? təməl sualını vermək çox vacibdir. Əgər şagird şəxsi məqsədlərinə nail olmaq üçün məktəbə gedərsə, o zaman uşaqlar üçün yüksək səviyyəli təhsil vermiş oluruq, yox əgər şagird məktəbə məcburi, valideynlərinin məqsədləri üçün, hamı gedir deyə, gedərsə perspektivli bir təhsildən danışmaq çox çətin olar. Məktəblərdə tədris olunan proqramlar böyüklər tərəfindən hazırlanmışdır, yəni bu, uşağın deyil, böyüklərin məqsədidir. Uşaqların məqsədi ola bilməsi üçün kurikulumun onların içindəki marağı təmin etməsi, uşağın bir hədəfə yönəlməsi lazımdır. Bunun üçün də şagirdin ehtiyaclarını mərkəzə alan bir proqrama ehtiyac vardır”, - deyə Ziya Selçuk qeyd edib.

Uşaqlara hazır olan məktəblər

“Siz “Maya”da uşaqlar məktəbə hazırdırmı deyil, məktəblər uşaqlara hazırdırmı sualını ön plana çəkirsiniz. Sizcə, məktəblərimiz uşaqlara nə qədər hazırdırlar? Məktəbin uşaqlara hazır ola bilməsi, bir uşağın marağının təmin edilməsi üçün təhsil verənlərə başqa hansı məsləhətləriniz vardır?”sualına cavabında professor vurğulayıb ki, məktəb uşağa hazırdırmı dedikdə, məktəbə gələn hər bir uşağın oxuma, yazma, riyazi biliklərinin nə səviyyədə olmasına baxıb ona uyğun olaraq tədris metodu qurulmalıdır. Məktəb uşağın nəyi bilib-bilməməyini nəzərə almayaraq proqram tərtib edirsə, burada uşaq məktəbə hazırdır prinsipi işləyir. Uşaqların bilik səviyyəsini nəzərdən keçirib onlara uyğun proqram tərtib edən məktəblərdə məktəb uşaqlara hazırdır prinsipi işləyir. Məktəbə gələn uşaqlar arasında əngəlli olanları varsa, onlar üçün məktəbdə şərait yaradılmalıdır. Elm xadiminin fikrincə, uşağın şəxsi özəlliyini diqqətə almaq çox önəmlidir. Uşaqları eyniləşdirmək çox böyük səhvdir.

Aparıcının “Gələcəyin təhsili ilə bağlı danışarkən bildirmisiniz ki, gələcəkdə məlumat cəmiyyətinin yerini xəyal cəmiyyəti tutacaq, hətta Şekspir suyu belə olacağını bildirmişdiniz. Belə bir fikirlərin nəticəsi olaraq təhsil dünyası necə bir nəticə çıxarmalıdır?” sualını cavablayan yazıçı bildirib ki, onun üçün xəyal maye kimidir. Qarşısında milyardlarla məlumat olduğu halda insan seçmə, bəzi şeyləri öyrənməmə haqqına sahib olmalıdır. İnsanın şəxsi ehtiyacı nədirsə onları öyrənməlidir, soruşulan hər şeyi öyrənmək məcburiyyətində deyil. Qonaq söyləyib: “Mənim üçün hazır məlumatlardansa xəyal bililklər daha önəmlidir. Yəni imkan verin mən də xəyal edim, təsəvvürümü genişləndirim, yeni təsəvvürlər ortaya qoyum. Əgər uşağa yalnız illər öncə hazırlanmış və donmuş biliklər verilərsə, o zaman həmin təhsil hazır paket qidasına bənzəyər”.

Uşaqlarda məsuliyyət hissinin inkişaf etdirilməsi ilə bağlı ailə və məktəblər olaraq nə etməli məsələsinə toxunan Ziya Selçuk deyib: “Uşaqlar üçün iki əsas dirək mövcuddur. Bunlardan biri hüquq və azadlıqlar, digəri isə məsuliyyətdir. Əgər bir uşaq ancaq haqqları və azadlığı üzərindən yetişdirilərsə və məsuliyyət sahibi olmazsa evin damını tutan iki əsas dirəkdən biri olmaz. Uşaq məsuliyyət sahibi olmadıqda iradəsi də formalaşmaz, insanlığı da olmaz, çünki sərhəddini bilməz. Sərhəddini bilməyən uşaq şəxsiyyət kimi formalaşa bilməz. Bu səbəbdən uşağın tək haqqları, hüquqları deyil, bir tərəfdən də məsuliyyəti olmalıdır. 2 yaşından etibarən hər uşağı güclü bir şəkildə məsuliyyət qarşısında qoymaq lazımdır. Bu çiçəkləri sulamaq, otağını təmizləmək, oyuncaqlarını toplamaq, yatağını düzəltmək kimi öhdəliklər ola bilər. Əgər bu işləri onun yerinə hər zaman valideynləri edərsə gələcəkdə zəif bir insan yetişəcəkdir”.

8 guşəli yeni çağırışlar

Proqramın ənənəvi “Təhsildə yeni çağırışları 8 guşəli ulduza bənzətsək, onun guşələri hansı çağırışlardan ibarət olar?” sualının cavabında təhsil tədqiqatçısı aşağıdakı çağırışları qeyd edib: “1.Uşaqların təbii ehtiyaclarının qarşılanması; 2.Uşağın iradəsinin formalaşdırılması; 3.Emosional və estetik zövqünün inkişaf etdirilməsi, bunun üçün incəsənətlə məşğul olması; 4.Fiziki sağlamlığın, hərəkət qabiliyyətinin formalaşdırılması; 5.Ətraf mühit və canlılar qarşısında məsuliyyət sahibi olması; 6.Başqalarına yaxşılıq etməsi, uşaqlar ancaq özünü düşünərək yetişsə yenə bir əskiklik olacaq, təkqanadlı quş kimi olacaqlar; 7.Mədəniyyəti yenidən yaratmağa, mədəniyyətə töhfə verməyə can atması; 8.Şagirdlərin müəllimlərinə qarşı sevgi və hörmət bəsləməsi, əks halda təhsil inkişaf etməz”.

Ziya Selçuk həyatın ona öyrətdiyi ən önəmli dərsdən bəhs edərkən “yaxşı gördüklərinizin heç də yaxşı, pis gördüklərinizin isə pis olmadığından ibarətdir” sözlərini qeyd edib. Bu səbəbdən qonaq hər kəsi həyatla qarşılıqlı əlaqədə, yola gedərək, sülh içərisində yaşamağa çağırıb.

Görüşün sonunda “T-Network”un rəhbəri Cəfər Mənsimi qonağa dəyərli fikirləri, ətraflı cavabları üçün dərin minnətdarlığını bildirərək “yeni çağırışlardan birinin də həyatın bizim davranışlarımızın güzgüsü olduğunu qəbul etməkdir” fikri ilə proqramı yekunlaşdırıb.

Lamiyə ƏLİMƏRDANOVA

Verdiyimiz təhsilin sonunda şagirdlər öz iradələrinə sahib çıxa bilirlərsə, intizamlıdırlarsa, emosional və fiziki cəhətdən sağlamdırlarsa, fəlsəfi və düşünmə anlamında səy göstərirlərsə, yeni şeyləri öyrənmək üçün maraqları davam edirsə, yaşamaqdan zövq alırlarsa, çalışmağı sevirlərsə, demək, üzərimizə düşəni layiqincə yerinə yetiririk.

Təhsil işçiləri olaraq özümüzə sual verməliyik ki, əgər uşaqlar fərqlidirsə, fiziki cəhətdən hər biri xüsusi özəlliklərə malikdirsə, o zaman niyə onlara eyni dərsi veririk, eyni kitabı oxuduruq, eyni sualları soruşuruq, hər kəsə eyni proqram tətbiq edirik?

Əsas məqamlardan biri dərslərdə şagirdin və ya müəllimin nə qədər aktiv olmasındadır. Müəllim aktivdirsə, burada çox nəticə gözləmək olmaz. Şagird aktivdirsə, orada həyata hazırlıqlı gənclər yetişir.

Uşaqların içindəki kurikulumdan çıxardığım budur ki, hər bir uşaq dünyaya gəldiyində nəyəsə maraqlı olur: ətrafa, idmana, əşyalar və mexanizmlərə, açıq havaya daha çox ehtiyac duyur.

Şagirdin zehni, emosional və fiziki inkişafını əsasa alan bir təhsil sistemi hər zaman təbiəti də izah etmiş, uşağın şəxsiyyətinə də hörmət göstərmiş olur.

Müəllimlər öz siniflərinə girməmişdən qabaq düşünməlidirlər ki, bir il boyu öyrədəcəklərimi uşaqlar mənimsəyə biləcəkmi?

Şagirdlərin təcrübədən keçirmədiyi, sadəcə söylənilən, başa salınan, əzbərlətdirilən mövzular tez bir zamanda unudulur.

Əgər uşağa yalnız illər öncə hazırlanmış və donmuş biliklər verilərsə, o zaman həmin təhsil hazır paket qidasına bənzəyər.

Uşaqlar üçün iki əsas dirək mövcuddur. Bunlardan biri hüquq və azadlıqlar, digəri isə məsuliyyətdir.